AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
GƏNCƏ BÖLMƏSİ

100



# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN GƏNCƏDƏ QƏBUL ETDİYİ HÜQUQİ AKTLAR VƏ ONUN TARİXİNİN İZAHLI XRONOLOGİYASI

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
GƏNCƏ BÖLMƏSİ

*HƏSƏNBALA SADIQOV*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN GƏNCƏDƏ QƏBUL ETDİYİ HÜQUQİ AKTLAR VƏ ONUN TARİXİNİN İZAHLI XRONOLOGİYASI
## (1918 – 1920)

1126 18

*Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Rəyasət Heyətinin 29 sentyabr 2017-ci il tarixli №08/04 nömrəli qərarı ilə çap olunur*

Azərbaycan Milli
Kitabxanası

**Gəncə-2018**

T3(2i) Y-36

*Layihə rəhbəri:* **Fuad Əliyev, akademik**

*Elmi redaktor:* **Anar İskəndərov, tarix elmləri doktoru, professor**

*Rəyçilər:* **Fəxrəddin Məmmədov, tarix elmləri doktoru, professor**
**Tuncay Ögün, professor, Türkiyə Respublikası**

*Redaktor:* **Mətanət Əliyeva, elmi katib**

*Həsənbala Sadıqov. Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul etdiyi hüquqi aktlar və onun tarixinin izahlı xronologiyası (1918 – 1920). Gəncə, 2018. 175 səh.*

İJBN 5 – 8066 – 1638 – 4

1401000000
655 (07) – 2004

« *ELM* » *nəşriyyatı, 2018*

ARXİV



*"1918-ci il mayın 28-də xalqımızın qabaqcıl ziyalıları, Azərbaycanın gələcəyi haqqında düşünənlər Azərbaycan Xalq Cümhuriyyətinin yaranması haqqında Tiflisdə qərar qəbul etmiş və bu qərarı "İstiqlal bəyannaməsi" adı altında elan etmişlər. Sonra, yəni iyunun ortalarından Azərbaycan Xalq Cümhuriyyətinin Gəncə dövrü başlanmışdır".*

*Ümummilli lider Heydər Əliyev*



*"Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi".*

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

**Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin**

**Sərəncamı**

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və

Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:



1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***
***Bakı şəhəri, 16 may 2017-ci il.***

## 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraqqərara alıram:

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilsin.

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*
*Bakı şəhəri, 10 yanvar 2018-ci il.*

**Azərbaycan Respublikası**
**Gəncə Şəhər İcra Hakimiyyəti Başçısının**

**Sərəncamı**

№ 8 "13" fevral 2018-ci il

"Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamının və "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 yanvar tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 yanvar tarixli, 24s №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı"na müvafiq olaraq **qərara alıram:**

1. Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley tədbirlərinin keçirilməsi üçün aşağıdakı tərkibdə **komissiya yaradılsın:**

**Komissiyanın sədri:**

| | |
|---|---|
| *Elmar Vəliyev* | Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı |

**Komissiya sədrinin müavinləri:**

| | |
|---|---|
| *Elnur Rzayev* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini |
| *Naqif Həmzəyev* | YAP Gəncə Şəhər Təşkilatının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| *Fuad Əliyev* | Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin sədri, akademik |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| *Nizami Hacıyev* | Gəncə Şəhər Nizami Rayon İcra Hakimiyyətinin başçısı |

| | |
|---|---|
| *Eldəniz Xudiyev* | Gəncə Şəhər Kəpəz Rayon İcra Hakimiyyətinin başçısı |
| *Pərvin Kərimzadə* | Gəncə Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, dosent, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| *Mikayıl Zeynalov* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini |
| *Rafiq Şəfiyev* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini |
| *Sevda Qurbanəliyeva* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini |
| *Kamil Quliyev* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| *Xəqani Əbdüləzimov* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| *Flora Zeynalova* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| *Əli Rüstəmli* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Memarlıq və tikinti şöbəsinin müdiri |
| *Həsən Məmmədov* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı |
| *Faiq Şabanov* | Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi |
| *Fazil Həsənəliyev* | Gəncə Şəhər Prokuroru |
| *Əli Əliyev* | Dövlət Təhlükəsizlik Xidməti Gəncə Şəhər İdarəsinin rəisi |
| *Yaşar Abdullayev* | Kəpəz Bələdiyyəsinin sədri |
| *Qoşqar Məmmədov* | Nizami (Gəncə ş.) Bələdiyyəsinin sədri |
| *İbrahim Cəfərov* | Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor |
| *Yusif Yusibov* | Gəncə Dövlət Universitetinin rektoru, professor |
| *Akif Süleymanov* | Azərbaycan Texnologiya Universitetinin rektoru, professor |



| | |
|---|---|
| *Zakir Hüseynov* | Gəncə şəhər Təhsil İdarəsinin müdiri |
| *Əlikram Məmmədov* | Gəncə şəhər Səhiyyə İdarəsinin rəisi, professor |
| *Sənan Hacıyev* | Gəncə Regional Mədəniyyət və Turizm İdarəsinin rəisi |
| *Müşfiq Cəfərov* | Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi |
| *Fəxrəddin Zeynalov* | Gəncə Dövlət Regional Kollecin direktoru |
| *Mehman Rzayev* | Gəncə Tibb Kollecinin direktoru |
| *Ruziyə Rəhimova* | Gəncə Musiqi Kollecinin direktor əvəzi |
| *Xəlil Yusifli* | AMEA-nın Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzinin direktoru, Gəncə Dövlət Universitetinin professoru |
| *Mübariz Yusifov* | Gəncə Dövlət Universitetinin filologiya fakültəsinin dekanı, professor |
| *Həsənbala Sadıqov* | AMEA-nın Gəncə Bölməsinin "Azərbaycan tarixi" şöbəsinin müdiri, Gəncə Dövlət Universitetinin professoru |
| *Ema Aslanova* | Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent |
| *Vüsalə Veysəlova* | Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasının müdiri, tarix elmləri namizədi, dosent |
| *Cavid Bağırzadə* | Gəncə Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru |
| *Azad Bayramov* | Azərbaycan Dövlət Aqrar Universitetinin "İctimai elmlər və multikulturalizm" kafedrasının müdiri, dosent |
| *Hüseyn Budaqov* | YAP Gəncə şəhər Təşkilatının şöbə müdiri, Azərbaycan Texnologiya Universitetinin "İctimai elmlər və multikulturalizm" kafedrasının dosenti |
| *Elnur Həsənov* | AMEA Gəncə Bölməsinin elmi işçisi |
| *Mətanət Əliyeva* | AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutunun elmi katibi |

| | |
|---|---|
| *Samir Cəfərov* | Gəncə Dövlət Filarmoniyasının direktoru, Xalq artisti |
| *Əli Qasımov* | Gəncə Dövlət Dram Teatrının direktoru |
| *Fərmayıl Paşayev* | Gəncə Dövlət Kukla Teatrının direktor əvəzi |
| *İradə Gözəlova* | Gəncə Dövlət Dram Teatrının baş rejissoru |
| *Əli Məmmədov* | Gəncə şəhər Mənzil – Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəisi |
| *Solmaz Məmmədova* | Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Gəncə filialının direktoru |
| *Murad Səttərov* | Gəncə Şəhər İcra Hakimiyyəti başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsinin rəisi |
| *Qalib Bağırov* | Azərbaycan Rəssamlar İttifaqı Gəncə Bölməsinin sədri |
| *Xəzangül Hüseynova* | Azərbaycan Yazıçılar Birliyi Gəncə Bölməsinin sədri |
| *Məmməd Cəfərov* | Azərbaycan Bəstəkarlar İttifaqı Gəncə Bölməsinin katibi |
| *Rəfiqə Sadıqova* | "Gəncənin səsi" qəzetinin baş redaktoru |
| *İrina Kalaşnikova* | "Novosti Qyandji" qəzetinin redaktoru |
| *Fuad Cabbarov* | ARB "Kəpəz" telekanalının baş direktoru |

2. Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi ilə əlaqədar "Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı müvafiq tərtibat işlərinin görülməsini, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin Gəncə şəhərində yaşamış olduqları ünvanlara həkk olunmuş xatirə lövhələrinin təmir edilməsini və həmin ərazilərdə abadlıq işlərinin aparılmasını təmin etmək Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinə tapşırılsın.
4. Sərəncam imzalandığı gündən qüvvədədir.
5. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

*Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı*
*Elmar Vəliyev*
*Gəncə şəhəri, 13 fevral 2018-ci il.*



**№ 14/2**

**Bakı şəhəri** **20 dekabr 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və AMEA-nın təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Azərbaycan Cümhuriyyəti - 100" adlı elmi əsərlərin müsabiqəsinin keçirilməsi haqqında**

112618

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli Sərəncamı ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən "İllik Tədbirlər Planı" hazırlanmış, plana əsasən 35 yaşa qədər gənc tədqiqatçılar arasında "Azərbaycan Cümhuriyyəti - 100" adlı müsabiqənin təşkil edilməsi nəzərdə tutulmuşdur. Müsabiqənin lazımi səviyyədə keçirilməsini təmin etmək üçün Qoruq İdarəsi tərəfindən 14 dekabr 2017-ci il tarixli məktubla AMEA-ya müraciət edilmişdir. Müsabiqənin gənc alimlərin elmi araşdırmalara olan marağının artırılması, onların stimullaşdırılması baxımından əhəmiyyətini nəzərə alaraq, həmçinin AMEA-nın gənc alimlərinin müsabiqədə yaxından iştirakını təmin etmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının ***Rəyasət Heyəti***

***QƏRARA ALIR:***

1. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və AMEA-nın birgə təşkilatçılığı ilə "Azərbaycan Cümhuriyyəti - 100" adlı müsabiqənin keçirilməsi ilə bağlı elan verilsin (elan əlavə olunur).
2. AMEA-nın elmi müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, yaşı 35-dək olan gənc alimlərin müsabiqədə iştirakının təmin edilməsindən irəli gələn məsələləri həll etsinlər.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

***AMEA-nın prezidenti*** ***akademik Akif Əlizadə***

***AMEA-nın akademik-katibi*** ***akademik Rasim Əliquliyev***



Azərbaycan Milli Kitabxanası

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Rəyasət Heyətinin 20 dekabr 2017-ci il tarixli*
*14/2 nömrəli qərarı ilə təsdiq edilmiş*

*əlavə*

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley tədbirləri çərçivəsində "Azərbaycan Cümhuriyyəti – 100" adli müsabiqə elan edir**

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli Sərəncam imzalamışdır. Müsabiqəni təşkil etməkdə məqsəd sərəncamdan irəli gələn bir çox layihələri icra etməklə yanaşı, gənclərə Cümhuriyyət tarixini və fəaliyyətini mükəmməl mənimsətmək, onların arasında maariflənmə işini gücləndirmək, elmi potensialı olan gəncləri bu mövzuda yeni araşdırmalara cəlb etməkdir.

Müsabiqədə 35 yaşa qədər gənc tədqiqatçılar iştirak edə bilər.



**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsinin Rəyasət Heyəti**

**Q Ə R A R**

**№ 08/04**

**Gəncə şəhəri** **29 sentyabr 2017-ci il**

***Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı xronologiyanın hazırlanması haqqında***

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə **Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev** "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncam imzalamışdır.

Azərbaycan milli hərəkatının, milli dövlətçiliyin, ümumiyyətlə, azərbaycançılıq ideyasının təşəkkül tapmasında və inkişafında Gəncə şəhərinin, onun ictimai siyasi mühitinin mühüm təsiri olmuşdur.

Gəncə: müsəlman Şərqində ilk Demokratik Respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə ən mühüm qərarlar məhz Gəncədə verilmişdir: Gəncədə Azərbaycan dili dövlət dili elan olunmuş, ilk dəfə üçrəngli, ay-ulduzlu bayrağımız ucalmış, Üzeyir Hacıbəyovun redaktorluğu ilə "Azərbaycan" qəzeti nəşrə başlamış, ən əsası isə məhz Gəncədə Azərbaycan milli ordusunun təşkili sahəsində ilk cəsarətli addımlar atılmışdır və s.

AMEA-nın Gəncə Bölməsinin Rəyasət Heyətində məsələ ilə bağlı müzakirələr aparılmış və monoqrafiyanın hazırlanması məqsədəuyğun hesab edilmişdir.

Bütün bu göstərilənləri nəzərə alaraq AMEA Gəncə Bölməsinin Rəyasət Heyəti

**QƏRARA ALIR:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədəki fəaliyyəti ilə bağlı geniş elmi tədqiqatlar aparılsın.
2. Məktubun hazırlanması ilə bağlı aşağıdakı tərkibdə işçi qrup yaradılsın:

2.1. t.ü.e.d., prof. Həsənbala Sadıqov;
Mətanət Əliyeva;
Tərانə Verdiyeva;
Aytən İsmayılova;
Vüsal Eminbəyli.

3. Əldə olunan tarixi materiallara əsasən "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul edilmiş hüquqi aktları və tarixinin izahlı xronologiyası (1918–1920)" adlı monoqrafiya hazırlansın.
4. Qərarın icrasına nəzarət Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun "Tarix" şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor Həsənbala Sadıqova həvalə edilsin.

*AMEA Gəncə Bölməsinin sədri,*
*akademik Fuad Əliyev*



**Azərbaycan Milli Elmlər Akademiyası**
**Gəncə Bölməsinin Rəyasət Heyəti**

**QƏRAR**

**№ 04/03**

**Gəncə şəhəri** **05 aprel 2018-ci il**

***"Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul edilmiş hüquqi aktları və tarixinin izahlı xronologiyası (1918–1920)" adlı monoqrafiyanın nəşri haqqında***

Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun "Tarix" şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor Həsənbala Sadıqov AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevə müraciət edərək nəşrə hazırladığı "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul edilmiş hüquqi aktları və tarixinin izahlı xronologiyası (1918–1920)" adlı monoqrafiyanın nəşrə hazır olduğunu bildirmiş və çap edilməsinə razılıq verməyi xahiş etmişdir. Monoqrafiyada Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə fəaliyyət göstərdiyi müddətə aid arxiv materiallarına, çap olunan sənədlər məcmuələrinə və hüquqi aktlara əsaslanaraq tariximizin vacib məqamlarına dair faktlar oxuculara çatdırılır.

Ölkəmizin, xüsusilə Gəncə şəhərinin tarixi üçün yenilik hesab edilən kitabda aparılan araşdırmalar və əldə olunan nəticələr gələcəkdə müvafiq sahədə tədqiqatçılar üçün daha prioritet istiqamətlərdə, multidissiplinar araşdırmaların aparılmasına təkan verəcək.

AMEA-nın Gəncə Bölməsinin Rəyasət Heyətində monoqrafiya ilə bağlı müzakirələr aparılmış və onun çap edilməsi məqsədəuyğun hesab edilmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq AMEA-nın Gəncə Bölməsinin Rəyasət Heyəti

**QƏRARA ALIR:**

1. AMEA-nın Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun "Tarix" şöbəsinin müdiri, tarix üzrə elmlər doktoru, professor Həsənbala Sadıqovun və Diyarşünaslıq İnstitutunun elmi katibi Mətanət Əliyevanın

çapa hazırladıqları "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul edilmiş hüquqi aktları və tarixinin izahlı xronologiyası (1918–1920)" adlı monoqrafiyanın çap edilməsinə icazə verilsin.

2. Qərarın icrasına nəzarəti öz üzərimə götürürəm.

*AMEA Gəncə Bölməsinin sədri,*
*akademik Fuad Əliyev*



## GİRİŞ

Gəncə bəşəriyyətə məlum olan ən qədim şəhərlərdən biridir. Tarixi yaşının dörd min ildən çox olduğu Gəncənin yerləşdiyi təbii coğrafi ərazi burada yüksək şəhər mədəniyyətinin, dövlətçilik ənənələrinin inkişafına rəvac vermişdir. Qərblə Şərq sivilizasiyalarının qovşağında, habelə xristian-müsəlman dünyasının keçid məntəqəsində yerləşən Gəncə dünyanın fəthinə çalışan bir çox fatehlərin hərb meydanına çevrilmişdir. Eradan əvvəl II minillikdə Turan sərkərdəsi Əfrasiyab Gəncə qalası ətrafında fars hökmdarı Keyxosrovu məğlub etmişdir. Eramızın III əsrində romalılar Gəncəyə hücum etmişlər. Qədim Gəncə ərazisi VII-VIII əsrlərdə ərəblərin, XI əsrdə səlcuqların, gürcülərin, XIII əsrdə xarəzmlilərin, monqolların, XIX əsrin əvvəllərində rusların, daha bir çox işğalçıların mübarizə meydanına çevrilmişdir. Comərd Qəssab, Usta Bəndər, Cavad xan kimi qəhrəmanların rəhbərliyi ilə minlərlə igid gəncəlilər düşmənlə qeyri-bərabər savaşda mərdliklə döyüşərək həlak olmuş, adlarını müqəddəs Vətən torpağına axıtdıqları qanları ilə Azərbaycanın qəhrəmanlıq salnaməsinə əbədi olaraq yazmışlar.

Gəncə Azərbaycanda hakimiyyətin, dövlətçiliyin, azadlıq uğrunda mübarizənin önündə olmuşdur. Təsadüfi deyildir ki, Ulu Öndərimiz, Ümummilli liderimiz Heydər Əliyev Gəncə haqqında demişdir: "Gəncə Azərbaycanın, Azərbaycan xalqının zəngin tarixini özündə əks etdirən bir diyardır, gözəl şəhərdir. Biz hamımız – harada yaşamağımızdan asılı olmayaraq hər bir azərbaycanlı Gəncə ilə, onun qədim və zəngin tarixi ilə fəxr etməliyik". Qədim tarixə, möhtəşəm mədəni-milli irsə şərəflə varəsəlik edən bir şəhərə bundan böyük qiymət verilə bilməz.

Tarixin sonrakı gedişatında – XX əsrin əvvəllərində Gəncə dövlətçiliyimiz, milli varlığımız ölüm-qalım dilemması qarşısında qaldığı bir dövrdə də cəsarətlə siyasət meydanına atıldı. 1918-ci il mayın 28-də Azərbaycan istiqlaliyyətinin nəticəsi olaraq yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı və Bakını azad etmək kimi mübariz qırargah olmaq kimi şərəfli funksiyanı öz üzərinə götürdü.

1917-ci ilin Oktyabr inqilabından sonra Rusiyada hakimiyyətə gələn bolşeviklər Qafqazda yalnız 2 dövlət, erməni və gürcü dövlətləri yaradılması ideyasını qəbul edirdilər. Rusiya XKS-nin sədri V.İ.Lenin 1917-ci ilin dekabrında Qafqazda erməni dövlətinin yaradılmasına razılıq vermiş və bu məqsədlə S.Şaumyanı səlahiyyətli şəxs təyin etmişdir. İstər Sovet Rusiyası, istərsə də S.Şaumyan başda olmaqla Bakı Soveti və ora daxil olan bolşevik, eser, menşevik və daşnaklar Azərbaycanda dövlət yaranmasına qarşı çıxırdılar. Onlar xüsusilə Bakını heç cür Rusiyasız təsəvvür edə bilmirdilər. Bu isə Bakıda milli qüvvələrlə Bakı Soveti arasında mübarizələrə gətirib çıxarırdı. Əslində S.Şaumyan və onun kampaniyasının 1918-ci ilin martında törətdikləri qırğının əsas səbəbi də Azərbaycanın müstəqilliyini tələb edən qüvvələri məhv etməkdən ibarət idi.

1918-ci il mayın 26-da gürcü Milli Şurasının Gürcüstanın müstəqilliyini elan etməsi ilə Zaqafqaziya Seymi buraxıldı. Seymin 44 nəfərdən ibarət olan Azərbaycan fraksiyası nümayəndələri yaranmış çətin vəziyyəti düzgün qiymətləndirərək mayın 27-də fövqəladə iclas keçirdi. Vəziyyətin mürəkkəbliyi ondan ibarət idi ki, dərhal qərar qəbul etmək lazım idi. Ya öz müstəqilliyini elan edib milli dövlət yaradılmalı, ya da Azərbaycanın ərazisi Rusiya, Gürcüstan və Ermənistan arasında bölünərək tarix səhifəsindən silinməli idi.

Tarixi əhəmiyyəti son dərəcə böyük olan bir məqamda Zaqafqaziya Seyminin Azərbaycan nümayəndələri yekdilliklə Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürməyi qərara aldı və özünü Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. Onun namizədliyini "İttihad"dan başqa bütün partiyaların nümayəndələri qəbul etdilər. Sonra isə müxtəlif sahələrdə işlərə rəhbərlik etmək üçün Milli Şuranın 9 nəfərdən ibarət icraiyyə orqanı yaradıldı. F.X.Xoyski yekdilliklə icra orqanının sədri seçildi. Mayın 28-də Milli Şuranın ilk iclası keçirildi. Şuranın üzvü X.Xasməmmədov çıxış edərək təxirə salınmadan müstəqil respublika elan edilməsinin zəruriliyini əsaslandırdı. Bu təklif ətrafında geniş müzakirələrdən sonra Milli Şura 2 nəfər bitərəf olmaqla 24 səslə dərhal Azərbaycanın istiqlaliyyətinin elan edilməsi haqqında qərar qəbul etdi və 6 bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi. İclasda iştirak edən bütün Milli Şura üzvləri bəyannaməni ayaq üstdə dinlədilər. "İstiqlal bəyannaməsi" aşağıdakı müddəalardan ibarət idi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət hüququna malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.
2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.
3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.
4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.
5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.
6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti Hökumət durur.

"İstiqlal bəyannaməsi" elan olunduqdan sonra Milli Şura Azərbaycan hökumətinin təşkilini F.X.Xoyskiyə həvalə etdi. Milli Şura bir saatlıq fasilədən sonra F.Xoyskinin təqdim etdiyi ilk hökumət kabinetinin tərkibini təsdiq etdi.

***Müstəqil Azərbaycanın birinci hökumətinin tərkibi belə idi:***
***Nazirlər Şurasının sədri və daxili işlər naziri – Fətəli xan Xoyski***



***Hərbi nazir – Xosrov Paşa Sultanov***
***Xarici işlər naziri – Məmməd Həsən Hacınski***
***Maliyyə və xalq maarifi naziri – Nəsib bəyYusifbəyli***
***Ədliyyə naziri – Xəlil bəy Xasməmmədov***
***Ticarət və sənaye naziri – Məmməd Yusif Cəfərov***
***Əkinçilik və əmək naziri - Əkbər ağa Şeyxülislamov***
***Yollar və poçt-teleqraf naziri – Xudadat bəy Məlikaslanov***
***Dövlət nəzarəti naziri - Camo bəy Hacınski***

Bununla da Azərbaycan Milli Şurası Azərbaycan milləti qarşısında çox böyük tarixi missiyanı yerinə yetirdi. Dini təməl üzərində qurulan türk mənşəli bütün dövlətlərdən fərqli olaraq Azərbaycan Respublikası dünyəvi təməl üzərində qurulan ilk türk dövləti idi. Azərbaycan milli dövlətinin yaradılması bir sıra mühüm səbəblərə görə millətin taleyində tarixi hadisə idi. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "28 may 1918-ci il Bəyannaməsini nəşr etməklə Azərbaycan Milli Şurası sözün siyasi mənası ilə bir Azərbaycan millətinin varlığını təsbit etmişdir. Belə ki, Azərbaycan kəlməsi sadə coğrafi, etnoqrafik və linqvistik bir kəlmə olmaqdan çıxaraq siyasi bir aləm olmuşdur."

Beləliklə, bütün türk-müsəlman dünyasında, bütövlükdə Şərqdə ilk dəfə olaraq Azərbaycanda parlamentli Respublika yaradıldı. Müəssislər Məclisi yaradılanadək Milli Şura ölkədə ali qanunverici, təşkil edilən müvəqqəti hökumət isə ali icraedici orqan hesab olunurdu.

Dahi Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyev bu tarixi bəyannamənin siyasi dəyəri haqqında yazır: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi Bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı."

Beləliklə, 1918-ci il mayın 28-də yaranmış müstəqil Azərbaycan Respublikası böyük bir xalqı məhv olmaqdan xilas etdi. Son dərəcə çətin və mürəkkəb bir dövrdə - düşmənin Azərbaycanı əhatəyə aldığı, Rusiyanın Azərbaycandan əl çəkmək istəmədiyi, xristian faktorunun tam gücüylə xalqımızın əleyhinə işlədiyi, xarici qüvvələrin bu strateji məkanı nəyin bahasına olursa olsun, ələ keçirmək niyyətində olduğu bir dövrdə ADR çox böyük bir cəsarətlə ənənəvi tarixi ərazilərimizə və Azərbaycanın hüdudlarında olan milli sərvətlərimizə sahib durdu.

1918-ci il mayın 30-da Azərbaycan istiqlaliyyətinin elan olunması haqqında F.Xoyskinin imzası ilə radio-teleqram dünyanın aparıcı dövlətlərinin paytaxtlarına – Berlin, London, Buxarest, Vyana, Paris,

İstanbul, Roma, Vaşinqton, Sofiya, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristaniya (Oslo) və Kopenhagenə göndərildi. Teleqramda deyilirdi: "Gürcüstan çıxandan sonra federativ Zaqafqaziya Respublikası dağıldığı üçün Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət Azərbaycan Respublikası yaratmışdır. Deyilənləri nəzərinizə çatdıraraq zati-alinizdən bu barədə hökumətinizə xəbər verməyinizi rica edirəm. Mənim hökumətimin müvəqqəti məskəni Yelizavetpol şəhəridir". Yelizavetol – yəni Gəncə şəhəri.

Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı kimi Gəncənin seçilməsi təsadüfi deyildir.

Milli təfəkkürün inkişaf etdiyi Gəncə şəhəri Şərqin ən qədim elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri idi. Gəncə şəhəri ictimai-siyasi fikrin, milli təəssübkeşliyin inkişaf etdiyi bir məkan idi. Burada milli ruh, milli düşüncə daha güclü idi. Məhz bu səbəbdəndir ki, AXC-nin elan edilməsində əvəzsiz xidməti olan Azərbaycan oğullarının çox hissəsi ya Gəncədən idi, ya da Gəncədə fəaliyyət göstərmişdir.

XX əsrin əvvəllərində Bakıdan fərqli olaraq Gəncədə fəaliyyət göstərən Azərbaycan ziyalıları və milli burjuaziya erməni və rus burjuaziyası və ziyalılarının rəqabətindən azad idilər. Gəncədə azərbaycanlıların ictimai və siyasi təşkilatlarının yaradılması artıq XIX əsrin sonlarından başlamışdır. 1891-ci ildə Yelizavetpolda şagirdlərə yardım cəmiyyəti, 1900-cü ildə sosial-demokrat dərnəyi, 1905-ci ildə Azərbaycana muxtariyyat və Rusiyanın federativ şəkildə qurulması ideyalarını ortaya qoyan ilk siyasi qüvvə olan türk sosial-federalist inqilabi komitəsi yaranmışdır ki, məhz bu komitənin əsasında "Qeyrət" təşkilatı yaranmışdır. Gəncədəki ictimai təşkilatların önündə 1906-cı ildə Ə.Rəfibəylinin təşəbbüsü ilə yaranmış Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti dururdu. Bu təşkilat 30 iyun 1906-cı ildə Gəncə qubernatoru tərəfindən qeydə alınmışdır. Təşkilatın məqsədi kasıblara, xəstələrə, ali və orta məktəb tələbələrinə, ermənilər tərəfindən soyqırıma məruz qalmış azərbaycanlılara yardım etmək idi.

1905-ci ildə Bakıda Ə.Ağaoğlunun rəhbərliyi ilə ermənilərə qarşı mübarizə aparmaq üçün "Fədai" adlı gizli bir cəmiyyət yaranmışdır. Sonralar bu təşkilat "Difai" adlanmağa başladı. Difainin ilk bölgə təşkilatı 1906-cı ildə Gəncənin ən mötəbər, tədbirli, xalq arasında sözü keçən adamlarından biri olan Ələkbər bəy Rəfibəylinin rəhbərliyi ilə Gəncədə yarandı. Ermənilərin hücumlarına qarşı Gəncədəki "Cəmiyyəti Xeyriyyə" və "Nəşri Maarif" cəmiyyətlərinin binası qərargaha çevrilmişdir. Azərbaycan türklərinə düşmən olan ermənilərə, rus məmurlara və satqınlara divan tutan Difai partiyası 1917-ci ildə açıq fəaliyyətə keçmişdir. Bu mübariz millətsevər təşkilatlardan başqa 1914-cü ildə Şəhərlər Birliyinin Gəncə komitəsi (sədr X.Xasməmmədov), 1917-ci ildə Federalistlər partiyası, 1917-ci ilin sentyabrında "İttihadi-İslam" partiyası və digər ictimai-siyasi təşkilatlar da yaranmışdır.



Xüsusilə Fevral inqilabından sonra çarizmin müsəlman əhaliyə qarşı yönəlmiş məhdudiyyətlərin ləğvi uğrunda mübarizə azərbaycanlıların siyasi təşkilatlanmalarını xeyli sürətləndirdi. 1917-ci il martın 16-da Gəncədə dövlət orqanlarında milli mənafeyi müdafiə etmək məqsədilə Müsəlman İctimai Təşkilatlarının Milli Şurası və onun icraiyyə komitəsi təşəkkül tapdı. Erməni və rusların müqavimətinə baxmayaraq Yelizavetpol Müsəlman Milli Şurası qısa müddət ərzində mühüm siyasi qüvvəyə çevrildi. Şuranın nümayəndəsi X.Xasməmmədov Yelizavetpol ictimai təhlükəsizlik komitəsinin sədri seçildi.

1917-ci ilin aprelində Gəncədə N.Yusifbəyli başda olmaqla Türk-Ədəmi-Mərkəziyyət partiyası təşkil edildi. Bu partiya Azərbaycan tarixində ilk dəfə olaraq Azərbaycan dövlətçiliyinin bərpası ideyası ilə çıxış etdi.

Geniş kütlələri öz məqsəd və məramları ilə tanış etmək üçün partiya 1917-ci ilin novruz bayramı ərəfəsində Gəncədə, Şah Abbas məscidinin qarşısında böyük mitinq təşkil etdi. Nəsib bəy Yusifbəyli həmin mitinqdəki çıxışında Azərbaycan məfhumunu siyasi məfhum kimi gündəmə gətirdi və ilk dəfə olaraq Azərbaycanın muxtariyyatını bir tələb kimi ortaya qoydu. Həmin mitinqdə "Yaşasın demokratik Respublika!", "Yaşasın Türk-Ədəm-Mərkəziyyət partiyası!" şüarları səslənmişdir.

Siyasi mövqeləri eyni olduğundan 1917-ci il iyun ayında Bakida 1911-ci ildə yaranmış Müsavat partiyası və Türk-Ədəmi-Mərkəziyyət partiyası birləşərək Türk-Ədəmi-Mərkəziyyət Müsavat partiyası yaradıldı.

Bakıda bütün idarəçilik strukturları rus və erməni burjuaziyasının nəzarətində olduğundan Gəncə Müsəlman Milli Şurası Azərbaycan milli-azadlıq hərəkatının mərkəzinə çevrildi. Gəncə Müsəlman Milli Şurasına N.Yusifbəyl (sədr), Adilxan və İsmayılxan Ziyadxanovlar və Xudadat bəy Rəfibəyov kimi dövrün görkəmli ictimai və siyasi xadimləri daxil idi.

Rusiyada 1917-ci il Oktyabr Sosialist inqilabından sonra çarizmin süqutu ilə V.İ.Lenin başda olmaqla bolşeviklər hakimiyyəti ələ aldılar. Beləliklə, Qafqaz ordusu dağıdıldı. Ordunun erməni və bolşevik tərkibi bütün cəbbəxananı azərbaycanlılara qarşı istifadə etməyə çalışırdılar. İrəvan və Qarabağda azərbaycanlıları məhv etməyə başladılar. Yaranmış şərait Azərbaycan milli hərbi qüvvələrinin təşkilinin sürətləndirilməsini tələb edirdi. Zaqafqaziya komissarlığının erməni və gürcü rəhbərliyi nizami Azərbaycan hərbi hissələrinin yaradılmasını özünün gələcək planları üçün manеə hesab edərək onun yaradılmasının qarşısını almağa çalışırdı. Eləcə də zabit kadrlarınının azlığı və azərbaycanlıların uzun müddət hərbi qulluqdan azad olması nizami ordunun yaranmasını ləngidirdi. Belə şəraitdə özünümüdafiə dəstələri və Azərbaycan milisinin fəaliyyəti əhalinin və ərazi bütövlüyünün qorunmasında çox böyük işlər gördü.

Gəncədə milli özünümüdafiə dəstələrinin yaradılmasına I Rusiya Dövlət Dumasının deputatı, Gəncə milisinin rəisi İsmayılxan Ziyadxanov və Gəncədə ilk tibb cəmiyyətinin banisi Xudadat bəy Rəfibəyli rəhbərlik edirdilər.

Bakını Sovet Rusiyası tərkibində saxlamağa çalışan bolşeviklər, qatı millətçi erməni partiyası daşnaksütyunun mənafeyinə Azərbaycan millətinin kütləvi məhvinə rəvac verdilər.

Beləliklə, Bakının daşnak-bolşevik Bakı Soveti əlində olması səbəbindən Gəncə şəhərini yenicə təşəkkül tapmış Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı oldu. Azərbaycan milli hərəkatının, milli dövlətçiliyin, ümumiyyətlə, azərbaycançılıq ideyasının təşəkkül tapmasında və inkişafında Gəncə şəhərinin, onun ictimai-siyasi mühitinin mühüm təsiri olmuşdur. Bu baxımdandır ki, düşmənlər Gəncəni "millətçi ocağı", "üsyankar şəhər" və s. epitetlərlə adlandırmışlar.

Təsadüfi deyildir ki, 1920-ci il 27 apreldə Azərbaycan Xalq Cümhuriyyəti XI Qızıl Ordunun qanlı əməllərinə söykənən bolşeviklər tərəfindən devrildikdən sonra da sovetlərə qarşı dövlətçilik, müstəqillik və azadlıq səsini ilk ucaldan da yenə Gəncə oldu. İstiqlal fədailərinin çoxu axışıb Gəncəyə gəldi. Gəncənin say - seçmə oğulları üsyan yolunu seçdilər. Gəncə komendantı şahzadə Məmməd Mirzə Qacar, birinci piyada diviziyasının rəisi general-mayor Cavad bəy Şıxlinski, üçüncü piyada alayının komandiri polkovnik Cahangir bəy Kazımbəyov, Qaçaq Qasım, Sarı Ələkbər və minlərlə igid gəncəlilər mütəşəkkil üsyan planı hazırlayıb may ayının 24-dən 25-ə keçən gecə üsyana başladılar.Operativ əməliyyat sayəsində şəhərin bütün hökumət binaları tutuldu, rusların bütöv diviziyası, polkları tərksilah edildi, mayın 26-da Gəncədə Sovet hakimiyyəti devrildi. Təəssüf ki, Gürcüstan və Qarabağdan gözlənilən kömək gəlmədi. Mayın 27-də XI Qızıl Ordu və Azərbaycan İnqilab Komitəsi qüvvələri böyük qüvvələrlə Gəncə üzərinə yeridi. Düşmənlə qeyri-bərabər döyüş iyunun 5-dək davam etdi. Nəhayət, Gəncə üsyanı süqut etdi. M.Ə.Rəsulzadə Gəncə üsyanı barədə yazırdı: "Çarizmin qəddar generalı knyaz Sisyanova parça-parça doğranıncaya qədər müqavimət göstərən Cavad xanın şəhəri bu dəfə də özünü göstərdi...Ruslar burada diviziyalarını itirdilər. Bakıdan kömək gəldi. Bir tərəfdən də Gəncə erməniləri qiyamçıları arxadan vurmağa başlayanda şəhər süqut məcburiyyətində qaldı." Daha sonra M.Ə.Rəsulzadə yazır:"Bu üsyanlar olmasaydı Azərbaycan xalqı bilməm hankı vaqiələrlə kəndi namusunu müdafiə etmiş olduğunu isbat edəcəkdi?!" Bu üsyanın tarixi əhəmiyyəti barədə Ceyhun Hacıbəyli 1952-ci ildə Parisdə çıxan "Azərbaycan" qəzetində yazırdı: "Gəncə üsyanı millətimizin şərəf və namusunun yenidən kəsbi-etibar qazandığı bir dastandır. Gəncədə may ayında tökülən türk qanı 27 aprel hadisəsi hərəkatında millətimizə atılan ləkəni silib götürdü."

Milli ənənələrin, milli ruhun üstün olduğu Gəncə - bu möhtəşəm şəhər Azərbaycan Xalq Respublikasının ilk paytaxtı və Sovetlərə qarşı ilk üsyanın baş verdiyi şəhər kimi Azərbaycanın mübarizlik tarixində özünə əbədi yer tutmuşdur!

Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlət olmuş, Gəncədə 3 ay müddətində gərgin şəraitdə fəaliyyət göstərməsinə



baxmayaraq, dövlətin formalaşması və möhkəmlənməsi üçün zəruri olan hüquqi aktlar məhz AXC-in Gəncə dövründə qəbul edilmişdir.

Cümhuriyyəti Azərbaycana gətirənlərin böyük əksəriyyəti xaricdə təhsil almış azərbaycanlılar idi. Tərəfimizdən tərtib edilən "Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul etdiyi hüquqi aktlar və onun tarixinin izahlı xronologiyası (1918 – 1920)" Cümhuriyyətə aid arxiv sənədləri, çap olunan sənədlər məcmuələri, dünyada nəşr olunan əsərlər əsasında tərtib edimişdir.

- Azərbaycan Xalq Cümhuriyyəti tarixində opponentlərinin əsaslandırılmamış və tez-tez təkrarlanan iradlarından biri ondan ibarətdir ki, güya cümhuriyyət xadimləri dövlətçiliyin təşkili nöqteyi nəzərindən təcrübəsiz olmuş və vaxtında dövlətçiliyin mühüm aktlarını hazlrlaya bilməyiblərmiş. Bu, cümhuriyyətin dövlətçilik fəaliyyətini təsdiq edən arxivlərin sənədləri ilə tanış olmamaqdan irəli gəldiyi təhlil prosesində ortaya çıxmışdır:

- Azərbaycan Xalq Cümhuriyyəti Gəncədə 93 təlatümlü gün keçirmişdir. Azərbaycan Respublikası Mərkəzi Tarix Arxivinin fondlarında mühafizə olunan sənədlərlə tanışlıqdan bəlli olur ki, 93 gündə Azərbaycan Xalq Cümhuriyyəti 210 hüquqi-dövlətçilik aktlarını hazırlamış və qəbul etmişdir ki, qeyd olunan sənədlərdə Cümhuriyyətin qanunverici bazasının tam və yüksək səviyyədə yarada bilməsi göstərilmişdir:

Müəllif tərtib etdiyi xronologiyanın ən mükəmməl olması iddiasından çox uzaqdır. Bu həcmdə xronologiyanın tərtib edilməsi ilk təşəbbüs olduğundan mübahisəli tarixlər və fərqli yanaşmalar ola bilər və olacaqdır da.

Millətin, xalqın tarixi şanlı və qanlı günlərdən ibarətdir. Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəlməsinə qədər, Cümhuriyyət dövründə və onun süqutundan sonra azərbaycanlılar mütəmadi olaraq xarici dövlətlərin dəstəyini alan ermənilərin soyqırımına məruz qalmışlar. Bu dövrün Azərbaycan dövləti və xalqımızın qanlı, eyni zamanda şərəfli tarixi olması baxımından xronologiyasını tərtib etməyi vacib hesab etdik.

Tarix bir ibrət dərsidir və bumeranqdır. Onu hər dəfə unutduqda və düzgün davranmadıqda unudanları cəzalandırır. Bu önəmli səbəbdən tərəfimizdən tərtib olunan xronologiyanın yaddaşlardaqalma missiyasını həyata keçirəcəyi qənaətindəyik. Tərtibçi AXC-nin hüquqi aktları və onun tarixinin xronologiyası ilə əlaqədar mütəxəssislərin doğru təklif və iradlarını qəbul edərək gələcəkdə mətnə əlavə etməyə hazırdır.

"Azərbaycan Xalq Cümhuriyyətinin Gəncədə qəbul etdiyi hüquqi aktlar və onun tarixinin izahlı xronologiyası (1918 – 1920)" Azərbaycan tarixində şanlı dövrü əhatə edən, dövlət quruculuğumuzda müstəsna yeri olan Cümhuriyyət tarixini, onun keçdiyi keşməkeşli, ziddiyyətli, eyni zamanda fəxarətverici dövrü öyrənmək istəyində olan hər bir azərbaycanlının stolüstü kitabına çevriləcəyini və geniş oxucu kütləsi üçün faydalı olacağını düşünürük.

*Azərbaycan Xalq Cümhuriyyəti tarixinin izahlı*

## *XRONOLOGİYASI*

| | |
|---|---|
| *1905-ci il* | Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü və Rusiya hökumətindən aldığı icazə nəticəsində "Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyəti" yaradılır. Cəmiyyət kasıb-füqəraya, yetim-yesirlərə əl tutur, qocalara himayədarlıq edir, balalarımızı oxutdurur, Anadoluda rus işğalında olan türklərə yardım göstərir və digər xeyirli fəaliyyətlər göstərirdi. |
| *1906-cı il, 30 aprel* | Ələkbər bəy Rəfibəylinin təşəbbüsü ilə Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti yaradılmışdır. |
| *1906-cı il* | Ələkbər bəy Rəfibəyli tərəfindən "Difai"nin Gəncə mərkəzi yaradılmışdır. |
| *1909-cu il* | Azərbaycanlıların köməyi və Osmanlı səlahiyyətlilərinin icazəsi ilə mərkəzi Bakıda olan Maarif Yayma Cəmiyyətinin (Neşr-i Maarif Cemiyeti) bir şöbəsi Karsda fəaliyyətə başladı. |
| *1912-1913-cü illər* | Balkan müharibəsi dövründə Azərbaycandan Türkiyəyə kömək məqsədi ilə minlərlə könüllülər axın etmişdir. |
| *1912-1913-cü illər* | İstanbulda, Balkan müharibəsi ilə əlaqədar azərbaycanlı könüllülərdən ibarət "Qafqaz könüllü ordusu" qurulmuşdur. |
| *1913-cü il* | Yaranmış iqtisadi böhranla əlaqədar dəmiryolu vasitəsi ilə Gəncəyə gətirilən malların miqdarı 15 dəfə, buradan göndərilən malların miqdarı isə 30 dəfə artmışdır. |
| *1914-cü il, aprel* | Ərzurumda keçirilən daşnak qurultayında "İttihad və tərəqqi" partiyasının nümayəndələri daşnaklara Türkiyənin ermənilər yaşayan və müharibə nəticəsində Zaqafqaziyanın Rusiyadan alınacaq hissələrini özündə birləşdirəcək muxtar erməni dövləti yaradılmasını təklif etdilər. |
| *1914-cü il* | "Difai" təşkilatı fəaliyyətini yalnız Azərbaycan sərhədləri daxilində məhdudlaşdırmamış, Anadolu türklərinə erməni daşnaklara qarşı mübarizədə kömək üçün azərbaycanlılar Karsda "Difai"nin şöbəsini açmışdılar. |



| | |
|---|---|
| *1914-cü il* | Xudadat bəy Rəfibəylinin başçılığı altında Gəncədə Tibb cəmiyyəti yaradıldı. Onun banilərindən biri və katibi Həsən bəy Ağayev idi. |
| *1914-cü il* | Azərbaycanlıların erməni komitəçilərinə qarşı mübarizə aparması məqsədi ilə Ərzurum vilayətində "Difai"nin şöbəsi açıldı. |
| *1914-cü il* | Azərbaycanlıların yaratdığı Bakı Maarif Yayma Cəmiyyətinin məqsədi Anadolu vilayətlərində məktəblər açmaq, kitabxanalar yaratmaq və müxtəlif ictimai tədbirlər təşkil etmək idi. |
| *1914-cü il* | Azərbaycanlıların Bakı Maarif Yayma Cəmiyyətinin Kars şöbəsi ermənilər və ruslarla müqayisədə oxuma-yazma bilən türklərin sayının 1% belə olmaması səbəbindən türk məhəllə və kəndlərində cədid məktəbləri və mədrəsələr açmışdır. |
| *1914-cü il* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin Birinci dünya müharibəsi illərində Şərqi Anadoludan köçürülən müsəlmanlara etdiyi yardım bütün Rusiya müsəlmanlarını razı saldı. Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin müharibədə türklərə kömək göstərmələri xüsusi olaraq qeyd edilmişdi. |
| *1914-cü il, sentyabr* | Şəhərlər Birliyinin Bakı və Gəncə komitələri fəaliyyətə başladı. Onlar şəhər özünüidarəsi xadimlərinin, burjua ziyalılarının və xırda burjuaziyanın bir hissəsinin cəmləşdiyi mərkəzlərə çevrildilər. Bakı komitəsinin sədri şəhər qlavası L.L.Biç, Gəncə komitəsinin sədri isə şəhər qlavası Xəlil bəy Xasməmmədov idi. |
| *1914-cü il* | Osmanlı dövləti ən iri hərbi qüvvələrini Qafqaz cəbhəsində yerləşdirmişdi. Buradakı hərbi əməliyyatlarda ümumi sayı 190 min nəfər olan 3-cü ordu iştirak edirdi. Türkiyənin malik olduğu 40 piyada diviziyasından 11-i bu ordunun tərkibində idi. |
| *1914-cü il,* | Gəncə mühüm ticarət mərkəzi idi. Burada 1500 ticarət |

| | |
|---|---|
| *dekabr* | müəssisəsi var idisə, onlardan 56,2 faizini dükanlar, mağazalar, anbarlar təşkil edirdi. |
| *1914-cü il, dekabr* | Gəncədə ticarət dövriyyəsi 14-16 mln rubla çatırdı. Sonrakı illərdə bu rəqəm 2 dəfəyə qədər artmışdı. |
| *1914-cü il, dekabr* | Gəncə şəhərində 2129 ticarət-sənaye müəssisəsi fəaliyyət göstərirdi. Onların əksəriyyəti kiçik müəssisələr idi. Lakin ticarət və sənaye kapitalının mərkəzləşməsi prosesi gedirdi. |
| *1914-cü il, dekabr* | Sənətkarlıq Gəncə iqtisadiyyatının ayrılmaz hissəsi idi. Gəncədən Moskva və Lodz şəhərlərinə pambıq emalı zavodlarının məhsulu, Rusiyanın mərkəzi şəhərləri və Sibirə təzə meyvə, çaxır ixrac olunurdu. |
| *1914-1918-ci illər* | Anadoluda və Azərbaycanda olan qaçqın və acları ərzaqla, pal-paltarla təmin etmək sahəsində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin böyük xidməti var idi. |
| *1914-1918-ci illər* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti türk əsirlərinin rəsmi himayəçisi kimi fəaliyyət göstərmək üçün Rusiyanın səlahiyyətlilərindən icazə almışdı. |
| *1914-1918-ci illər* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti rəsmi himayə haqqına sahib olduqdan sonra ilk iş olaraq Nargin adasında olan türk əsirlərinin vəziyyətini müəyyən etmiş, yolda vaqonlarda ölən və ya erməni nəzarətçilər tərəfindən öldürülən əsirlərin vağzallarda yerli səlahiyyətlilərin və camaatın iştirakı ilə müsəlman qaydasınca dəfnini təşkil etmişdi. |
| *1914-1918-ci illər* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti türk əsirlərinin Nargin adasındakı yaşayış yeri, vəziyyətləri, ərzaq və paltar təminatı ilə əlaqədar məsələlərlə məşğul olmuşdu. |
| *1914-1918-ci illər* | Azərbaycanın xeyriyyəçilik tarixində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin ən mühüm işi ondan ibarət olmuşdu ki, onlar xeyriyyə işini fərdlərin işi olmaqdan çıxarıb, bu işə xalqın bütün təbəqələrini cəlb edə bilmişdilər. |



| | |
|---|---|
| *1914-1918-ci illər* | O vaxt Bakıda çıxan qəzetlərdə xalqın Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin çağırışına münasibətinə aid yazılar verilirdi. Əhalinin ən imkansız təbəqələri belə xeyriyyə cəmiyyətinin şöbələrinə gəlir, imkanları daxilində kömək etmək istədiklərini bildirirdilər. |
| *1914-cü ilin sonu* | Yelizavetpol quberniyasında 192 müəllimi və 5188 şagirdi olan 153 məktəb var idi. |
| *1914-1918-ci illər* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti paltar və ərzaq sarıdan çətin vəziyyətdə olan əsirlər üçün xalqdan kömək toplamağa başladı. Bu məqsədlə müxtəlif xeyriyyə məclisləri, yığıncaqlar, teatr günləri tərtib edilmişdir. |
| *1914-1918-ci illər* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti türk əsirlərinin rəsmi himayəçiliyini aldıqdan sonra həftədə bir gün (bazar günü) Nargin adasındakı türk əsirlərinin Bakıya çıxarılaraq gəzdirilmələri üçün icazə ala bilmişdi. |
| *1914-1918-ci illər* | Ərzurumdan Ərzincana qədər olan yerlərdən əsir alınan zabit və əsgərləri Sibirə deyil, Bakının qarşısında, Xəzər dənizində olan Nargin adasındakı əsirlər düşərgəsinə toplamışdılar. |
| *1914-1918-ci illər* | Bakıya gətirilən yaralı türk əsirlərini Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin xəstəxanalarında müalicə edirdilər. Cəmiyyət yaralı və xəstə türk əsirlərinə qulluğu öhdəsinə götürmüşdü. |
| *1914-1918-ci illər* | Rusiyada və Anadoluda elə bir yer yox idi ki orada Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndələri fəaliyyət göstərməsinlər. |
| *1914-1918-ci illər* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin nümayəndələri və ya onun tərəfdarları Batum-Tiflis-Bakı xətti ilə Rusiyaya gedən qatarları da izləyirdilər. |
| *1914-1918-ci illər* | Əsir qatarında ölmüş və Gəncədə dəfn edilməsi qərara alınmış hərbi əsirləri dəfn etmək üçün quberniya məclisindən icazə alınmışdı. Bu işlə Həsən Şahmuradov məşğul idi. Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbəri Ə.Rəfibəyli tərəfindən hər dəfn edilən türk əsiri üçün 10 manat ayrılmışdır. |

*1914-1918-ci illər* “Açıq söz” qəzetindəki bir xəbərdə göstərilirdi ki, keçən ilin noyabr və dekabr aylarında 290 türk əsiri Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti tərəfindən dəfn edilmişdi.

*1914-1918-ci illər* Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin həkimləri erməni xəstələrə də heç bir ayrı-seçkilik göstərmədən köməklik edirdilər. Hətta ermənilərin də türk həkimlərindən və xəstəxanadan razı olduqlarını Rusiya “Qızıl Xaç” cəmiyyətinin rəhbəri şahzadə Oldenburq araşdırmalarında qeyd etmişdir

*1915-ci il boyu* Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyəti Nargin adasında saxlanılan türk əsirlərinə öz köməyini sistemləşdirirdi.

*1915-ci ilin əvvəli* Bakıda Hərbi Sənaye Komitəsinin çuqun mərmilər, fuqas qumbaraları və mina hazırlayan zavodu fəaliyyət göstərirdi.

*1915-ci ilin əvvəli* H.Z.Tağıyevin bez və parusin istehsalı səhmdar cəmiyyəti cəbhəyə işləyən, ilk növbədə, cəbhəni təmin edən müəssisələr sırasına daxil idi.

*1915-ci ilin əvvəli* Hərbi nazirliyin 3 mln partladıcı hazırlamaq kimi böyük sifarişinin yerinə yetirilməsi üçün Xəzər Maşınqayırma və Qazan zavodları səhmdar cəmiyyəti müəssisələrinin yenidən qurulması məsələsi qaldırılmışdı.

*1915-ci il, 15 iyun* Yelizavetpol komitəsi Zaqafqaziya Vilayət Hərbi Sənaye Komitəsindən asılı deyildi. Bakı Hərbi Sənaye Komitəsinə 9, Yelizavetpol Hərbi Sənaye Komitəsinə isə 7 müəssisə daxil idi.

*1915-ci il* Gənc türklər hərəkatının görkəmli xadimi, "İttihad və Tərəqqi" partiyasının Azərbaycan və Qafqaz üzrə baş müfəttişi təyin olunmuş Ömər Nəcib Azərbaycanın şimal və cənub hissələrinin Türkiyənin himayəsi altında tezliklə birləşdiriləcəyi ümidilə Təbrizdə Cənubi Azərbaycan əsilzadə nəsillərindən olanların siyahısını tərtib etməyə başlamışdı.



*1916-cı il, iyun* Gəncənin görkəmli ictimai xadimləri Ə.Adıgözəlov (Gorani), H.Ağayev, A.Ziyadxanov, Əli bəy, Ələkbər bəy və Xudadat bəy Rəfibəylilər, A.Səfikürdski, Usub bəy və Nəsib bəy Usubbəylilər, Ələkbər bəy, Ələsgər bəy və Xəlil bəy Xasməmmədovlar, Hüseynqulu xan və Cavanşir xan, Fətəli xan Xoyskilər, Nağı bəy, Məmmədbağır Şıxzamanov və başqaları olmuşlar.

*1916-cı il* Bakı quberniyasında hərbi sifarişləri yerinə yetirən müəssisələrdə çalışan fəhlələrin sayı 65524 nəfər, Yelizavetpol quberniyasında isə 2523 nəfər idi.

*1916-cı il* Bakıdan fərqli olaraq (orada müsəlmanları rəhbərliyə buraxmırdılar) Gəncə şəhər ictimai özünüidarəsinə əsasən azərbaycanlı ziyalıların nümayəndələri Əsgər Ağa Adıgözəlov (Gorani), Adil xan Ziyadxanov və Xəlil bəy Xasməmmədov başçılıq edirdi.

*1916-cı il* Şəhər əhalisinin xüsusi çəkisi Bakı quberniyasında 89,3%, Yelizavetpol quberniyasında isə 91% təşkil edirdi.

*1916-1917-ci illər* Müsəlman Xeyriyyə Cəmiyyəti ilə əlbir fəaliyyət göstərən Nəşri Maarif Cəmiyyəti tərəfindən Bakı kəndlərində 17, şəhərdə isə 3 məktəb açılmışdır ki, orada yoxsul və yetim uşaqlar təhsil alırdılar.

*1916-cı il* Azərbaycan türkləri və Rusiyadakı müsəlmanlar rus işğalında olan Osmanlı türklərinə kömək göstərilməsini Rusiya hakimiyyəti ilə qanun daxilində həll edə bilmişdilər.

*1916-cı il* “Qızıl Xaç” kimi “Qızıl Aypara” cəmiyyətinin xidmətini də Rusiya müsəlmanları öz təşəbbüsləri ilə Anadolu türklərinə kömək etmək məqsədi ilə təşkil etdilər.

*1917-ci ilin əvvəli* 125 min nəfər qaçqın və 200 min nəfər müharibədən zərər çəkmiş müsəlmanlar qeydiyyata alındılar.

*1917-ci il* C.Məmmədquluzadə “Cümhuriyyət” əsərində xalq hakimiyyətinin - demokratik respublikanın tələblərini irəli sürmüşdür.

| | |
|---|---|
| *1917-ci ilin əvvəli* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti uşaq evləri təşkil etmək üçün böyük iş aparırdı. |
| *1917-ci ilin əvvəli* | Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti Gəncədə uşaq evləri təşkil etdi. |
| *1917-ci il, fevral-mart* | Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Gəncədə Türk-Ədəmi Mərkəziyyət Partiyası fəaliyyətə başladı. |
| *1917-ci il, fevral-mart* | Ata-Yusif bəy Yusifbəylinin siyasi fəaliyyəti dayandırıldı. |
| *1917-ci il, fevral* | Gəncədə Federalistlər Partiyası yaradıldı. |
| *1917-ci il, 15 fevral* | Gəncədə fəhlə həyəcanları başlandı. Mahlıc istehsalı ilə məşğul olan fəhlələrin, sonra isə dəmiryolçuların başladığı tətil fevralın sonunadək davam etdi. |
| *1917-ci il, fevral-mart* | Müsavat partiyası açıq fəaliyyətə keçdi. |
| *1917-ci il, fevral-mart* | İrəvanda " İrşad Milli Partiyası" meydana gəldi. |
| *1917-ci il, 6 mart* | Bakı Sovetinə seçkilər keçirildi. |
| *1917-ci il, 6 mart* | Rusiyada Müvəqqəti hökumət xalqa müraciət edərək demokratik dəyişikliklər keçirilməsini vəd etdi. |
| *1917-ci il, 7 mart* | Əlli iki deputatdan ibarət Bakı Deputatları Soveti formalaşdı. |
| *1917-ci il, 9 mart* | Qafqaz canişinliyi ləğv edildi. |
| *1917-ci il, 9 mart* | Rusiyada Müvəqqəti hökumət Cənubi Qafqazı idarə etmək üçün Dövlət Dumasının yerli üzvlərindən ibarət Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM) yaratdı. |
| *1917-ci il, 9 mart* | OZAKOM-un sədri rus kadeti V.A.Xarlamov, üzvləri - azərbaycanlı kadet, sonralar müsavatçı M.Y.Cəfərov, gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti |



M.Papacanov, rus kadeti P.Pereverzev idilər.

| | |
|---|---|
| *1917-ci il, 17 mart* | Müvəqqəti hökumətin Bakıda yerli hakimiyyət orqanı olan "İctimai Təşkilatların İcraiyyə Komitəsi (İTİK)" yaradıldı. |
| *1917-ci il, 27 mart* | Bakıda Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi seçildi. |
| *1917-ci il, mart* | Bakıda sosial-demokrat "Ədalət" təşkilatı yaradıldı. |
| *1917-ci il, mart* | Bakı Şəhər Duması fəaliyyətini yenidən davam etdirməyə başladı. |
| *1917-ci il, 27 mart* | Sədri M.N.Hacınski, müavini M.Ə.Rəsulzadə olan Bakı Müsəlman İctimai Təşkilatı Müvəqqəti Komitəsi yarandı. |
| *1917-ci il, mart* | Rusiyada Fevral inqilabından sonra yerli şəhər dumalarının fəaliyyəti dayandırıldı. |
| *1917-ci il, mart* | Müvəqqəti hökumət Bakı Şəhər Dumasının statusunda dəyişiklik edərək onun yeni heyətinin seçkilərində iştirak etmək üçün 12 müxtəlif partiya və qrupu qeydiyyata aldı. |
| *1917-ci il, 27 mart* | Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradıldı, "Müsavat" partiyasının üzvü, hüquqşünas Məmmədhəsən Hacınski sədr seçildi. |
| *1917-ci il, 15-20 aprel* | Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi. |
| *1917-ci il, may* | Moskvada Ümumrusiya müsəlmanlarının qurultayı keçirildi. |
| *1917-ci il, iyun* | Məhəmməd Əmin Rəsulzadənin rəhbərlik etdiyi Müsavat partiyası ilə Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi Türk Ədəmi-Mərkəziyyət partiyası birləşərək Türk Ədəmi-Mərkəziyyət-Müsavat Partiyası yaradıldı. |
| *1917-ci il, avqust* | Azərbaycanda "Birlik" təşkilatı yaradıldı. |

| | |
|---|---|
| *1917-ci il, avqust* | Çar hökumətinin 3000 nəfər azərbaycanlının hərbi müdafiə işlərinə səfərbər edilməsi barəsində elan verildi. |
| *1917-ci il, sentyabr* | Rusiyada "Müsəlmançılıq" partiyası və Gəncədə "İttihadi-İslam" partiyası yaradıldı. |
| *1917-ci il, 25 oktyabr* | Petroqradda bolşeviklərin silahlı çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi. |
| *1917-ci ilin payızı* | "Müsavat" Azərbaycanda milli-demokratik hərəkata başçılıq edən, sinfi və sosial mövqeyindən asılı olmayaraq, Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrini öz arxasınca apara bilən siyasi partiyaya çevrildi. |
| *1917-ci il, 26-31 oktyabr* | Türk Ədəmi Mərkəziyyət - Müsavat partiyasının birinci qurultayı keçirildi. |
| *1917-ci il, 27 oktyabr* | Rusiyada Oktyabr inqilabından sonra Bakıda müxtəlif siyasi partiyaların, həmkarlar təşkilatlarının, hərbi hissələrin və Xəzər donanması üzvlərinin iştirakı ilə Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi. |
| *1917-ci il, 27 oktyabr* | Bolşeviklərin kəskin etirazına baxmayaraq, eser-menşevik-daşnak bloku 168 səsə qarşı 246 səslə Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin yaradılması haqqında qərar qəbul etdi. |
| *1917-ci il, 2 noyabr* | Bolşeviklər hakimiyyət məsələsini geniş müzakirəyə çıxartdılar və Bakı Sovetinin iclasında şəhərdə ali hakimiyyət orqanı kimi Bakı Xalq Komissarları Sovetinin elan edilməsinə nail oldular. |
| *1917-ci il, 2 noyabr* | Bakı Soveti İcraiyyə Komitəsinin M.V.Basin, N.P.Vatsek, P.A.Caparidze, İ.T.Fioletov, S.G.Şaumyan və başqalarından ibarət yeni tərkibi seçildi. İcraiyyə Komitəsinin sədri S.Şaumyan oldu. |
| *1917-ci il, 11 noyabr* | Fəaliyyəti sona çatan Xüsusi Zaqafqaziya Komitəsinin təşəbbüsü ilə Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların Tiflisdə müşavirəsi keçirildi. |
| *1917-ci il* | Naki Sultanovun azərbaycanlıların Birinci dünya müharibəsi illərində Anadolunun müharibədən ziyan görmüş türklərinə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin köməyindən bəhs edən "Bakü yardımını Müslüman Cemiyet-i Hayriyesi Harpzedelere Yardım Şübesinin Faaliyeti" Kardaş kömeği" kitabı Bakıda çap edildi. |



| | |
|---|---|
| *1917-ci il, noyabr* | Rusiyada hakimiyyət çevrilişi nəticəsində rus qoşunlarının silah-sursatı erməni komandirlərinə təhvil verib Şərqi Anadoludan geri çəkilməsindən sonra ermənilər qırğınların miqyasını daha da genişləndirdilər. |
| *1917-ci il, 11 noyabr* | Fəaliyyəti sona çatan Xüsusi Zaqafqaziya Komitəsinin təşəbbüsü ilə Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların Tiflis müşavirəsində gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdiklərini bildirdilər. |
| *1917-ci il, 15 noyabr* | Tiflisdə Cənubi Qafqazın əsas siyasi qüvvələri Ümumrusiya Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər Zaqafqaziyanı idarə etmək üçün "Müstəqil Zaqafqaziya hökuməti (Zaqafqaziya Komissarlığı)" yaradılması haqqında qərar qəbul etdilər. |
| *1917-ci il, 26 noyabr* | Zaqafqaziyada, o cümlədən Azərbaycanda Müəssislər Məclisinə seçkilər keçirildi. |
| *1917-ci ilin sonları - 1918-ci ilin əvvəlləri* | Cənubi Azərbaycanın Xoy, Salmas, Soucbulaq və başqa bölgələrində azərbaycanlılara qarşı erməni quldur dəstələri soyqırım törətdilər. |
| *1917-ci il, 11 dekabr* | Zaqafqaziya Komissarlığı Zaqafqaziya müsəlmanlarından ibarət nizami ordu təşkil edilməsi qətnaməsini çıxardı. |
| *1917-ci il, 11 dekabr* | Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsinə həvalə edildi. |
| *1917-ci il, 18 dekabr* | V.İ.Lenin S.Şaumyanı Zaqafqaziya işləri üzrə xüsusi komissar təyin etdi. |

| | |
|---|---|
| *1917-ci il, 15 dekabr* | Ərzincanda Zaqafqaziya Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi bağlandı. |
| *1917-ci il* | Gəncə Müsəlman Şurasının şəhərdə olan keçmiş çar ordusunun 219-cu alayını, həmçinin Qafqaz cəbhəsindən Rusiyaya qayıdan bir neçə hərbi eşalonu tərksilah etməsi nəticəsində 15 min tüfəng, 70-ə yaxın pulemyot və 20 top əldə edildi. Bu əməliyyat zamanı Gəncə Milli Şurasına Zaqafqaziya Komissarlığının göndərdiyi zirehli qatar da kömək etdi. |
| *1917-ci il, dekabr* | Müsəlman korpusunun təşkilinə başlanıldı. |
| *1917-ci il, 27 dekabr* | Oktyabr çevrilişindən sonra Rusiyada hakimiyyəti ələ keçirmiş bolşeviklər rus çarı II Nikolayın əksər qərarlarını tanımasalar da, onun "Türkiyə Ermənistanı haqqında" dekretini tanıdı. |
| *1918-ci ilin əvvəli* | Azərbaycanda heç bir orta məktəbdə tədris ana dilində aparılmırdı. |
| *1918-ci il, yanvar* | "Rusiyada Müsəlmanlıq Partiyası" ilə Gəncədəki "İttihad" Cəmiyyətinin birləşməsi nəticəsində vahid "İttihadi-İslam - Rusiyada Müsəlmanlıq Partiyası" yarandı. |
| *1918-ci il, yanvar-fevral* | Görkəmli ictimai xadim Akçura Brest-Litovsk danışıqlarını aparmaq üçün nümayəndə heyətinə qoşuldu və "Qızıl Ay" cəmiyyətinin türk nümayəndəsi kimi Petroqradda və Moskvada əsirlərin mübadiləsinə dair qarışıq komissiyanın işində iştirak etdi. |
| *1918-ci il, 24 yanvar* | Türkiyə komandanlığı Zaqafqaziya Komissarlığına tərəflər arasında sülh müqaviləsi bağlamaq haqqında danışıqlara başlamaq təklifi ilə müraciət etdi. |
| *1918-ci il, yanvar* | İrəvan quberniyasının 4 mahalında ermənilər tərəfindən 199 Azərbaycan kəndi dağıdıldı, 135 min nəfər azərbaycanlı didərgin salındı. |
| *1918-ci il, fevral* | Türk qoşunları əkshücuma keçərək erməni qoşunlarını Şərqi Anadoludan təmizlədi. |



| | |
|---|---|
| *1918-ci il, 10 fevral* | Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələr Oktyabr çevrilişi ilə əlaqədar olaraq onun iclasında iştirak edə bilmədi. Tiflisdə toplaşaraq Cənubi Qafqazda ali hakimiyyət orqanı olaraq Zaqafqaziya Seymini yaratdılar. |
| *1918-ci il, 20 fevral* | General Əliağa Şıxlinski Gəncədə yeni yaratdığı Milli Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edərək dedi: "Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. O, Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır." |
| *1918-ci il, 23 fevral* | Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələrin Tiflisdə keçirilən yığıncağında Zaqafqaziya Seymi yaradıldı və bölgədə yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi. Beləliklə, Cənubi Qafqazın ali hakimiyyət orqanı kimi Seym öz işinə başladı və E.Gegeçkori başda olmaqla, Zaqafqaziya hökuməti təşkil edildi. |
| *1918-ci il, 23 fevral* | Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymi (Zaqafqaziya parlamenti) fəaliyyətə başladı, Gegeçkorinin başçılığı ilə Zaqafqaziya hökuməti təşkil edildi. |
| *1918-ci il, 23 fevral* | Zaqafqaziya Seymində Müsəlman fraksiyasını Rusiya imperiyasının Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası, faktiki olaraq, Zaqafqaziya Müsəlman Şurası, daha doğrusu, Zaqafqaziya Müsəlman Parlamenti funksiyasını yerinə yetirirdi. |
| *1918-ci il, 2 mart* | Osmanlılar Rusiyanın bolşevik heyəti ilə Brest-Litovsk anlaşmasını imzaladı. Anlaşmaya əsasən Kars, Ərdəhan və Batumun ruslardan geri alınması həll edildi. |
| *1918-ci il* | Cənubi Qafqaz (Zaqafqaziya) Seymi nəzdindəki Müsəlman fraksiyasının qaçqınlar şöbəsi yaradıldı. |

| | |
|---|---|
| *1918-ci il, mart* | "Bütün müsəlmanlara ölüm" məqsədini elan edən daşnaklar tərəfindən İrəvan quberniyasının Sürməli qəzasının bütün müsəlman kəndləri işğal edilərək yandırıldı. Qəzanın sakinləri ucdantutma məhv edildi. Quluna, Yaycı, Oba, Qazıqışlaq, Amarat kəndlərinin demək olar ki, bütün əhalisi doğranıldı. |
| *1918-ci il, mart* | Müsəlman fraksiyası Seym hökuməti qarşısında məsələ qaldırdı, nəticədə İrəvan quberniyasında müsəlmanlara qarşı edilən qırğınlara son qoyulması məqsədilə nümayəndə heyəti göndərildi. |
| *1918-ci il, mart* | İrəvan quberniyasında araşdırmaların nəticələri Seymin iclasında müzakirə edildi, qaçqınların vəziyyətinin müəyyən dərəcədə yüngülləşməsinə nail olundusa da, qırğınları dayandırmaq mümkün olmadı. |
| *1918-ci il* | İrəvan quberniyasında yaşayan müsəlmanlara yardım etmək üçün İrəvan şəhərində Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin şöbəsi yaradıldı. |
| *1918-ci il, 7 mart* | Zaqafqaziya Seymi tərəfindən aqrar qanunu qəbul edildi. |
| *1918-ci il, 14-20 mart* | Zaqafqaziya Seymi ilə Türkiyə arasında Trabzon konfransı keçirildi. |
| *1918-ci il, 17 mart* | Şimali Qafqazda bolşeviklər hakimiyyəti ələ keçirdilər. Pyatiqorskda Terek Xalq Komissarları Soveti təşkil edildi. Şimali Qafqazda bolşevik hakimiyyətinin qurulmasına başlanıldı. |
| *1918-ci il, 17 mart* | Urmiya şəhərində erməni terrorçuları 10 min nəfərdən artıq azərbaycanlını qətlə yetirdilər. |
| *1918-ci il, 18 mart* | Şamaxı qəzasının 53 kəndində ermənilər 8 min 27 nəfəri, o cümlədən 4190 kişi, 2560 qadın, 1277 uşağı qətlə yetirdilər. |
| *1918-ci il, mart* | Seymin Müsəlman fraksiyasına daxil olan deputatlar dağlı nümayəndəliyinin Cənubi Qafqaz Seyminə qatılmaq və bolşevik təhlükəsinə qarşı birlikdə mübarizə aparmaq haqqında müraciətini dəstəklədilər. Bir ay ərzində Urmiya, Salmas, Xoy, Maku, Şərəfxan |



| | |
|---|---|
| | və digər yerlərdə ermənilər tərəfindən 100 mindən artıq azərbaycanlı öldürüldü. |
| *1918-ci il, 27 mart* | Azərbaycan milyonçusu Hacı Zeynalabdin Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak oldu, müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün "Evelina" gəmisində Bakıya gəldilər. |
| *1918-ci il, 30 mart-3 aprel* | Bolşevik-daşnak qüvvələri Bakıda və ətraf ərazilərdə azərbaycanlıların soyqırımını həyata keçirdilər. |
| *1918-ci il, 30 mart-3 aprel* | Bakıda və bölgələrdə kütləvi türk-müsəlman soyqırımından sonra hakimiyyəti ələ almış bolşeviklər İnqilabi Müdafiə Komitəsinin dekreti ilə Bakı Şəhər Dumasını buraxdılar. |
| *1918-ci il, aprel* | Səməd ağa Kəsəmənli başda olmaqla göyçəlilər Basarkeçərə gedib Gəncəbasar bölgəsində erməni ağsaqqalları ilə barış yaratmaq istəyirlər. |
| *1918-ci il, 9 aprel* | Azərbaycan nümayəndələrinin tələbi ilə Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. |
| *1918-ci il, 13 aprel* | Cənubi Qafqaz Seyminin iclasında Qafqaz cəbhəsində yaranmış vəziyyət müzakirə olunarkən gürcü və erməni nümayəndələrindən ibarət antiazərbaycan Ali Müdafiə Şurası yaradıldı. |
| *1918-ci il, 13 aprel* | Ahısqa türkləri Türkiyəyə birləşmək haqqında müraciət qəbul etdilər. |
| *1918-ci il, 22 aprel* | Zaqafqaiya Seymi Cənubi Qafqazın suverenliyini elan edərək Zaqafqaziya Demokratik Federativ Respublikası hökumətini yaratdı. |
| *1918-ci il, 25 aprel* | S.Şaumyan başda olmaqla Bakı Xalq Komissarları Soveti yaradıldı. |
| *1918-ci il, 22 aprel* | Zaqafqaziya Seymi tərəfindən Zaqafqaziyanın müstəqilliyi elan edildi. |

| | |
|---|---|
| *1918-ci il, 26 aprel* | Zaqafqaziya Seymi tərəfindən Çxenkelinin başçılığı ilə yeni Zaqafqaziya hökuməti təsdiq edildi. |
| *1918-ci il, 30 aprel* | Bakı Şəhər Duması İnqilabi Müdafiə Komitəsi tərəfindən ləğv edildi. |
| *1918-ci il, 1 may* | Bakı XKS əsas fəaliyyət proqramı kimi elan etdiyi bəyannamədə özünü Sovet Rusiyasının Azərbaycanda fəaliyyət göstərən yerli hakimiyyət orqanı olduğunu və birbaşa Moskvaya tabe olacağını bildirdi. |
| *1918-ci il, 1 may* | Bakıda öz diktaturasını qurmuş Şaumyan rejimi tamamilə Sovet Rusiyası tərəfindən istiqamətləndirilirdi. |
| *1918-ci il, 1 may* | Bakı Komissarları Sovetinin qoşunları Qubaya hücum etdi. |
| *1918-ci il, 1 may* | Daşnak Amazaspın başçılıq etdiyi qoşun hissələri Quba şəhərində vəhşicəsinə qırğın törədib, 200-dən çox evi, məscidləri yandıraraq, 3 minədək insanı qətlə yetirdilər. Sonrakı günlər Amazaspın quldur dəstələri Quba bölgəsinin 120-dən çox kəndində, o cümlədən dağ yəhudiləri arasında kütləvi qətliamlar həyata keçirdilər. |
| *1918-ci il, may* | Şərqi Anadoluda türklərə qarşı kütləvi qırğınlar törədən erməni silahlı dəstələrini təqib edən türk qoşunları Gümrü və Böyük Qarakilsə şəhərlərini erməni dəstələrindən təmizlədilər. |
| *1918-ci il, 1 may* | Quba Bakı Soveti qoşunları tərəfindən tutuldu. |
| *1918-ci il, may* | Azərbaycanlılar və ermənilər arasında barışığın təşkil edilməsi ilə əlaqədar Qarabağ komissiyası yaradıldı. |
| *1918-ci il, 11 may* | Osmanlı dövləti və Zaqafqaziya Seymi arasında Batum Sülh Konfransı başlandı. |
| *1918-ci il, 25 may* | Zaqafqaziya Seymi və hökuməti Cənubi Qafqazda yaşayan millətlərin milli maraqlarına cavab vermədiyindən buraxıldı. |



| | |
|---|---|
| *1918-ci il, may* | Yaxın və Orta Şərqdə möhkəmlənmiş İngiltərə qoşunları Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və avqusta qədər ingilislərin hərəkət etməsi mümkün olmadı. |
| *1918-ci il, 26 may* | Zaqafqaziya Seyminin son iclası keçirildi. Gürcüstan öz müstəqilliyini elan etdi. |
| *1918-ci il, 26 may* | Azərbaycanlıların təmsilçisi Fətəli xan Xoyski iclasda müstəqil Gürcüstan vətəndaşlarını Güney Qafqazın bütün müsəlmanları adından təbrik etdi. |
| *1918-ci il, 27 may* | Zaqafqaziya Seymi dağıldıqdan bir gün sonra, Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk hökuməti yaratmaq üçün Seymin 44 nəfər müsəlman nümayəndələri Tiflisdə toplandı və Azərbaycanın idarə olunmasını öz üzərinə götürmək qərarına gələrək özlərini Azərbaycanın Milli Şurası elan etdi. |
| *1918-ci il, 27 may* | Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının üzvləri ayrıca iclas keçirərək, Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan parlamenti elan etdi. Azərbaycan Milli Şurası təşkil edildi, Azərbaycanın müstəqillik aktı qəbul olundu. Bununla, əslində, ilk Azərbaycan parlamenti yarandı və Azərbaycanda ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. Ulusal dövlət müstəqilliyinin dirçəlişi idealları uğrunda illər boyu açıq-gizli çarpışan minlərin, milyonların müqəddəs arzuları çin oldu. |
| *1918-ci il, 27 may* | İclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti seçildi. M.Ə.Rəsulzadə sədr seçildi. |
| *1918-ci il, 27 may* | Azərbaycan Milli Şurasının üzvləri İstiqlal bəyannməsinin mətnini tərtib etdilər. |
| *1918-ci il, 28 may* | Tiflisdə keçmiş Qafqaz canişininin sarayında Həsən bəy Ağayevin sədrliyi və M. Mahmudovun katibliyi ilə Milli Şuranın ilk iclası keçirildi. |
| *1918-ci il,* | Azərbaycan Milli Şurası Həsən bəy Ağayevin sədrliyi |

*28 may* ilə Tiflisdə Qafqaz canişininin keçmiş sarayında keçirilmiş təntənəli iclasda Azərbaycanın müstəqilliyi haqqında İstiqlal bəyannaməsinin imzalanma mərasimini keçirdi.

*1918-ci il, 28 may* Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən Milli Şuranın tarixi iclasında iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Usubbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacınski, Əli Əskər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firidun bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın istiqlaliyyəti haqqında Akt (Əqdnamə) - İstiqlal bəyannaməsini qəbul etdilər.

*1918-ci il, 28 may* Azərbaycan Milli Şurasının təqdim etdiyi İstiqlal bəyannaməsini Zaqafqaziya Seymi qəbul etdi və öz fəaliyyətini sona çatdırdı.

*1918-ci il, 28 may* Müsəlman Şərqində və türk dünyasında ilk dəfə yaradılan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixinə Birinci Respublika kimi daxil oldu. O, XX əsrin əvvəllərində xalqımıza hüquqi dövlətçilik və sivil demokratiya ənənələrini bəxş etdi.

*1918-ci il, 28 may* Azərbaycan səlahiyyətliləri radioteleqramlar vasitəsi ilə İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Moskva, Stokholm, Tokio və digər paytaxtlara Azərbaycan Xalq Cümhuriyyətinin qurulması haqqında məlumat göndərdilər.

*1918-ci il, 28 may* Azərbaycan Milli Şurasının iclasında, eyni zamanda bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibi də təsdiq edildi. F.X.Xoyski başda olmaqla I hökumət kabineti təşkil edildi.



*1918-ci il, 28 may-16 iyun* Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis şəhərində fəaliyyət dövrü.

*1918-ci il, 28 may – 17 iyun* Azərbaycan Xalq Cümhuriyyətinin F.Xoyskinin başçılığı altında I hökumət kabinetinin fəaliyyət dövrü.

*1918-ci il, 29 may* Azərbaycan Milli Şurası Antanta dövlətlərinin davamlı təzyiqlərindən sonra Azərbaycana qarşı bir daha ərazi iddiasında olmamaq şərti ilə İrəvanın ermənilərə güzəşt edilməsi və erməni dövlətinin paytaxtı kimi tanınması haqqında qərar qəbul etdi.

*1918-ci il, 1 iyun* Milli Şuranın iclasında İrəvandan olan iyun-üzvləri Mir Hidayət Seyidov, Bağır Rizayev və Nəriman bəy Nərimanbəyov İrəvanın Ermənistana güzəşt edilməsi haqqındakı qərara yazılı şəkildə etirazlarını bildirsələr də nəticəsi olmadı.

*1918-ci il, 4 iyun* Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında "Dostluq və əməkdaşlıq" müqaviləsi imzalandı. Müqavilənin hazırlanmasında, danışıqların aparılmasında Əli bəy Hüseynzadə iştirak etmişdi.

*1918-ci il, iyun* Azərbaycan Xalq Cümhuriyyətinin həyatında polyaklar da fəal iştirak etmişlər. General Maçey Sulkeviç həmin dövrdə Azərbaycan ordusunun qərargah rəisi idi. Kriçevski qardaşları isə Azərbaycan Xalq Cümhuriyyəti hökumətində rəhbər vəzifələr tutmuşlar.

*1918-ci il, iyunun əvvələri* Gürcü silahlı qüvvələri alman hərbi dəstələri ilə birləşərək Borçalıya daxil oldular.

*1918-ci il, 4 iyun* Osmanlı hökumətiylə Gürcüstan və Ermənistan hökumətləri arasında bağlanmış müqavilələrdə sərhəd xətti müəyyənləşdirildi.

*1918-ci il, 4 iyun* Osmanlı tərəfi Gürcüstandan türk əsgərlərinin Yelizavetpola qədər irəliləməsini təmin etməyi, dəmiryolundan yararlanmaq məqsədi ilə Borçalı qəzasının güney yarısının və Sınıq Körpünün keçici olaraq Osmanlının ixtiyarına verilməsini tələb etdi.

Gürcülər almanlara, şəxsən general fon-Krezenştayna güvənərək, bu tələbi yerinə yetirməkdən imtina etdilər.

*1918 -ci il, 5 iyun* — Gürcüstan hökuməti iclasının qərarı ilə Borçalı, Sığnax və Tiflis qəzaları sərhədlərində silahlı qüvvələr yerləşdirildi, sərhədləri aydınlaşdırmaq üçün ayrıca komissiya yaradıldı.

*1918-ci il, 5 iyun* — Gürcüstan hökuməti Borçalı, Sığnaq və ümumilikdə Qarayazıda Gürcüstanın sərhədlərini müəyyən etmək adı altında mövcud vəziyyəti dəyişmək cəhdləri ilə əlaqədar bəyanat verdi.

*1918-ci il, 5 iyun* — Gürcüstan hökumətinin xarici işlər idarəsinin başçısına ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin saxlanılması naminə Borçalı qəzasının hüdudlarından qoşun hissələrini çıxarmaq, Azərbaycan ərazisinin yuxarıda qeyd edilən hissələrinin tutulması haqqında sərəncamı ləğv etmək üçün təcili tədbirlər görməsi bəyan edildi.

*1918-ci il, iyun* — Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin səyi ilə Gürcüstanın ciddi müdaxiləsinə baxmayaraq Qarayazıdakı status-kvo saxlanıldı.

*1918-ci il, iyun* — Azərbaycan hökuməti ordu hissəsinin Qarayazıda qalması şərti ilə beynəlxalq komissiya yaradılması barədə razılaşma əldə edildi.

*1918-ci il, yay* — Görkəmli ictimai xadim Akçura Osmanlı "Qızıl Ay" cəmiyyəti xətti ilə Rusiyadakı türk əsirlərinin taleyi ilə məşğul olan komissiyada fəaliyyət göstərdi.

*1918-ci il, 5 iyun* — Osmanlı dövlətinin türk ordu birlikləri Yelizavetpola (Gəncəyə) gəldi.

*1918-ci il, 5 iyun* — Görkəmli ictimai siyasi xadim Əhməd bəy Ağaoğlu xalqın bolşevik-daşnaklara qarşı mübarizəsinə kömək üçün göndərilmiş Qafqaz İslam ordusunun komandanı Nuru Paşanın siyasi müşaviri kimi Azərbaycana gəldi.

*1918-ci il, 5 iyun* — Bakı Kommunasının Xalq Hərbi Dənizçilik komissarı Q.Korqanov Gəncəyə hücum haqqında əmr verdi.



*1918-ci il, 5 iyun* — Bakı komissarlarından Arsen Əmiryan "Yaşasın vətəndaş müharibəsi!" şüarı ilə Bakı-Gəncə qarşıdurmasına əsassız olaraq vətəndaş müharibəsi statusu verməyə çalışırdı. Azərbaycan vətəndaşı olmayan bolşevik-erməni qruplaşması Bakıda hakimiyyəti zəbt edərək Gəncədəki hakimiyyəti də boğmağa çalışırdı.

*1918-ci il, 6 iyun* — Bakı Xalq Komissarları Sovetinin sədri Stepan Şaumyan V.İ.Lenin və İ.Stalinə Azərbaycan Xalq Cümhuriyyətinin müvəqqəti paytaxtı Gəncəyə hücum barədə teleqram ilə xəbər verdi.

*1918-ci il, 10 iyun* — Bakı Xalq Komissarları Soveti hakimiyyətini Azərbaycan Xalq Cümhuriyyətinin nəzarətində olan ərazilərə, xüsusən Qərb rayonlarına yaymaq məqsədi ilə bolşevik-erməni qoşunları Gəncə üzərinə yürüşə başladı.

*1918-ci il, 10 iyun* — Qarakilsədə və Sənain stansiyası yaxınlığındakı Vorotsovka kəndi ərazisində türk qoşunları ilə alman-gürcü qoşunu arasında toqquşma baş verdi. Bu qarşıdurmada türklər üstünlük qazandılar, almanlardan götürülən əsirlər Karsa aparıldı.

*1918-ci il, 10 iyun* — Borçalı azərbaycanlıları Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasına Gürcüstanda yaşayan bütün müsəlmanlar adından müraciət edib Azərbaycana birləşdirilmələrini tələb etdilər.

*1918-ci il, 12 iyun* — Kürdəmiri işğal edən Bakı Soveti qüvvələri Göyçaya yaxınlaşdılar. İki həftədən çox davam edən qanlı döyüşlər Türkiyədən göndərilən əlavə qüvvələrin və Azərbaycan könüllüləri hesabına təşkil olunan Qafqaz İslam ordusunun qələbəsi ilə nəticələndi.

*1918-ci il, 13 iyun* — Milli Şuranın iclasında ermənilərin müsəlmanlara qarşı törətdikləri qırğınlar barədə İrəvandan gələn xəbərlər müzakirə edildi. İrəvan quberniyası ərazisində ev-eşiyindən didərgin salınan və ac-yalavac dolanan qaçqınların sayının 150 min nəfərə çatdığı bildirildi.

*1918-ci il, 13 iyun* — Milli Şura İrəvan quberniyasındakı qaçqınlara maddi yardım göstərilməsi üçün nümayəndə göndərməyi qərara aldı.

*1918-ci il, 13 iyun* Azərbaycan Milli Şurası İrəvan quberniyası ərazisində mövcud olan türk qoşunlarının komandanlığından xahiş etdi ki, qaçqınlara ərzaq yardımı edilsin və onların öz yer-yurdlarına qayıtmaları üçün Ermənistan hökumətinə təsir göstərsin.

*1918-ci il, iyun* Azərbaycanın İrəvandakı diplomatik nümayəndəliyi fəaliyyətə başlayanadək İrəvan Müsəlman Milli Şurası, İrəvan Müsəlman Xeyriyyə Cəmiyyəti və İrəvan Quberniyası Həmyerliləri Təşkilatı Ermənistan ərazisində ermənilərin törətdikləri vəhşiliklər barədə beynəlxalq təşkilatları, Azərbaycan mətbuatını və rəsmi dairələri məlumatlandırmışdı.

*1918-ci il, 14 iyun* Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınski Gürcüstan hökumətinə bəyanat göndərdi: "Gürcüstan hökumətinin Borçalı, Tiflis və Sığnaq qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan hissələrinin əhalisi öz nümayəndələri vasitəsilə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində olmaq arzularını ifadə etdiklərini nəzərə alaraq, mənim hökumətim gürcü hökumətinin yuxarıda qeyd olunan sərəncamına qarşı qəti bəyanat verdi".

*1918-ci il, 14 iyun* Azərbaycan Xarici İşlər Nazirliyi azərbaycanlıların məskunlaşdığı Borçalıya və digər ərazilərə birləşmiş gürcü-alman hərbi qüvvələrinin yeridilməsinə qarşı nota verdi.

*1918-ci il, 16 iyun* Azərbaycan Cümhuriyyəti Milli Şurası və hökuməti Bakı şəhərinin S.Şaumyanın başçılığı altında bolşevik Bakı Soveti və daşnak silahlı dəstələrinin nəzarətində olduğu üçün, müvəqqəti paytaxt elan edilən Gəncə şəhərinə köçdü.

*1918-ci il, 16 iyun* Gəncədə Milli Şura ilə Qafqaz İslam ordusu komandanlığı arasında hökumətin tədbirlərinin "həddindən artıq demokratik istiqamətli olması" səbəbi ilə yaranan narazılıq Əhməd bəy Ağaoğlunun vasitəçiliyi ilə aradan qaldırıldı.

*1918-ci il, 16 iyun* Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Gəncədə fəaliyyətə başlaması haqqında qərar qəbul edildi.



*1918-ci il, 16 iyun* Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçdü. Gəncədə olduğu dövrdə Milli Şura parlament funksiyasını yerinə yetirməyi dayandırdı.

*1918-ci il, 17 iyun* Gəncədə bütün hakimiyyəti yeni yaranan Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə həvalə etmək üçün hökumət təşkil edildi və Milli Şura hökumətə 6 ay müddətində Müəssislər Məclisinə seçkilər keçirilməsini şərt qoyaraq buraxılması haqqında qərar qəbul etdi.

*1918-ci il, 17 iyun* Gəncədə keçirilən iclasda Azərbaycan Milli Şurasının buraxılması, bütün qanunverici və icraedici hakimiyyətin F.X.Xoyskinin sədrlik etdiyi Azərbaycan Müvəqqəti hökumətinə verilməsi haqqında iki mühüm qətnamə qəbul edildi.

*1918-ci il, 17 iyun* Azərbaycan Xalq Cümhuriyyətinin müvəqqəti paytaxtı və döyüşən hərbi qərargahı olan Gəncədə M.Ə. Rəsulzadənin sədrliyi ilə Milli Şuranın növbəti iclası keçirildi.

*1918-ci il, 17 iyun- 7 dekabr* F.Xoyskinin başçılığı altında Azərbaycan Xalq Cümhuriyyətinin II hökumət kabinetinin Gəncə şəhərində fəaliyyət dövrü.

*1918-ci il, 18 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyətində dəmiryolu işçilərinin maliyyə ehtiyacını ödəmək üçün kredit təşkilatlarının açılması haqqında qərar qəbul edildi.

*1918-ci il, 18 iyun* Gəncədə Mərkəzi Avropa İttifaq dövlətlərinin və Qafqaz hökumətlərinin Beynəlxalq İstanbul konfransında iştirak etmək üçün Azərbaycan Xalq Cümhuriyyətindən nümayəndə heyətinin sədri M.Ə.Rəsulzadə, heyətin üzvləri ədliyyə naziri X.Xasməmmədov və A.Safikürdski olmaqla yola salınması haqqında qərar qəbul edildi.

*1918-ci il, 18 iyun* Gəncədə Zaqafqaziya hökumətinin Tiflis şəhərində fəaliyyət göstərən "Ümumi mülkiyyətin və ümumi işlərin ləğvetmə komissiyası"nın tərkibinin Azərbaycan Xalq Cümhuriyyətindən təzələnməsi ilə əlaqədar olaraq yeni şəxslərin təyinatı haqqında qərar qəbul edildi.

*1918-ci il, 18 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Nazirlər kabinetində dini məsələlərin müsəlman din xadimlərinin iştirakı ilə müzakirə edilməsi haqqında qərar qəbul edildi.

*1918-ci il, 18 iyun* Gəncədə müsəlman dininə aid olan məsələlərin müzakirəsində Şeyxülislamın və müftilərin hökumət iclaslarında həlledici səs hüququnda iştirak etmələri haqqında qərar qəbul edildi.

*1918-ci il, 18 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yollar nazirinin sərəncamına qulluqçulara pul mükafatı vermək üçün 350 min manat kredit ayrılması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 19 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökumətində nazir portfellərinin bölgüsü haqqında qərar qəbul edildi.

*1918-ci il, 19 iyun* Gəncədə nazirliklərin işinin və vəzifə bölgüsünün müəyyən edilməsi haqqında sərəncam verildi.

*1918-ci il, 19 iyun* Azərbaycan Xalq Cümhuriyyəti ərazisinin hər yerində hərbi vəziyyət elan edildi.

*1918-ci il, 19 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Qafqaz Müsəlman ordusunda mövcud daxili və xarici vəziyyətlə əlaqədar müvafiq zəruri tədbirlər görülməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 19 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Quberniyalarda ayrı-ayrı müəssisə rəislərinin təyin olunması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 19 iyun* Gəncədə Ərzaq Nazirliyi "İribuynuzlu mal-qaranın və zəruri istifadə məhsullarının Azərbaycan Xalq Cümhuriyyəti ərazisindən xaricə çıxarılmasının qadağan edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 20 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Baytarlıq müəssisələrinin Himayə və Xalq sağlığı nazirliyinin tabeliyinə verilməsi haqqında" qərar qəbul etdi.



*1918-ci il, 20 iyun* "Gəncə ətrafında Zurnabad baytarlıq stansiyasının işinin yaxşılaşdırılması və ümumilikdə Azərbaycanda dövlət üçün zəruri, vacib hesab edilən baytarlıq işinin yaxşılaşdırılması haqqında" qərar qəbul olundu.

*1918-ci il, 20 iyun* Himayə və Xalq sağlığı nazirliyindən baytarlıq sahəsindəki vəziyyət haqqında məruzə hazırlanıb hökumətə təqdim edildi.

*1918-ci il, 21 iyun* Gəncədə qəbul edilmiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarına görə, Azərbaycandakı Türkiyə ordusunun saxlanılması üzrə bütün xərclər yerli əhalinin üzərinə qoyuldu.

*1918-ci il, 21 iyun* Gəncədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin bəyannaməsinin mətbuatda türk və rus dillərində çap edilməsi haqqında qərarnamə qəbul edildi.

*1918-ci il, 21 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" əsasnaməsi qəbul edildi.

*1918-ci il, 21 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Qırmızı parça materialdan hazırlanan, üzərində ağ aypara və qırmızı fonda səkkizguşəli ulduz olan bayraq Azərbaycan bayrağı olaraq qəbul edilsin" qərarını verdi.

*1918-ci il, 21 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti dövlət müəssisələrində kredit şöbələrinin açılmasına nail oldu.

*1918-ci il, 21 iyun* Gəncədə Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan şöbəsinin müfəttişi F. Köçərlinin hesabına qeyd olunan şöbənin Qazax şəhərinə daşınması üçün 5 min manat pul ayrılması haqqında qərar qəbul olundu.

*1918-ci il, 21 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyətində ərzaq ehtiyatının yaradılması haqqında əsasnamə qəbul edildi. Əsasnaməyə görə, bütün hərbi hissələr və türk ordusu bir ay müddətinə Dövlət xəzinəsi hesabına zəruri ərzaqla təmin edilməli idi.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Zaqafqaziya müəllimlər seminariyasının

Azərbaycan şöbəsinin Tiflisdən Qazaxa köçürülməsi ilə əlaqədar vəsaitin ayrılması haqqında qərar qəbul etdi.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi əsasında ilk direktoru görkəmli tədqiqatçı Firidun bəy Köçərli olmaqla Qazax müəllimlər seminariyasının yaradılması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 22 iyun* Gəncədə Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan şöbəsinin əşyalarının Tiflisdən Qazaxa köçürülməsi ilə əlaqədar olaraq şöbənin keçmiş inspekoru F.Köçərlinin adına 5000 rubl ayrıldı.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Yelizavetpol dövlət palatasına bütün müəssisələrdə kredit açması qərarını verdi.

*1918-ci il* Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan Respublikasına Azərbaycan-Ermənistan sərhədlərini elan etmək üçün xüsusi komissiya yaradılmasını təklif etdi.

*1918-ci il, 22 iyun* Ermənistan tərəfi Batum müqaviləsinin şərtlərinə məhəl qoymayaraq, yeni ərazilər ələ keçirmək üçün hərbi təcavüzünü davam etdirməklə yanaşı, Dağlıq Qarabağa dair ərazi iddiası irəli sürdü.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Respublikası hökumətinin Daxili işlər nazirliyi "Poylu stansiyasında sərhəd postunun açılması haqqında" qərar verdi.

*1918-ci il, 22 iyun* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Daxili işlər nazirliyi xaricdən ərzaq məhsulları gətirilməsinin qarşısını almaq məqsədi ilə Poylu stansiyasında sərhəd postu açdı.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ərzaq məhsullarının ölkədən çıxarılmasının qadağan edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Şərab və digər ərzaq məhsullarının xaricə aparılmasının dayandırılması haqqında" əsasnamə qəbul etdi.



*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası hökumətinin qəbul etdiyi əsasnaməyə görə, "Taxılın, iribuynuzlu və xırdabuynuzlu heyvanların, ümumi halda ərzaq məhsullarının respublikanın sərhədlərindən xaricə çıxarılması qadağan edilir".

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol (Gəncə) şəhər ictimai özünüidarəsinin fəaliyyətinin təzələnməsi haqqında" əsasnamə verdi.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Yelizavetpol şəhər rəhbərinin müavininə Şəhər özünüidarəsini çağırmaq və gecikmədən məşğələlərə başlamağı həvalə etdi.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Torpaq islahatı ilə əlaqədar Zaqafqaziya Seyminin qanununun ləğv edilməsi haqqında qərar qəbul etdi.

*1918-ci il, 22 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Torpaq islahatı ilə əlaqədar Zaqafqaziya Seyminin qanununun Azərbaycanda Müəssislər Məclisi çağırılana qədər dayandırılması haqqında qərar qəbul etdi.

*1918-ci il, 22 iyun* Torpaq islahatı ilə əlaqədar Zaqafqaziya Seyminin qanununun fəaliyyət göstərdiyi müddətdə tutulan sahibkar və dövlət torpaqları azad edildi.

*1918-ci il, 22 iyun* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Əkinçilik nazirliyinə Müəssislər Məclisinə təqdim etmək üçün zəruri sənədlərin toplanmasına başlamağı tapşırdı.

*1918-ci il, 22 iyun* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Əkinçilik nazirliyindən torpaq komitələrinin yenidən təşkil olunması və ya ləğv edilməsi ilə əlaqədar məruzənin hazırlanmasını tələb etdi.

*1918-ci il, 22 iyun* Azərbycan Xalq Cümhuriyyəti Xarici İşlər naziri Borçalı məsələsini komissiya vasitəsi ilə həll etmək

istəyini Gürcüstan hökumətinə bildirdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyi "Azərbaycanın bütün ərazisində hərbi vəziyyət qanunlarının tətbiq edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bir sıra cinayət hərəkətlərinin ümumi məhkəmələrin səlahiyyətlərindən alınması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Rusiya və Zaqafqaziya qanunlarının qüvvədə olmasının müvəqqəti saxlanılması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti "Bolşevik-erməni-daşnak Bakı Sovetinin hücum təhlükəsi ilə əlaqədar olaraq hərbi vəziyyətin elan edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti "Xalqa müraciət etmək şərti ilə xalq milisinin təşkil edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Əmtəə bürolarının təşkilinin Ticarət və Sənaye nazirliklərinə tapşırılması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Cavanşir qəzasında epidemiyanın qarşısını almaq tədbirləri haqqında" qanun qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Cavanşir qəzasına tibb işçilərinin ezam edilmələri haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Maliyyə Nazirliyi bank-uçot əməliyyatlarının təzələnməsi, bərpa edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 23 iyun* Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan Respublikasına Azərbaycan-Ermənistan sərhədlərini elan etmək



üçün xüsusi ikitərəfli komissiya yaradılmasını təklif etdi.

*1918 -ci il, 23 iyun* Rusiya və Zaqafqaziya Federasiyasının qanunlarını müvəqqəti olaraq qüvvədə saxlamaq haqqında qanun qəbul olundu.

*1918-ci il, 23 iyun* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ölkədə hərbi vəziyyət elan edilməsi ilə əlaqədar ölkə əhalisinə izahedici müraciət qəbul etdi.

*1918-ci il, 24 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət təşkilatlarının işçilərinin vəzifə fəaliyyətinə 1 iyul 1918-ci ilə qədər başlamaları və gəlmədiklərində azad olunmaları haqqında" qərar qəbul etdi.

*1918-ci il, 24 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Nazirlər Şurası dəftərxanasında işçilərin ştat vahidləri və məvacibləri haqqında" qanun qəbul etdi.

*1918-ci il, 24 iyun* Gəncədə olan Əlibəy Hüseynzadə Azərbaycan nümayəndə heyəti ilə birgə İstanbulda açılacaq "Məvareyi-Qafqaz" konfransında iştirak etmək üçün "Gülnihal" gəmisi ilə İstanbula yollandı.

*1918-ci il, 25 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hökumət qəzetinin nəşr edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 25 iyun* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Xalq Təhsil naziri A.Ağayeva hökumət qəzetinin smetasını hazırlayıb təsdiqə verməyi və Yelizavetpolda olan mətbəəni qəzetin çıxması üçün yararlı hala gətirməyi tapşırdı.

*1918-ci il, 25 iyun* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Xalq Təhsil nazirinə Tiflisdən mətbəə avadanlıqları almaq üçün müvafiq adamlar tapmasını tapşırdı.

*1918-ci il, 25 iyun* Azərbaycan Xalq Cümhuriyyəti ərazisindəki dəmiryolları müvəqqəti olaraq Daxili İşlər Nazirliyinin tabeliyinə verildi.

*1918-ci il,* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər

| | |
|---|---|
| *25 iyun* | Şurası "Müsəlman korpusunun komandirinin adına kredit açmaq haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 25 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Əhali haqqında zəruri illərə aid olan qeydiyyat materiallarının Tiflisdən Yelizavetpola (Gəncəyə) təcili gətirilməsi üçün Şeyxülislam və axundları lazımı sənədlərlə təmin etmək haqqında" qanun verdi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Casusluqda ittiham olunan 13 nəfər haqqında cinayət işinin Hərbi məhkəməyə verilməsi haqqında" qərar çıxardı. |
| *1918-ci il, 26 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan korpusunda komandir yanında xüsusi tapşırıqlar üzrə diviziya rəisi hüququnda general ştatı müəyyən edilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə "Müsəlman korpusunun Azərbaycan korpusuna çevrilməsi, "Əlahiddə Azərbaycan korpusu"nun təsis edilməsi ilə Milli Ordu yaradılması haqqında" qərar qəbul edildi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə Yelizavetpol poçt-teleqraf kontoruna poçt və teleqraf göndərmələrini Azərbaycan Xalq Cümhuriyyətinin ərazisində ödəmək üçün vəsait ayrılması tapşırığı verildi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ciddi nəzarət edilməli vacib sənədləri Yelizavetpol Dövlət palatasına göndərmək haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hər nazirliyin yanında hökumətin qəbul etdiyi bir namizədin verməsi ilə "yoldaş nazir" vəzifəsi təsis edilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi İnqilabi tribunalın işlərinin bir hissəsinin Hərbi məhkəməyə verilməsi haqqında" qanun qəbul etdi. |



| | |
|---|---|
| *1918-ci il, 26 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Milli ordunu hərbi mütəxəssislərlə təmin etmək məqsədi ilə "Gəncədə Praporşiklər (yunkerlər) məktəbinin açılması haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 26 iyun* | Zaqatala dairəsində xalq sorğusunda Azərbaycan Xalq Cümhuriyyətinə birləşmək haqqında qərar qəbul edildi. |
| *1918-ci il, 26 iyun* | Gəncədə "Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində "Zaqatala quberniyası"nın yaradılması haqqında" qərar qəbul edildi. |
| *1918-ci il, iyun* | Zaqfederasiya dövründə dövlət qulluğunda işləyənlərin fəaliyyətinin tənzim edilməsi haqqında qanun qəbul edildi. |
| *1918-ci il, 26 iyun* | Xarici İşlər Nazirliyində saxlanılan və nəzarətə götürülən sənədlər haqqında qanun qnun qəbul edildi. |
| *1918-ci il, 27 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Cümə gününün bazar günü və hər həftə dövlət bayramı elan edilməsi haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 27 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Teymur bəy Makinskinin Ədliyyə naziri təyin edilməsi haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 27 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Göyçay qəzası idarə işçilərinə və milislərə rütbələrinə görə ödəmək üçün Göyçay Bankı vasitəsi ilə Bakı qubernatoru adına 35 min rubl kredit açılması haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 27 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol şəhər özünüidarəsinə 3 il müddətinə I şəhər istiqrazı keçirilənə qədər 150 min rubl faizsiz borc verilməsi haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 27 iyun* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol şəhər özünüidarəsinə geri qaytarılmamaq şərti ilə xolera və başqa yoluxucu xəstəliklərlə mübarizə aparmaq üçün 100 min rubl borc verilməsi haqqında" qərar qəbul etdi. |

*1918-ci il, 27 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol milli komitəsinin sərəncamında olan ərzaq məhsullarının Ərzaq nazirliyinə verilməsi haqqında" qərarnamə qəbul etdi.

*1918-ci il, 27 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol şəhər milis idarəsini şəhər özünüidarə təşkilatının tabeliyindən ayırıb Yerli ümumi hakimiyyətin idarəsinə verilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 27 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Çaxırdan alınan aksiz vergisinin dəyişdirilməsi və mövcud qanunlara əlavələr edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 27 iyun* Azərbaycan Xalq Cümhuriyyətində dövlət dilinin rus dilindən də müəyyən müddətdə istifadə edilməsi şərti ilə türk dili olması haqqında qanun qəbul edildi.

*1918-ci il, 27 iyun - 1 iyul* Qafqaz İslam ordusu Göyçay yaxınlığında Bakı Soveti qoşunları üzərində qələbə çalaraq onları geri qaçmağa məcbur etdi.

*1918-ci il, 27 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət dili türk dili (Azərbaycan türkcəsi-H.S) qəbul edilsin, bütün məhkəmə, inzibati və s. vəzifəli şəxslər bu dili mükəmməl öyrənənə qədər, hökumət idarələrində rus dilinin də istifadəsinə icazə verilsin" qərarını qəbul etdi.

*1918-ci il, 27 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Pambıq, yun, ipək (pambıq, yun, ipək və onlardan olan bütün məhsullar), metal (bütün metallar və onlardan istehsal edilənlər), heyvan (diri və ya kəsilmiş), taxıl (bütün taxıl məhsulları, un, bişmiş çörək) və başqa ərzaq məhsullarının xaricə aparılmasının (bəzi məhsulların aparılması Ərzaq nazirliyinin xüsusi icazəsi ilə mümkün idi) qadağan edilməsi haqqında" qanun qəbul etdi. Qanunu pozanların malı müsadirə olunur, özləri isə10 min rubl cərimə və ya 6 aya qədər həbs edilirdi.

*1918-ci il,* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər



*29 iyun* Şurası "Müstəqil Azərbaycan korpusunun üç həkiminin xolera epidemiyası ilə cəbhədə əhali arasında mübarizə etmək üçün Xalq sağlığı nazirliyinin vasitəsi ilə ezamiyyəyə göndərilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 30 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bütün nazirliklərdə dəftərxanaların təşkil edilməsi haqqında" qanun qəbul etdi. Hər bir nazir müvəqqəti olaraq bir katibə, bir kargüzar, iki katib və bir nəfər kuryer işə götürə bilərdi.

*1918-ci il, 30 iyun* Gəncədə lirənin kursunun müəyyən edilməsi (1 lirə-20 rubl) və təcili surətdə əhalini xəbərdar etmək haqqında qərar qəbul olundu.

*1918-ci il, 30 iyun* Zaqatala Milli Komitəsinin Azərbaycan Xalq Cümhuriyyətinə ünvanlanmış teleqramında bildirilirdi ki, əhalinin arzusuna uyğun olaraq Zaqatala dairəsi Azərbaycan Xalq Cümhuriyyətinə birləşir və bu qərar haqqında dairənin əhalisinə məlumat verilib.

*1918-ci il, 30 iyun* Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ştatlar da daxil olmaqla ştat qanununun verilməsi.

*1918-ci il, 31 iyun* Gəncədə bolşevik-daşnak hakimiyyəti və V.İ.Leninin Qafqazda nümayəndəsi, Azərbaycan türklərinin qənimi Bakı Xalq Komissarları Sovetinin istefa verməsi haqqında qərar qəbul olundu.

*1918-ci il, 1 iyul* Azərbaycan Xalq Cümhuriyyəti ərazisində zaman hesablanmasının Bakı vaxtı ilə yerinə yetirilməsi haqqında qanun qəbul edildi.

*1918-ci il, 1 iyul* Azərbaycan Xalq Cümhuriyyəti hökümətinin Ədliyyə nazirinin Qafqazda Türk hərbi məhkəməsinin sədri ilə vahid hərbi qanunvericilik yaradılması haqqında qərarı.

*1918-ci il, 3 iyul* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol quberniyası üzrə polis rütbələrinin təminatı üçün müvəqqəti maaşların müəyyən edilməsi və Yelizavetpol üzrə polis ştatları haqqında" qanun qəbul etdi.

*1918-ci il, 3 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri" adı altında öz rəsmi orqanının dərcinə başlaması haqqında qərar verdi.

*1918-ci il, 3 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi əməliyyat rayonunda tibbi və sanitar köməklik göstərilməsi ilə əlaqədar" qanun verdi.

*1918-ci il, 3 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət qulluqçularının maddi vəziyyətinin yaxşılaşdırılması məsələsi ilə əlaqədar olaraq komissiyanın təşkil edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 3 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi mükəlləfiyyət yerinə yetirirkən çağırışçı yaşının müəyyən edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 3 iyul* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi mükəlləfiyyəti yerinə yetirmək üçün 19 yaşına çatmış şəxslərin müəyyən edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 4 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dərinin ölkədən xaricə çıxarılmasının qadağan edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 4 iyul* — Nazirlər Şurası mülki şəxslərə dövlət bağ yerlərindən istifadə etmələri haqqında qanun qəbul etdi.

*1918-ci il, 4 iyul* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Dövlətin bağ yerlərindən istifadə etmək haqqında qanununa görə, yayda Yelizavetpolda-Hacıkənddə ailələrin çox ucuz qiymətə hökumətin bağ evlərində qalmaları haqqında sərəncam verdi.

*1918-ci il, 5-6 iyul* — Qafqaz İslam ordusu və Azərbaycan süvari bölmələri ilə S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Sovetinin Qırmızı ordu hissələri arasında Ağsuda döyüş baş verdi.

*1918-ci il, 6 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Sirkənin xaricə çıxarılmasının qadağan edilməsi haqqında" qanun qəbul etdi. Müstəsna hallarda



müxtəlif səbəblərlə - sirkə tələbatdan artıq olduqda, xarab olmaq təhlükəsi yarandıqda Ərzaq nazirliyinin razılığı ilə xaricə göndərilə bilərdi.

*1918-ci il, 6 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Köçkünlər tərəfindən buraxılan əkin yerlərini qeydiyyata almaq üçün komissiyanın təsdiq edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 6 iyul* — Maliyyə, Daxili İşlər və Ərzaq nazirlikləri tərəfindən köçkünlərin buraxıb gəldikləri əkin yerlərini müəyyənləşdirmək üçün komissiya təşkil edildi, buraxılan yerlərdə imkan olduqda məhsulun toplanması və əkini qoruya bilənlərin mükafatlandırılmasının miqdarı müəyyən edildi.

*1918-ci il, 6 iyul* — 13-cü alay Bakı Xalq Komissarları Sovetinin qüvvələrini məğlub edərək uğurla Ağsuya daxil oldu və hücumu Şamaxı yoxuşuna qədər davam etdirdi.

*1918-ci il, 7 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol Müsəlman Milli Komitəsinin vəziyyətini aydınlaşdırmaq və əmlakını qəbul etmək üçün Daxili İşlər, Maliyyə və Ərzaq nazirliklərinin təşkil etdikləri ləğvetmə komissiyası haqqında" qanun qəbul etdi.

*1918-ci il, 7 iyul* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bütün Milli Komitələrin və onların əmlakının ləğv edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 8 iyul* — Göyçay ətrafındakı döyüşlərdən qələbə ilə çıxan "Əlahiddə Azərbaycan korpusu"nun komandanlığının təqdimatına əsasən, əsgəri rütbələrin verilməsi və fərqlənmiş hərbçilərin təltif edilməsi üçün Nazirlər Kabinetinin sədrinə müraciət edildi və bir qrup döyüşçü müxtəlif orden və medallara layiq görüldü.

*1918-ci il, 8 iyul* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yeni rütbələrin verilməsi və hərbi idarənin əməkdaşlarının təltif edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il,* — Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər

| | |
|---|---|
| *8 iyul* | Şurası "Bayram günlərində cəbhədən qayıdan, Yelizavetpolda yerləşən hərbi hissələrin əsgərlərinə hədiyyələrin alınması və göndərilməsi haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 8 iyul* | Yaralanmış və xəstə alman əsgərləri üçün müstəsna hal kimi Azərbaycandan xaricə 800 vedrə çaxır aparılması haqqında qərar verildi. |
| *1918-ci il, 10 iyul* | Qafqaz İslam ordusu Kürdəmir və Şamaxını azad etdi. |
| *1918-ci il, 11 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Gəncə şəhər hərbi mükəlləfiyyət idarəsinin Ümumazərbaycan hərbi mükəlləfiyyət idarəsinə çevrilməsi haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 11 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Müstəqil Azərbaycan korpusunun xidməti tamamlayan zabitlərinə hesabın kəsilməsi ilə əlaqədar yekun pulların verilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 11 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yelizavetpol hərbi mükəlləfiyyətdə olmağın Azərbaycan hərbi mükəlləfiyyətdə olmaq adlandırılması haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 11iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Epidemiya ilə mübarizə haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 11 iyul* | Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ümumi səfərbərlik haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyətində 1894, 1895, 1896, 1897, 1898 və 1899-cu illərdə anadan olmuş müsəlmanları orduda xidmətə cəlb etmək üçün səfərbərlik elan edildi. |
| *1918-ci il, 12 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət zəruriyyəti ilə əlaqədar olaraq işdən azad edilənlər və ştatı ixtisar olanlara hesabı kəsmək üçün pulların verilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 12 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət qulluqçularına artırılmış maaş verilməsi |



| | |
|---|---|
| | haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 12 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Gürcüstan Respublikası hökuməti yanında Azərbaycanın diplomatik nümayəndəliyi ştatı təsis edilməsi və sonuncuya xərclər üçün avans verilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 12 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Keçmiş Zaqafqaziya hökumətinin bütün nazirliklərində Azərbaycan hökumətindən səlahiyyətli şəxslərin fəaliyyətini müvəqqəti dayandırmaq haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 12 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Salaxlı, Şıxlı və Poylu kəndlərində sərhəd postlarının təşkil edilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 12 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Saatla vaxt hesablanması: Azərbaycan Xalq Cümhuriyyəti sərhədləri daxilində saatın Bakı vaxtı ilə hesablanması haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 13 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi lazaretin təşkil edilməsi haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 13 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Qaçqınlara köməyin təşkil edilməsi ilə əlaqədar Xalq sağlığı nazirliyinin ərzaq, xəstəxana, yaşayış binaları təşkil etməsı, mülki əhalini, xeyriyyə və başqa cəmiyyətləri də qaçqınlar işinə cəlb etmək haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 15 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Nazirlər Şurasının iclas günlərinin (bazar ertəsi, çərşənbə, şənbə ) olması haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 15 iyul* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Zaqafqaziyada dünyada müharibə başlanandan müsəlmanlar və onların əmlakı üzərində zorakılıq faktlarını tədqiq etmək üçün Fövqəladə istintaq komissiyasının təşkil edilməsi haqqında" qanun qəbul etdi. |

**1918-ci il, 15 iyul** Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi vaxtın qanunlarına əlavə etmək və istifadə olunması haqqında" qanun qəbul etdi.

**1918-ci il, 15 iyul** Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Azərbaycan korpusunun Korpus məhkəməsi "Hərbi məhkəmə nizamnaməsinin qaydaları ilə 30 iyun 1914-cü il qanununun redaktəsi və istifadə edilməsi haqqında" qərar qəbul etdi.

**1918-ci il, 15 iyul** Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycanda Korpus məhkəmələrində istifadə olunan andlı iclasçıların iştirak etməsi ilə bağlı Rusiyada Müvəqqəti hökumətin qanununun ləğv edilməsi haqqında" qərar qəbul etdi.

**1918-ci il, 15 iyul** Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Fövqəladə təhqiqat komissiyasının yaradılması haqqında" qərar qəbul etdi.

**1918-ci il, 17 iyul** Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Zaqafqaziya hökumətinin ümumi əmlakının, sənədlərin ləğv edilməsi komissiyasının işi haqqında" qanun qəbul etdi.

**1918-ci il, 18 iyul** Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan ərazisinin hərbi vəziyyətdə olmasının elan edilməsi haqqında qanuna əlavə edilməsi haqqında" qərar qəbul etdi.

**1918-ci il, 20 iyul** Qafqaz İslam ordusu Azərbaycan Xalq Cümhuriyyətinin qüvvələri ilə birlikdə mühüm strateji məntəqə olan Şamaxı şəhərini erməni-bolşevik qüvvələrindən azad etdi.

**1918-ci il, 22 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti "Türkiyədən dərsliklərin gətirilməsi və bir neçə müəllimlərin dəvət edilməsi üçün İstanbula əlavədə qeyd olunan şəxslərin ezam edilməsi haqqında" qanun qəbul etdi.

**1918-ci il, 22 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi mükəlləfiyyətlilərin siyahıya alınmasına vəsaitin ayrılması və orduya çağırışın düzgünlüyünə nəzarətin təşkil edilməsi haqqında" qanun qəbul etdi.



**1918-ci il, 22 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Torpaq haqqında islahatlar aparılması barədə qanunun icrasının dayandırılması haqqında" qərar qəbul etdi. Həmin qərarın 1-ci bəndində göstərilirdi ki, Zaqafqaziya Seymi tərəfindən qəbul edilmiş "Torpaq islahatı haqqında qanun"un icrası Müəssislər Məclisi çağırılanadək dayandırılsın.

**1918-ci il, 24 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası "Aşağı Muğan kanalının təmiri üçün Əkinçilik Nazirliyinin sərəncamına 26 min 500 rubl 85 qəpik vəsaitin ayrılması haqqında" qərar qəbul etdi.

**1918-ci il, 24 iyul** Azərbaycanın istiqlalı uğrunda Azərbaycan və türk əsgərləri düşmənə qarşı eyni səngərdə, çiyin-çiyinə, birgə mübarizə aparırdı. Bu azadlıq savaşını qələmə alan Ə.Hüseynzadə "Azərbaycanda düşündüklərim" məqaləsini Türkiyənin "Hilali-Əhmər" qəzetində çap etdirmişdir.

**1918-ci il, 24 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Göyçay, Petropavlovsk və Səlyan (hər birinə 75 min rubl) xəzinələrində əməliyyatların açılması haqqında" qanun qəbul etdi.

**1918-ci il, 24 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ərzaq məhsullarının və taxılın xaricə çıxarılması hüququnun verilməsi ilə əlaqədar girov haqqının alınması haqqında" qanun qəbul etdi.

**1918-ci il, 24 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Aksiz vergisinin toplanması haqqında əsasnaməyə əlavələr haqqında" qanun qəbul etdi.

**1918-ci il, 25 iyul** Bakı Soveti tərəfindən ingilislərin Bakıya dəvət edilməsi haqqında qərar qəbul edildi.

**1918-ci il, 27 iyul** Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Sirkənin Ərzaq nazirliyinin müəyyən etdiyi xüsusi ixrac rüsumu ödəyərək xaricə aparılmasına icazə verilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 27 iyul* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Köçəri maldarların mühafizə edilməsi üçün vəsaitin ayrılması, Şuşa, Zəngəzur qəzalarında təhlükəsizliyin bərpa edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 27 iyul* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hökumət xəbərləri"nin nəşrinə rəhbərliyi Xalq təhsili nazirinə həvalə etməsi haqqında qanun qəbul etdi.

*1918-ci il, 27 iyul* Dövlət müəssisələrində işləyənlərin qarışıq dövrdə almadıqları maaşların ödənilməsi haqqında qanun qəbul edildi.

*1918-ci il, 29 iyul* Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ərzaq işinin düzgün qurulması və yenidən təşkil edilməsi ilə əlaqədar komissiyanın yaradılması və Ərzaq nazirinə 50 min rubl ayrılması haqqında" əsasnamə qəbul etdi.

*1918-ci il, 30 iyul* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Zaqatala dairəsində vəziyyətin öyrənilməsi ilə əlaqədar komissiyanın təşkil edilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 30 iyul* Gəncə şəhərində Ağdaş, Salyan, Ağdam, Bərdə, Qazax qəza mərkəzlərində ictimai özünüidarələrin fəaliyyətini yenidən başlamaq haqqında qanun qəbul edildi.

*1918-ci il, 30 iyul* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Çar Rusiyasının istilası zamanı Yelizavetpol adlandırılmış Gəncə şəhərinin tarixi adının bərpa edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 30 iyul* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Çar Rusiyasının istilası zamanı Karyagin adlandırılmış Cəbrayıl şəhərinin tarixi adının bərpa edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 30 iyul* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Şəhər ictimai özünüidarənin fəaliyyətinin bərpa olunması haqqında" qərar qəbul etdi.



*1918-ci il, 31 iyul* Rusiya bolşeviklərinin Qafqazda yerli hakimiyyəti olan Bakı Xalq Komissarları Soveti süqut etdi.

*1918-ci il, avqust* Azərbaycan hökuməti Bakının azad edilməsi uğrunda qızğın döyüşlər getdiyi vaxtda Əlimərdan bəy Topçubaşovu Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərdi.

*1918-ci il, 1 avqust* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Zaqafqaziya hökumətinin ləğvetmə komissiyasının tərkibinə daxil olan Azərbaycan nümayəndələrinin geri çağırılması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 1 avqust* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan Respublikası Nazirlər Şurasının qərarlarının xarici vətəndaşları da əhatə etməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 1 avqust* Bakıda eser, menşevik və daşnaklardan ibarət "Sentrokaspi" diktaturası adlanan mürtəce bir qurum yaradıldı.

*1918-ci il, 1 avqust* Sentrokaspi diktaturası və Fəhlə-əsgər Deputatları Sovetinin Müvəqqəti İcraiyyə Komitəsinin birgə hökuməti təşkil edildi.

*1918-ci il, 4 avqust* Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Birinci dünya müharibəsində qalib olan İngiltərənin nümayəndəsi polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu.

*1918-ci il, 7 avqust* Yerli əhaliyə kömək məqsədilə general Kazım Qarabəkir Paşa Naxçıvana daxil oldu. Bununla da erməni-daşnak qüvvələrinin Naxçıvan torpaqlarındakı özbaşınalığına son qoyuldu.

*1918-ci il, 8 avqust* Almaniya Birinci dünya müharibəsində qəti məğlubiyyətə uğradı.

| | |
|---|---|
| *1918-ci il, 10 avqust* | Sənaye müəssisələrində dövlət rüsumunun tutulması haqqında qanun qəbul edildi. |
| *1918-ci il, 11 avqqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Hərbi mükəlləfiyyət haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 12 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yollar, Poçt-teleqraf, Xarici işlər, Dövlət nəzarəti komitəsinin, Ticarət və Sənaye nazirliklərinin qulluqçularına vermək üçün nazirlərin hər birinə 5 min rubl kredit ayrılması haqqında" qərar (№256) qəbul etdi. |
| *1918-ci il, 12 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Tərxis olunmuş şəxslər yenidən kadr işçi kimi hərbi xidmətə qayıtdıqlarında onlardan tərxis olunarkən aldıqları kompensasiyanın alınması haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 12 avqust* | Azərbaycan Xalq Cümhuriyyəti ərazisində müvəqqəti olaraq ölüm hökmünün tətbiq edilməsi haqqında qanun qəbul edildi. |
| *1918-ci il, 12 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ölüm hökmünün müvəqqəti olaraq bərpa edilməsi haqqında " qərar qəbul etdi. |
| *1918-ci il, 12 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Tiflis Politexnik İnstitutu ilə əməkdaşlığın şərtləri haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 12 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bolşevik anarxiyası dövründə ziyana düşmüş dövlət qulluqçularına nazir tərəfindən kredit açılması və verilməsi ilə əlaqədar" qərar qəbul etdi. |
| *1918-ci il, 12 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bir sıra hallarda cinayət qanunvericiliyi, hətta müstəsna cəza tədbiri - ölüm cəzasının tətbiq edilməsinin müvəqqəti bərpa edilməsi haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 14 avqust* | Gəncə şəhərində "Daxili İşlər Nazirliyinin keçmiş İrəvan quberniyasının tərkibində olmuş, indi Azərbaycanın tərkibində olan qəzalarda icra hakimiyyətinin təşkil edilməsi haqqında" qərar qəbul edildi. |



| | |
|---|---|
| *1918-ci il, 17 avqust* | Gəncə şəhərində "Azərbaycan dəmiryollarını Azərbaycan Respublikasının yuridiksiyasına keçirərək Azərbaycan dəmiryollarının müstəqilliyinin təmin edilməsi haqqında" qərar qəbul edildi. |
| *1918-ci il, 17 avqust* | Azərbaycan ərazisində beş ildən artıq yaşayan İran təbəələrinin hərbi xidmətə cəlb edilmələri haqqında qanun qəbul edildi. |
| *1918-ci il, 20 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Əmtəə mübadiləsi haqqında zəmanətə baxılmasının qaydaları haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 23 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan vətəndaşlığı haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 24 avqust* | Gəncə şəhərində "Nuxa kişi gimnaziyasına maliyyə vəsaiti ayrılması barədə qərar" qəbul edildi. |
| *1918-ci il, 24 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Xalq təhsili nazirinin sərəncamında pedaqoji kursların təşkili üçün 126 min 759 rubl 50 qəpik vəsait ayrılması haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 24 avqust* | Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Xalq məktəblərinin inspeksiyasını təşkil etmək haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 24 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Nuxa kişi gimnaziyasının saxlanması üçün Xalq təhsili nazirinin sərəncamına 21 min rubl kredit açılması haqqında" qərar qəbul etdi. |
| *1918-ci il, 26 avqust* | Gəncə şəhərində "Pensiya haqqında qanun"u hazırlamaq üçün komissiyanın yaradılması haqqında qərar qəbul edildi. |
| *1918-ci il, 26 avqust* | Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Q.Şaxtaxtinskinin Xalq Maarif naziri təyin edilməsi haqqında" qərar qəbul etdi. |

*1918-ci il, 26 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ağdaşa şəhər statusu verilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 26 avqust* — General Talışxanova pensiya təyin edilməsi haqqında qərar qəbul edildi.

*1918-ci il, 27 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan sərhədləri daxilində bütün məhsullarla ticarəti və daxili bazarı dirçəltmək məqsədilə ticarət azadlığının qurulması haqqında" qərar qəbul etdi.

*1918-ci il, 27avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyətində ticarəti və daxili bazarı dirçəltmək məqsədilə azad ticarət haqqında fərman verildi.

*1918-ci il, 27 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycanda quberniya, şəhər və qəza ərzaq müəssisələrinin ləğv edilməsi və təşkilatların mövcud mülkiyyətinin Ticarət və Sənaye Nazirliyinin sərəncamına verilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 27 avqust* — Gəncə şəhərində "Azərbaycandan xarici ölkələrə qoz məhsullarının aparılmasının qaydaları haqqında" qərar qəbul edildi.

*1918-ci il, 27 avqust* — Gəncə şəhərində "Xariclə əmtəə mübadiləsinə aid bütün işlərin Ticarət və Sənaye nazirliyinin tabeliyinə verilməsi haqqında" qərar qəbul edildi.

*1918-ci il, 28 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ali, başlanğıc və orta tədris müəssisələrində tədrisin dövlət-türk dilində aparılması haqqında" qərar (№ 245) qəbul etdi.

*1918-ci il, 28 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xalq maarifinin, orta məktəblərin milliləşdirilməsi haqqında qanun qəbul etdi.

*1918-ci il, avqustun ortaları* — General Denstervil başda olmaqla İngiltərənin min nəfərlik ikinci hərbi dəstəsi Azərbaycana gəldi.



*1918-ci il, 28 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan vətəndaşlığı haqqında" qərar qəbul etdi.

*1918-ci il, 28 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Aşağı və orta ibtidai məktəblərin, o cümlədən orta təhsil müəssisələrinin milliləşdirilməsi haqqında" qərar (№ 245) qəbul etdi.

*1918-ci il, 28 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Azərbaycan dilinin tədrisi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 28 avqust* — Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Xalq maarifinin, orta məktəblərin milliləşdirilməsi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 30 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Sahibsiz balıq vətəgələrinin müsadirə edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 30 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Fövqəladə istintaq komissiyasının xərclərini təmin etmək məqsədi ilə kredit açılması haqqında" qərar qəbul etdi ( №247).

*1918-ci il, 30 avqust* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "5 nəfərdən hər birinə 5 min rubl kredit açmaqla Əmtəə mübadiləsi bürosunun yaradılması haqqında" qərar qəbul etdi ( №248).

*1918-ci il, 2 sentyabr* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Dövlət nəzarət dəftərxanasının təftişi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 3 sentyabr* — Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bakı bonlarının kursunun Türk lirəsinə münasibətdə müəyyən edilməsi haqqında" qərar qəbul etdi ( №249) (1 lirə 40 rubl).

*1918-ci il, 4 sentyabr* — Azərbaycan-türk qoşunlarının Bakının azad edilməsi uğrunda mübarizədə uğurlarını izləyən və onlara qarşı mübarizə apara bilməyəcəyini qəbul edən Denstervilin

komandanlığı altında azsaylı ingilis qoşunları Bakını tərk etdilər.

*1918-ci il, 4 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Gəncə pulları, Rusiyadakı Nikolay, Kerenski, Bakı və Zaqafqaziya bonları, türk lirəsinin məcburi bərabər əsasda vahid kursla mübadilə edilməsi haqqında" qərarnamə qəbul etdi.

*1918-ci il, 7 sentyabr* Gəncə şəhərində "Qeyri-müsəlman şagirdlərə orta təhsil müəssisələrində və ali başlanğıc məktəblərdə din dərslərinin və ana dilinin tədrisi qaydaları haqqında" qərar qəbul edildi.

*1918-ci il, 7 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bakı şəhər məktəblərinin şagirdlərinə borc verilməsinin qaydaları haqqında" qərar qəbul etdi ( №251).

*1918-ci ilin əvvəlləri* Azərbaycan nümayəndələri Sədr-Əzəm Tələt Paşa tərəfindən qəbul edildi və danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Almaniyanın Bakı məsələsində tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə olundu.

*1918-ci il, 7 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Qeyri-müsəlman tələbələrə bütün orta və ali məktəblərdə İlahi Qanunların tədris edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 9 sentyabr* Gəncə şəhərində "Azərbaycan Xalq Cümhuriyyətinin səthində ağ aypara və səkkizguşəli ulduz təsvir olunan, bərabər endə üç rəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət bayrağının təsdiq edilməsi haqqında" qərar qəbul edildi.

*1918-ci il, 9 sentyabr* Gəncə şəhərində "Müəssisələrin işçilərinə dəmiryolu nəqliyyatından istifadə üçün biletlərin verilmə qaydaları haqqında" qərar qəbul edildi (№ 252).

*1918-ci il, 9 sentyabr* Azərbaycan Xalq Cümhuriyyətinin Yollar Nazirliyində işləyənlərə nəqliyyatdan istifadə üçün birdəfəlik biletlərin verilməsi haqqında qərar qəbul edildi.



*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bakı quberniyasında və Bakı şəhər rəhbərliyində inzibati hakimiyyəti təşkil etmək məqsədi ilə ayrılan kredit haqqında" qərar qəbul etdi (№ 257).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "İxrac olunan əmtəələrə qoyulan verginin müəyyən edilməsinə yenidən baxmaqla əlaqədar olaraq komissiyanın təşkil edilməsi haqqında" qərar qəbul etdi ( №257).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Müəssislər Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar qaydaların hazırlanması üçün komissiyanın yaradılması haqqında" qərar qəbul etdi (№259).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində "Fəaliyyət göstərmiş kredit şöbələrinin açılmasının qaydaları haqqında" qərar qəbul edildi (№ 260).

*1918-ci il, 14 sentyabr* Gəncə quberniyasında bolşevik anarxiyası dövründə əhaliyə dəyən ziyanın (ayrıca şəxsləri, müəssisə və təşkilatları oğurluq, talan etmət) aydınlaşdırılması ilə əlaqədar yaradılan müştərək komissiya (tərkibinə Əkinçilik, Daxili işlər, Ədliyyə və Maliyyə nazirlikləri daxil idi) haqqında qərar qəbul edildi (№261).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində nazirlərin müxtəlif işlərlə əlaqədar olaraq ezamiyyədə olmalarının qaydaları haqqında qərar qəbul edildi (№262).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində "Bekzadyanın Ermənistanın Azərbaycanda diplomatik nümayəndəsi olaraq tanınması haqqında" qərar (№263) qəbul edildi.

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Qurban bayramının bayram edilməsinin qaydaları haqqında" qərar qəbul etdi (№253).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Keçmiş Şəhərlər Birliyinin Xalq Səhiyyə Nazirliyinə verilməsi və onların Gəncə quberniyası üzrə olan şöbələrinin ləğv edilməsi

haqqında" qərar qəbul etdi ( №254).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində "Qulluqçulara verilmək üçün bəzi nazirlərə kredit açılması haqqında" qərar qəbul edildi (№256).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində "Dünyəvi məhkəmə təşkilatının bərpa edilməsi ilə əlaqədar kredit ayrılması haqqında" qərar qəbul edildi (№ 255).

*1918-ci il, 14 sentyabr* Gəncə şəhərində hökumətin qərarı ilə Nazirlər Şurasının sədri, Daxili İşlər naziri və Xalq Maarif nazirlərinə Müəssislər Məclisinə seçkilər üzrə komissiya yaratmaq tapşırıldı.

*1918-ci il, 14 sentyabr* Keçmiş anarxiya dövründə Gəncə quberniyası ərazisində alman kolonistlərinə dəyən ziyanın ödənilməsi haqqında qanun qəbul edildi.

*1918-ci il, 14 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti kreditlərin açılması haqqında qanun qəbul etdi.

*1918-ci il, 14 sentyabr* Nazirlərə xidməti ehtiyacla əlaqədar olaraq 1 həftə vaxt verilməsi, bir həftədən artıq olduqda hökumətin icazə verməsi haqqında qanun qəbul edildi.

*1918-ci il, sentyabr* M.B.Məmmədzadənin mart qırğınından bəhs edən "Bakı uğrunda mübarizə" əsəri Azərbaycan Dövlət Teatrında A.Şərifzadənin rejissorluğu ilə tamaşaya qoyulmuşdur.

*1918-ci il, 15 sentyabr* Bakı şəhəri Qafqaz İslam ordusu tərəfindən azad edildi. Sentrokaspi diktaturasının fəaliyyəti sona çatdı.

*1918-ci il, 15 sentyabr* Gəncə şəhərində Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyski Bakının azad olunması münasibətilə Qafqaz İslam ordusu komandanı Nuru Paşaya teleqramında yazmışdı: "Millət Sizə minnətdardır!".

*1918-ci il, 15 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası Gəncədə bələdiyyə mətbəəsində parlament orqanı kimi ilk dəfə nəşrə başlayan "Azərbaycan" qəzetinin türk (Azərbaycan) dilindəki versiyasına Üzeyir Hacıbəyovun



redaktor təyin edilməsi haqqında qərar qəbul etdi.

*1918-ci il, 17 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü və Cümhuriyyətin Bakı dövrü başladı.

*1918-ci il, 17 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı paytaxt elan olundu.

*1918-ci il, 17 sentyabr* F.X.Xoyskinin rəhbərlik etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tam heyətlə Gəncədən Bakıya köçdü.

*1918-ci il, sentyabr* Əhməd bəy Ağayev Azərbaycan Xalq Cümhuriyyəti adından ingilis generalı Tomsonla danışıq aparmaq üçün xüsusi nümayəndə heyətinin tərkibində Ənzəliyə göndərildi.

*1918-ci il, 17 sentyabr* Qazax müəllimlər seminariyasında dərslər başlandı.

*1918-ci il, 18 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Bakı şəhər özünüidarəsinin fəaliyyətinin bərpa edilməsi haqqında" qərar qəbul etdi (№ 264).

*1918-ci il, 22 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı şəhər özünüidarəsi deputatlarının siyahısını təsdiqlədi.

*1918-ci il, 26 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvlərinə mənzil verilməsi haqqında qanun qəbul edildi.

*1918-ci il, 26 sentyabr* Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvlərinin təminatı haqqında qanun qəbul etdi.

*1918-ci il, 28 sentyabr* Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M.Topçubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

*1918-ci il, 1 oktyabr* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il,* Berlin danışıqlarından sonra Ə.M.Topçubaşovu qəbul

| | |
|---|---|
| *2 oktyabr* | edən Tələt Paşa Azərbaycanın mənafeyi naminə nə mümkündürsə, hamısını etdiyini, rus səfiri A.A.İoffenin Azərbaycana münasibətdə qərəzli mövqeyini açıqladı. |
| *1918-ci il, oktyabr* | Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə Azərbaycan istiqlalının qorunması naminə bir sıra görüşlər keçirdi. |
| *1918-ci il, 5 oktyabr* | Azərbaycan hökuməti neft sənayesinin dövlətsizləşdirilməsi haqqında qərar verdi. |
| *1918-ci il, 8 oktyabr* | Zaqafqaziya şeyxülislamı və müftisinin aylıq haqlarının artırılması və dəftərxanalarının yubadılmadan Bakıya köçürülməsi qərara alındı. |
| *1918-ci il, oktyabr* | Azərbaycan Xalq Cümhuriyyəti hökuməti "Bizim hökumətin fikri belədir: kim olursa-olsun, bolşevik, menşevik, denikinçi və i.a., Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir" bəyanatını verdi. |
| *1918-ci il, oktyabr* | Azərbaycan Xalq Cümhuriyyəti elan olunandan sonra general-mayor M.Ağabəyzadə Daxili İşlər naziri əvəzi kimi xidmətə dəvət olundu. |
| *1918-ci il, 16 oktyabr* | "Azərbaycan" qəzetində hərbi xidmətə çağırışın təşkili və gedişi barədə baş məqalə dərc edildi. |
| *1918-ci il, 18 oktyabr* | Türk qoşunları müttəfiqlərin tələbi ilə Gürcüstan ərazisini - Köbər və Sağaranı boşaltdıqda, bu əraziləri erməni qoşunları tutdular. |
| *1918-ci il, 18 oktyabr* | Gürcüstanla Ermənistanın sərhəd zolağından türk qoşunları çəkildikdə həmin yerləri alman qoşunları tutdular. |
| *1918-ci il, 18 oktyabr* | Bakı şəhərində "Türk Ocağı" cəmiyyəti yarandı. |
| *1918-ci il, 21 oktyabr* | Müəssislər Məclisinə seçkilər haqqında qanun hazırlamaq üçün geniş təmsil olunmuş komissiya təsis olundu. |
| *1918-ci il,* | Gürcüstan hökuməti Borçalı əməliyyatı ilə əlaqədar |



| | |
|---|---|
| *24 oktyabr* | olaraq Ermənistana nota verdi. |
| *1918-ci il, 26 oktyabr* | Gəncədə Azərbaycan milli ordusunu kadrlarla təmin edəcək Praporşiklər məktəbinin ilk buraxılışı oldu. |
| *1918-ci il, 29 oktyabr* | Nazirlər Şurasının qərarı ilə Bakıda üç hərbi məktəbin açılması üçün 50 000 rubl vəsait ayrıldı. |
| *1918-ci il, 30 oktyabr* | Türkiyə və Antanta ölkələri arasında Mudros müqaviləsi imzalandı. |
| *1918-ci il, 30 oktyabr* | Mudros barışığının 11-ci maddəsinə görə "Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli", 15-ci maddəyə görə "Türkiyə Zaqafqaziya dəmiryolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməlidir". |
| *1918-ci il, 30 oktyabr* | Azərbaycan Xalq Cümhuriyyətində ticarəti və daxili bazarı dirçəltmək məqsədilə azad ticarət haqqında fərman verildi. |
| *1918-ci il, 30 oktyabr* | Xəzər dənizində ticarət donanmasının fəaliyyəti bərpa olundu. |
| *1918-ci il, 1 noyabr* | "Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin təsis edilməsi haqqında" qərar qəbul edildi. Noyabr ayından Bakını işğal edən ingilis qoşunları və onlara başçılıq edən general Tomson Azərbaycan hökumətinə Bakıda ordu saxlamağı qadağan etdi. |
| *1918-ci il, 1 noyabr - 1919-cu il, aprel* | Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyi ingilislərin maneəçiliyi ilə əlaqədar olaraq Gəncədə fəaliyyət göstərməli oldu. |
| *1918-ci il, 4 noyabr* | Ə.M.Topçubaşov Azərbaycan Xalq Cümhuriyyəti hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. |
| *1918-ci il, 4 noyabr* | Nuru Paşa "Azərbaycan hökuməti ilə burada qalacaq zabitlər üçün əqd edilən müqavilə şəraiti" başlığı altında orduya bir təbliğ yayınlatmışdır. 15 maddədən ibarət bu müqaviləyə görə: "Azərbaycan hizmətinə girəcək zabitlər və məmurlar mezkur (haqqında |

danışılan) hökumət təbəəsi olacaq. Cəza və mükafat xüsuslarında da Azərbaycan qanunlarına tabe olacaqlar".

*1918-ci il, 9 noyabr* — Azərbaycan Xalq Cümhuriyyəti milli bayraq haqqında qanun qəbul etdi.

*1918-ci il, 9 noyabr* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Yaşıl, qırmızı və mavi rənglərdən ibarət, üzərində ağ rəngli yarım aypara və səkkizguşəli ulduz həkk olunmuş bayrağın milli bayraq hesab edilməsi haqqında" qərar qəbul etdi.

*1918-ci il, 9 noyabr* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Üçrəngli dövlət bayrağı haqqında"qanun qəbul etdi.

*1918-ci il, 10 noyabr* — Üç respublika arasında təşkil edilən Tiflis Qafqaz konfransına saxta iddialarla erməni heyəti gəlmədi.

*1918-ci il, 10 noyabr* — Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Osmanlı dövlətinin dünya müharibəsində məğlub dövlətlərdən biri olmasından ehtiyat etməyərək qardaşlıq köməyi göstərdi, çox sayda şəhid vermiş Türkiyə ordusunun respublikanı tərk etməsi şərəfinə ziyafət verdi, hökumət və xalq adından minnətdarlığını bildirdi.

*1918-ci il, 10 noyabr* — I dünya müharibəsində Osmanlı dövlətinin məğlubiyyətini təsdiq edən Mudros sülhünün qərarı və xaricilərin tələbi ilə türk orduları Bakını tərk etdi.

*1918-ci il, 13 noyabr* — Ermənistan şifroqramla Gürcüstandan Qori qəzasının Ahılkələk ərazisinin bir qismini və Borçalı qəzasının Xram çayına qədər olan hissəsini Ermənistana verilməsini tələb etdi.

*1918-ci il, 15 noyabr* — Hərbi nazirin müavini S.S.Mehmandarov Baş Qərargahı və Hərbi nazirliyin dəftərxanasını formalaşdırmaq haqqında 2 nömrəli əmr imzaladı.

*1918-ci il, 16 noyabr* — Azərbaycan Xalq Cümhuriyyətinin iclasında Azərbaycan Milli Şurasının bərpası haqqında qərar qəbul edildi. Bu iclasda F.X.Xoyskinin müraciəti ilə Milli Şura ölkədə Müəssislər Məclisini çağırmaq üçün görülməli olan işləri öz öhdəsinə götürdü.



*1918-ci il, 16 noyabr* — Qori seminariyasının Azərbaycan bölməsi Qazaxa köçürüldü.

*1918-ci il, 16 noyabr* — Azərbaycan Milli Şurası Bakıda yenidən fəaliyyətə başladı. Azərbaycan Milli Şurasının 1-ci iclasında Azərbaycanın ali qanunverici orqanının yaradılması haqqında qanun qəbul edildi.

*1918-ci il, 17 noyabr* — General Tomsonun başçılıq etdiyi ingilis qoşunları Mudros müqaviləsinə əsasən iki aylıq fasilədən sonra yenidən Bakıya qayıtdılar. Bu, Türkiyə və onun müttəfiqlərinin Birinci dünya müharibəsində tam məğlubiyyəti ilə bağlı idi.

*1918-ci il, 17 noyabr* — General Biçeraxov təyyarələrdən "Rusiya vətəndaşlarına!" adlı intibahnamələr səpir, xristian əhalini Bakının "Ana vətənə qovuşması" münasibətilə təxribatcasına "təbrik edirdi." General Biçeraxov daha irəli gedərək kağız üzərində xəyali, qurama "Qafqaz-Xəzər" hökuməti yaratdı, Bakıda çevriliş təşkil etmək üçün geniş fəaliyyətə başladı.

*1918-ci il, 17 noyabr* — Öz fəaliyyətini yenidən bərpa etmiş Azərbaycan Milli Şurası dünya dövlətlərinə müraciət edərək müttəfiqlərin gəlişinin ölkənin istiqlaliyyətini ciddi təhlükə qarşısında qoyduğunu bildirdi.

*1918-ci il, 17 noyabr* — Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurası Bakıda 2-ci iclasında "Azərbaycanda müvəqqəti ali qanunverici orqanın - təkpalatalı Məclisi-Məbusanın (Parlamentin) yaradılması haqqında" qanun qəbul etdi.

*1918-ci il, noyabr* — Rus və erməni Milli Şuralarının cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra, general V.Tomson bildirdi ki, onun "Bakıda ən bacarıqlı adamlardan biri" saydığı F.X.Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

*1918-ci il, noyabr* — Balkanlarda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan Xalq Cümhuriyyəti

hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır.

*1918-ci il, 19 noyabr* Milli Şuranın "Azərbaycan Məclisi-Məbusanının (Parlamentinin) təsisi haqqında qanun"una əsasən, Teymur xan Makinski seçkisiz Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edildi.

*1918-ci il, 19 noyabr* Milli Şuranın M.Ə.Rəsulzadənin sədrliyi ilə keçən iclasında Azərbaycan Milli Şurasının Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etməsi haqqında qərar qəbul edildi. Qərara əsasən, qeyd edildi ki, Azərbaycanın əhalisi yalnız azərbaycanlılardan ibarət olmadığı üçün Azərbaycan Milli Şurasında qeyri millətlər, daha doğrusu, Azərbaycan ərazisində yaşayan bütün millətlər parlamentdə təmsil olunmalıdır. Azərbaycan Milli Şurasının iclasının qərarına əsasən, hələ 1917-ci ilin sonlarında Ümum-rusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman nümayəndə birbaşa yeni yaradılacaq parlamentin tərkibinə daxil edildi. Müsəlmanlardan qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli idi.

*1918-ci il, noyabr* F.X.Xoyski ilə danışıqlar zamanı C.Miln bildirdi ki, Azərbaycan dairəsində İngiltərə hökuməti Azərbaycan hökumətini - Cümhuriyyətini tanıyır və hökumətə müttəfiqlər komandanlığı hər barədə kömək edəcək.

*1918-ci il, noyabr* İngiltərənin səlahiyyətli nümayəndəsi C.Milnə görə, ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklər.

*1918-ci il, 19 noyabr* Azərbaycan Milli Şurası "Azərbaycan Məclisi - Məbusanının təsisi haqqında" qanun qəbul etdi.

*1918-ci il, 19 noyabr* Azərbaycan Milli Şurası "Yeni Parlamentin formalaşdırılması 1918-ci il dekabrın 3-də başa çatdırılmalıdır" qərarını verdi.

*1918-ci il, 19 noyabr* Azərbaycan Milli Şurası "Hər 24 min nəfərdən bir nümayəndə hesabı ilə müsəlmanlar 80, ermənilər 21, ruslar 10, almanlar 1, yəhudilər 1 nümayəndə



olmalıdır" qərarını verdi.

*1918-ci il, 19 noyabr* Azərbaycan Milli Şurası "Azərbaycan parlamentini 120 nəfərdən ibarət formalaşdırmaq haqqında" qərar qəbul etdi.

*1918-ci il, 19 noyabr* Bakıda və ətraf yerlərdəki mart soyqırımından hələ altı ay keçməsinə baxmayaraq, Azərbaycan parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakına imkan yaradılması qərarı verildi.

*1918-ci il, 20 noyabr* Azərbaycan Cümhuriyyəti parlamenti haqqında qanun qəbul edildi.

*1918-ci il, 25 noyabr* Azərbaycan Milli Şurası erməni və rus milli Şuralarına öz nümayəndələrini parlamentə göndərmək təklifi ilə müraciət etdi.

*1918-ci il, 29 noyabr* Məmməd Əmin Rəsulzadə yeni parlamentin çağırılması ilə bağlı olaraq Azərbaycan və rus dillərində xalqa etdiyi müraciətdə dini məsələdəki demokratizmin mahiyyətini açıqlayaraq bildirmişdir: "Bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub".

*1918-ci il, 28 noyabr* Şəfi Rüstəmbəyli "Azərbaycan" qəzetinin rus dilində nəşrinin redaktoru oldu.

*1918-ci il, 29 noyabr* Xəzər donanmasının ticarət gəmiləri ingilis komandanlığının ixtiyarına keçdi. "İngilis dəniz nəqliyyatı" yarandı.

*1918-ci il, 29 noyabr* Azərbaycan Milli Şurası adından onun sədri M.Ə. Rəsulzadənin imzası ilə Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" müraciətnamə dərc edildi.

*1918-ci il, noyabr-dekabr* Gürcü ordusu Tiflis quberniyasında gürcülər, azərbaycanlılar və ermənilərin yaşadığı Borçalı və Akalkalaki qəzalarını tutdu.

*1918-ci il, noyabr* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ABŞ prezidenti Vudro Vilsona müraciət edərək Müttəfiq-

lərin Bakıya gəlişinin ölkənin istiqlaliyyətini ciddi təhlükə qarşısında qoyduğunu bildirdi.

*1918-ci il, noyabr* Məhəmməd Nasir Qərbi Azərbaycanda daşnakların təqibindən yaxa qurtararaq Gəncəyə gəldi.

*1918-ci il, dekabr* Məhəmməd Nasirin yazdığı "Bədbəxt ailə" pyesi Gəncədə tamaşaya qoyuldu.

*1918-ci il, 1 dekabr* Milli Şuranın qərarına əsasən, hər sıravi əsgər ayda 50 rubl, yefreytor 60 rubl, kiçik unter-zabit 70 rubl, böyük unter-zabit 90 rubl, baş unter-zabit isə 120 rubl alacağı müəyyən edildi. Eləcə də hərbçilərə pulsuz ərzaqla da yardım olunacağı bildirildi.

*1918-ci il, 3 dekabr* Parlamentin açılışı dekabrın 3-nə təyin olunsa da, rus və erməni Milli Şuraları müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etdilər. General Tomsonla olan razılaşmaya əsasən, parlamentin ilk iclasının açılışı dekabrın 7-ə keçirilməsi haqqında qərar qəbul edildi.

*1918-ci il, 5 dekabr* Ermənistanın daşnak hökuməti Axalkalaki bölgəsinə atlılardan ibarət eskadron və 4-cü ordu birliklərini göndərdi.

*1918-ci il, dekabrın əvvəlləri* Rus Milli Şurasının bir qrup üzvü onun tərkibindən çıxıb, "Rus-slavyan cəmiyyəti" adlı təşkilat yaratdılar.

*1918-ci il, 5 dekabr* Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Gəncə dairə məhkəməsi yanında hərbi məhkəmənin təşkili haqqında" qərar qəbul etdi.

*1918-ci il, 6 dekabr* Türk ordusunun Azərbaycan və Ermənistandan evakuasiyası başa çatdı.

*1918-ci il, 7 dekabr* Nikolayev (indiki İstiqlaliyyət) küçəsində yerləşən Z.Tağıyevin tikdirdiyi keçmiş qız məktəbinin binasında saat 13:25-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin açılışı baş tutdu və Müsəlman Şərqində ilk parlamentin birinci iclası keçirildi. Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadə açaraq böyük təbrik nitqi söylədi.



*1918-ci il, 7 dekabr* Azərbaycan parlamentində Parisə getmək üçün seçilən nümayəndə heyətinin tərkibi haqqında qərar qəbul edildi.

*1918-ci il, 7 dekabr* Cümhuriyyət xadimlərinin, bütün xalqımızın ilk Azərbaycan parlamentində ermənilərə 21, ruslara isə 10 yer ayırmasına baxmayaraq, onlar düşmən mövqeyində dayanaraq parlamentin açılışında və bir neçə ay iclaslarında iştirak etmədilər.

*1918-ci il, 7 dekabr* Gürcüstan rəsmi olaraq Ermənistana müharibə elan etdi.

*1918-ci il, 9 dekabr* Axalkalaki və Borçalı qəzalarında Gürcüstan və Ermənistan hərbi birlikləri arasında müharibə başlandı.

*1918-ci il, 10 dekabr* Ermənilər tərəfindən Allahverdi və Sanain stansiyaları arasında dəmiryol xətti söküldü.

*1918-ci il, 10 dekabr* Gürcüstanla Ermənistan arasında müharibənin başlanması ilə əlaqədar fövqəladə parlament iclası çağırıldı.

*1918-ci il, 13 dekabr* Milli Azərbaycan korpusunun komandiri general Əliağa Şıxlinski Gəncədən göndərdiyi "Məlumat"ında yeni Azərbaycan ordusunun layihəsini hazırlamışdı.

*1918-ci il, 12-14 dekabr* ABŞ, İngiltərə və Gürcüstan arasında baş tutan üçtərəfli danışıqlarda ingilis ordusunun Gürcüstana göndərilməsi haqqında razılaşma əldə edildi.

*1918-ci il, 12-14 dekabr* Erməni ordusu Gürcüstana - Sanain şəhərinə hücum etdi.

*1918-ci il, 15 dekabr* İngilis ordusu Poti şəhərinə desant çıxardı.

*1918-ci il, 16 dekabr* Gürcüstan hərbi nazirliyi Sadaxlını son damla qana qədər qorumağı əmr etdi.

*1918-ci il, 18-31 dekabr* Gürcüstanla Ermənistan arasında hərbi əməliyyatlar davam edirdi.

*1918-ci il,* Nəsib bəy Yusifbəylinin rəhbərliyi ilə Azərbaycan Xalq

| | |
|---|---|
| *24 dekabr* | Cümhuriyyətinin beşinci hökumət kabineti yaradıldı. |
| *1918-ci il, 25 dekabr* | S.S.Mehmandarov Milli Ordunun formalaşdırılması üçün Azərbaycan vətəndaşlarına müraciət etdi. Müraciətdə deyilirdi ki, bu ilin yazında Azərbaycan müstəqil dövlət kimi ayrılmışdır. Bu müddətdə ölkəmizdə hakimiyyətdə olan bütün insanların qüvvəsi ölkədə anarxiyaya yol verilməməsinə, qanunsuzluqların aradan qaldırılmasına yönəlmişdir. Bu məqsədlə digər hökumət tədbirləri kimi, özümüzün silahlı qüvvələrimizin, başqa sözlə, Azərbaycan ordusunun yaradılması qərara alınmışdır. |
| *1918-ci il, 25 dekabr* | Azərbaycan Xalq Cümhuriyyəti "Əfvetmə haqqında və əfvetmə komissiyasının yaradılması haqqında" qanun qəbul etdi. |
| *1918-ci il, 25 dekabr* | İngilis orduları Tbilisiyə gəldi. |
| *1918-ci il, 26 dekabr* | F.Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentində öz proqramı ilə çıxış etdi və yeni hökumətin tərkibini təsdiq olunmağa təqdim etdi. |
| *1918-ci il, 26 dekabr* | Parlament hökumətin proqramını qəbul etdi. F.Xoyskinin təşkil etdiyi hökumətə etimad göstərdi və F.Xoyskinin başçılığı ilə 3-cü hökumət kabineti təşkil edildi. |
| *1918-ci il, 26 dekabr* | İngiltərənin Bakıdakı general-qubernatoru general Tomson parlamentin etimad göstərdiyi hökumət kabinetini tanıdığını və onu Azərbaycanda yeganə qanuni hökumət hesab etdiyini bildirdi. |
| *1918-ci il, 26 dekabr* | Gürcüstan və Azərbaycan arasında tranzit müqaviləsi bağlandı. |
| *1918-ci il, 26 dekabr* | Parlamentə seçilməsinə baxmayaraq Bakıda fəaliyyət göstərən Rus Milli Şurası Azərbaycanın öz müstəqilliyini elan etməsinin "Vahid və bölünməz Rusiya"nın parçalanmasına yol açdığını bildirərək "Azərbaycanın Rusiyadan ayrılması faktını tanımadı" və Azərbaycan parlamentini boykot etmək barədə qərar qəbul etdi. |



| | |
|---|---|
| *1918-ci il, 26 dekabr* | Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən ermənilər də rus Milli Şurasını müdafiə etdilər və iki aydan çox müddət ərzində Parlamentin iclaslarında iştirak etmədilər. Parlamentə qatıldıqdan sonra isə həmişə Azərbaycan dövlətçiliyinə xəyanət mövqeyindən çıxış etdilər. |
| *1918-ci il, 26 dekabr* | Birinci dünya müharibəsində məğlub olmuş Almaniyanın ordusunun Gürcüstandan evakuasiyası başa çatdı. |
| *1918-ci il, 27 dekabr* | Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri Səməd bəy Mehmandarov ordunun dilinin Azərbaycan-türk dili olduğu barədə 34 saylı əmr verdi. Nazir orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlərə onu öyrənmək üçün bir ay vaxt müəyyənləşdirdi. |
| *1918-ci il, 28 dekabr* | Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri Ə.M.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul edildi. |
| *1918-ci il, 28 dekabr* | General V.Tomsonun Rus Milli Şurasına Azərbaycan hökumətini tanımaq təklifi bu qurum tərəfindən qəbul edilmədi. |
| *1918-ci il, 28 dekabr* | Biçeraxovun dəstəsinin dövlət çevrilişi cəhdinin üstü açıldıqdan sonra Azərbaycan hökumətinin tələbi ilə general V.Tomson "Qafqaz-Xəzər" hökumətini qanundan kənar elan edib, 48 saat müddətində onun üzvlərini Bakıdan uzaqlaşdırdı, daha sonra isə erməni hərbi hissələri tərksilah edilib buraxıldı. |
| *1918-ci il, 28 dekabr* | Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti Ə.M.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etdi. |
| *1918-ci il, dekabr* | Cənubi Qafqaz, xüsusən Azərbaycan məsələsi Britaniya hökumətinin iclaslarında bir neçə dəfə müzakirə edilmişdi. Lord Kerzona görə, Cənubi Qafqazda sabitlik lazımdır, əks təqdirdə, "anarxiya, qarma-qarışıqlıq, yaxud bolşevizm" bu regionda ingilis siyasətinə maneçilik törədə bilərdi. |

| | |
|---|---|
| *1918-ci il, dekabr* | Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətində qeyri-müsəlman bolşeviklər vasitəsi ilə Bakıda anarxiya, qarmaqarışıqlıq və bolşevizm tərəfdarları olduğu illuziyasını göstərmək üçün qeyri-müsəlman əhalinin ümumi siyasi tətil keçirməsinə nail oldu. Tətildə 25-dən çox müəssisənin 12 minə qədər fəhləsi iştirak edirdi. Azərbaycan bolşeviklərinin sosial bazasını əsasən qeyri-müsəlman əhali təşkil edirdi. |
| *1918-ci il, 28 dekabr* | Azərbaycan Cümhuriyyəti hökumətinin tanınması haqqında Bakı general-qubernatoru Tomsonun deklarasiyası qəbul edildi. |
| *1918-ci il, dekabr* | Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər.<br>Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası vardır. |
| *1918-ci il, 28 dekabr* | Əhməd bəy Ağayev Paris sülh konfransında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin tərkibinə daxil edilmiş, lakin İstanbulda "türk jurnalisti və Türkiyə parlamentinin deputatı" kimi təqdim olunaraq ingilislər tərəfindən həbs edilmişdir. Ə.Ağayev "İttihad və tərəqqi" partiyalarının rəhbərləri ilə birlikdə Malta adasına 26 aylıq sürgün olunmuşdu. |
| *1918-ci il, 28 dekabr* | Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə tanınmasını təmin etmək üçün parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə Paris Sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul edildi. |
| *1918-ci il, 29 dekabr* | Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə Süleyman bəy Əfəndiyevə general-mayor rütbəsi verildi. |
| *1918-ci il, 31 dekabr* | Almaniya ordusunun Gürcüstandan evakuasiyası başa çatdı. |
| *1918-ci il, 31 dekabr* | Tbilisidə Gürcüstan və Ermənistan arasında sülh müqaviləsi imzalandı. |
| *1919-cu il,* | Hökumətin torpaq islahatını yubatmasından bolşeviklər |



| | |
|---|---|
| *yanvarın əvvəlləri* | məharətlə istifadə etdilər. Bir sıra qəzalarda bolşeviklərin rəhbərliyi ilə kəndli çıxışları başlandı. Bunlardan ən güclüsü Gəncədə baş verdi. |
| *1919-cu il, 2 yanvar* | Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Ermənistanın xarici işlər nazirinə göndərdiyi teleqramda Ermənistanın etirazını əsassız sayaraq bildirdi ki, Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzaları Azərbaycanın ayrılmaz hissələridir. |
| *1919-cu il, yanvar* | İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi. |
| *1919-cu il, yanvar* | İngiltərənin Qafqaz üzrə səlahiyyətli nümayəndəsi general Tomson Amerika nümayəndəsi polkovnik Haskelin təqdimatı ilə Qarabağ və Zəngəzuru irəlidə olacaq Paris Sülh konfransının qərarına qədər Azərbaycanın tərkibində olmasını tanıdı. |
| *1919-cu il, 3 yanvar* | Parlament qanunverici və icraedici hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq parlament üzvünün dövlət orqanlarında işləməsinin məqbul sayılmaması qərarını verdi. |
| *1919-cu il, 3 yanvar* | Parlamentin rəsmi dili qərara əsasən Azərbaycan türkcəsi elan olundu, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edildi. |
| *1919-cu il, 4 yanvar* | İrəvan quberniyası Həmyerlilər Təşkilatının sədri Teymur bəy Makinskinin göndərdiyi məlumatda deyilirdi ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyun ayına - yəni türk qoşunlarının gəlişinədək İrəvan quberniyasında erməni hərbi dəstələri tərəfindən 200-dən çox müsəlman yaşayış məntəqəsi dağıdılmış, qarət edilmiş, yandırılmış, əhalisinin bir qismi öldürülmüş, bir qismi də dağlara qaçaraq aclıqdan və soyuqdan məhv olmuşdur. |
| *1919-cu il, 8 yanvar* | Beynəlxalq Versal sülh konfransında iştirak etmək üçün Azərbaycan diplomatik missiyasının tərkibi elan olundu. |

*1919-cu il, 15 yanvar* — Azərbaycan Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin nəzdində Baş Qərargah təsis edildi. Qərargahın nəzdində növbətçi general idarəsi, ümumi şöbə, ordunu atla təmin edən şöbə, nəşriyyat şöbəsi, hərbi xidmətdə olmayanlar şöbəsi, xəzinə, istehsalat işləri şöbəsi, qərargahın poçt stolu və onun jurnalist şöbəsi, yerli briqadalar idarəsi, yerli briqadalara tabe olan zabit qərargahı, digər idarə və şöbələr yaradılmışdır.

*1919-cu il, 15 yanvar* — Bakıda İrəvan quberniyasında yaşayan azərbaycanlıların fövqəladə iclası keçirilmiş və İrəvan quberniyası Müsəlmanlarının Həmyerlilər Cəmiyyəti təsis edilmişdir.

*1919-cu il, 15 yanvar* — Azərbaycan Xalq Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahı təşkil edildi.

*1919-cu il, 15 yanvar* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası iclasında Şuşa, Cavanşir və Cəbrayıl qəzaları üzrə general-qubernatorluq yaradılması qərara alındı.

*1919-cu il, 15 yanvar* — Müvəqqəti olaraq yaradılmış general-qubernatorluğa fövqəladə səlahiyyətlər verildi və Xosrov bəy Sultanov Qarabağ general-qubernatoru vəzifəsinə təyin olundu.

*1919-cu il, 15 yanvar* — Azərbaycan hökuməti Nazirlər Şurası iclasında "Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar bölgələrinin müvəqqəti general-qubernatorluğu təşkil olundu və Bəhram xan Naxçıvanski general-qubernator, Kərim xan İrəvanski və Hacı Mehdi Bağırov isə onun köməkçiləri təyin olundu.

*1919-cu il, 17 yanvar* — İrəvan quberniyası Həmyerlilər Təşkilatının iclasında Azərbaycan hökumətinə müraciət qəbul olunmuşdur. Təşkilatın sədri Teymur xan Makinskinin imzası ilə göndərilən müraciətdə qeyd edilirdi ki, türk qoşunlarının İrəvan quberniyasından çəkilməsindən sonra erməni silahlı qüvvələri Sürməli qəzasını bütünlüklə və Eçmiədzin qəzasının müsəlmanlar yaşayan hissəsini tamamilə ələ keçirmiş, üstəlik, Şərur və Naxçıvan qəzalarını ələ keçirmək üçün hücuma keçmişlər. Məhv olmağa və ölümə məhkum edilmiş İrəvan quberniyası müsəlmanlarını xilas etmək üçün müttəfiqlərin



komandanlığının iştirakı ilə Tiflisdə Azərbaycan və Ermənistan nümayəndələrinin xüsusi konfransının təşkil olunması təklif edilirdi.

*1919-cu il, 18 yanvar* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ailədə tək olanların və xalq müəllimlərinin hərbi mükəlləfiyyətdən azad olunması haqqında" qərar qəbul etdi.

*1919-cu il, 20 yanvar* — Azərbaycan Xalq Cümhuriyyətindən Paris konfransına gedən nümayəndə heyəti İstanbula gəldi. Heyət Fransa hökumətindən üç ay yarım icazə gözləməli oldu.

*1919-cu il, 21 yanvar* — Azərbaycan Xalq Cümhuriyyətinin Əmək nazirliyi fəaliyyətə başladı.

*1919-cu il, 27 yanvar* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Ələt stansiyasında baş verən hadisələr barədə" qərarında beynəlxalq zəmin üzərində ölümlə, quldurluqla, qadınlar üzərində zorakılıqla müşayiət edilən hərəkətləri törədən şəxslər barəsində cinayət işlərinin hərbi səhra məhkəmələrinə verilməsi və onlar barəsində ölüm cəzasının da tətbiq edilməsi barədə" göstəriş verdi.

*1919-cu il, 29 yanvar* — Məhəmməd xan Təkinski Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistanda diplomatik nümayəndəsi təyin edildi.

*1919-cu il, 4 fevral* — Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin Aqrar Komissiyası təşkil edildi.

*1919-cu il, 9 fevral* — Milli Ordu rəhbərliyinin əmrində "Bir sıra rus zabitlərinin xidməti vəzifələrinin icrasına laqeyd yanaşmaları, spirtli içkilərdən sui-istifadəyə yol verdikləri" qeyd edilir və hərbi hissələrin komandirlərinə belə zabitlərin xidmətdən azad edilmələri üçün təcili təqdimat verməleri tələb edilirdi.

*1919-cu il, 10 fevral* — Azərbaycan XİN-nin Ermənistan XİN-ə göndərdiyi notada bildirilirdi ki, başda erməni zabiti olmaqla Ermənistan silahlı dəstələri Göyçə gölü ətrafında sərhədi keçərək Azərbaycan ərazisinə daxil olmuş, Qızılvəng, Subatan, Zağalı, Şahab və s. müsəlman kəndləri viran edilmiş, həmin kəndlərin kişilərinin bir

hissəsi öldürülmüş, bir hissəsi isə qaçaraq canını qurtarmışdır.

*1919-cu il, 16 fevral* Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi (Müdafiə) naziri, artilleriya generalı Səməd bəy Mehmandarov Azərbaycan ordusunda xidmət keçən digər millətlərin nümayəndələrindən olan zabitlərə bir ay müddətində milli dildə komanda terminlərini öyrənmələri barədə xüsusi əmr verdi.

*1919-cu il, 22 fevral* M.Mirbağırovun başçılıq etdiyi nümayəndə heyəti Naxçıvanda ingilis general-qubernatoru ilə görüşərək, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Naxçıvanla bağlı mövqeyini onun diqqətinə çatdırdı.

*1919-cu il, 25 fevral* Azərbaycan Xalq Cümhuriyyətinin F.Xoyskinin təşkil etdiyi III hökumət kabineti istefa etdi.

*1919-cu il, 28 fevral* Azərbaycan hökumətinin qərarı ilə Naxçıvan general-qubernatorluğu (arxiv sənədlərində "Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu", habelə "Naxçıvan, Ordubad, Şərur-Dərələyəz və Vedibasar rayonlarının müvəqqəti general-qubernatorluğu" adlanır) yaradıldı. Bəhram xan Naxçıvanın general-qubernatoru təyin edildi.

*1919-cu il, 2 mart* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycan Teleqraf Agentliyinin yaradılması (AzərTAC) haqqında yeni qərar qəbul etdi.

*1919-cu il, 3 mart* Erməni təhlükəsinin tüğyan etdiyi bir dövrdə Gəncəyə gəlmiş və özünümüdafiə könüllü dəstələrinin təşkil edilməsində müstəsna rol oynamış general Süleyman bəy Əfəndiyev vəfat etdi.

*1919-cu il, 3 mart* Hökumətin qərarı ilə müstəqil dövlətin müstəqil informasiya orqanı yaradıldı.

*1919-cu il, mart* Azərbaycan Xalq Cümhuriyyəti hökuməti general Tomsona etiraz notasında bəyan edirdi: "Dağlılar üçün ağır bir zamanda Azərbaycan hökuməti onlara lazımi köməklik göstərməyi özünə borc sayır".

*1919-cu il, mart-iyul* Bölgədəki ingilis komandanlığının razılığı ilə Naxçıvan bölgəsində erməni idarəçiliyi yaradıldı. Naxçıvan əhalisi bu qərara qəti etirazını bildirdi.



*1919-cu il, 10 mart* Qəbul edilmiş qərara əsasən yəhudi məktəblərinə 25000 rubl maliyyə yardımı göstərildi.

*1919-cu il, aprel* Qarabağda olan erməni-daşnak təşkilatları müvəqqəti siyasi dövr üçün yaradılmış general-qubernatorluğa etiraz olaraq keçirdikləri beşinci qurultayda Azərbaycana qarşı münasibətlərini müzakirə edib, daşnak ünsürlərin təzyiqi altında Azərbaycan höku-mətilə əlaqəsi olan hər hansı bir dövlət idarəçiliyini qəbul etməyəcəkləri barədə qərar verdilər.

*1919-cu il, 5 aprel* Azərbaycan Xalq Cümhuriyyəti Hərbi nazirliyi Bakıya köçürüldü.

*1919-cu il, 14 aprel* Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti N.Yusifbəyli başda olmaqla IV hökumət kabinetini təsdiq etdi.

*1919-cu il, 14 aprel* Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti "Hərbi dairə və alaylar üzrə hərbi məhkəmələrin yaradılması haqqında" qanun qəbul etdi.

*1919-cu il, 24–25 aprel* Tiflisdə çağırılan Qafqaz konfransında Borçalı məsələsi müzakirə olundu.

*1919-cu il, aprel* İngilislər Paris sülh konfransının şərtlərinə uyğun olaraq, Qafqazı tərk etməyə başladılar, bu proses avqustun ortalarında başa çatdı.

*1919-cu il, aprel* Bakıda ingilis general-qubernatorluğunun ləğvi ilə əlaqədar Gəncədə təşkil olunmuş ilk Azərbaycan alayı, Hərbi nazirlik, ordu qərargahı və qoşun hissələri paytaxta daxil oldu və xalq onları təntənə ilə qarşıladı.

*1919-cu il, 22 aprel* Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri Fransanın vizanı gecikdirməsi ilə əlaqədar olaraq 3 ay İstanbulda gözlədikdən sonra ingilislərin köməyi ilə Parisə yola düşə bildilər və may ayında Parisə çatdılar.

*1919-cu il, 25 aprel* Tiflisdə Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə Qafqaz

konfransı işə başladı. Konfransda siyasi, iqtisadi və maliyyə məsələləri, eləcə də sərhəd problemləri müzakirə olundu. Konfransın gedişində bu ölkələr arasında ərazi-sərhəd məsələləri ilə bağlı kəskin ziddiyyətlərin mövcudluğu məlum oldu. Keçmiş çar generalı Denikinin könüllü ordusunun Dağıstana hücumu ilə konfrans öz işini dayandırmağa məcbur oldu.

*1919-cu il, 9 may* — Parisə gəlib çıxan Azərbaycan nümayəndə heyəti burada olduqca mürəkkəb, yeni yaranan dövlətlər üçün xüsusilə əlverişsiz bir şəraitlə üzləşdi.

*1919-cu il, 3 may* — Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskinin Azərbaycan hökumətinin başçısına göndərdiyi teleqramda Ermənistan ordusunun Naxçıvana yeridilməsi ilə bağlı Azərbaycan hökuməti adından Ermənistan xarici işlər nazirinə etiraz məktubu göndərdiyini bildirdi.

*1919-cu il, 15 may* — M.Təkinski Azərbaycan hökumətinin başçısına göndərdiyi şifrəli teleqramda bildirirdi ki, erməni polkları Naxçıvan üzərinə hücuma keçmişlər. Ermənistana təzyiq etmək üçün M.Təkinski təklif edirdi ki, qoşunları Ermənistanla sərhəddə cəmləşdirmək lazımdır.

*1919-cu il, 26 may* — Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin "Hərbi idarənin təşkil edilməsi haqqında" qanununa əsasən hərbi idarə təşkil edildi.

*1919-cu il, 26 may* — Hərbi idarələrə, xidmətdən yayınan şəxslər barədə polis orqanlarını xəbərdar etmək və belə şəxsləri intizam məsuliyyətinə cəlb etmək hüququ verən qanun qəbul edildi. Yerli hərbi idarələr ordunu atlarla, döyüş arabaları və digər ləvazimatla təmin etməkdən ötrü əhalidə olan at və digər ləvazimatın qeydiyyatını aparmaq səlahiyyətinə malik idi.

*1919-cu il, may* — Ermənilər ərazi-sərhəd məsələsinə daha çox əhəmiyyət verir və Qafqazda konfederasiya ideyası əleyhinə təbliğat aparır, Qafqazdakı vəziyyət barədə Avropa və ABŞ ictimaiyyətində yanlış təsəvvür yaradırdılar.

*1919-cu il, may* — Azərbaycan nümayəndə heyətinin ən əhəmiyyətli



təbliğat işlərindən biri "Paris Sülh konfransına Qafqaz Azərbaycanı sülh nümayəndəliyinin tələbləri" adlı kitabın hazırlanması idi. Kitab "Sülh konfransı Azərbaycanın müstəqilliyini tanısın, nümayəndə heyəti sülh konfransının işinə cəlb olunsun və Azərbaycan Respublikası Millətlər Liqasının üzvlüyünə qəbul edilsin!" tələblərini irəli sürürdü.

*1919-cu il, 28 may* — Ermənistan parlamenti Türkiyənin 6 vilayətinin Ermənistana ilhaq edilməklə "Birləşmiş Ermənistan" dövlətinin qurulması haqqında akt qəbul etdi.

*1919-cu il, 28 may* — Azərbaycan nümayəndə heyətini ABŞ prezidenti V.Vilson qəbul etdi. Vilsona təqdim edilmiş memorandumda Azərbaycan Respublikasının yaranma tarixi, onun bir ildə azadlıq yolunda verdiyi qurbanlardan bəhs olunurdu.

Memorandumda göstərilirdi ki, bu mübarizədə Azərbaycanın iki şəhəri və 500 kəndi dağıdılmış, 150 min nəfərə qədər sakini qurban getmişdir. İrəvan quberniyasında qısa müddət ərzində 200 müsəlman kəndi yandırılmış və 200 min nəfər müsəlman evsiz-eşiksiz qalmışdır.

ABŞ prezidentindən Azərbaycan istiqlaliyyətinin tanınması, Vilson prinsiplərinin Azərbaycana aid edilməsi, Azərbaycanın Millətlər Cəmiyyətinə qəbul edilməsi, ABŞ-ın Azərbaycana hərbi sahədə yardım göstərməsi, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi məsələlərində Azərbaycan nümayəndə heyətinə kömək göstərilməsi xahiş olunurdu.

*1919-cu il, 28 may* — Parlamentin Azərbaycanın müstəqilliyinin birilliyi münasibətilə yubiley iclası keçirildi.

*1919-cu il, 28 may* — Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının birinci ildönümü - Milli İstiqlaliyyət Günü ölkə vətəndaşları tərəfindən təntənə ilə bayram edildi.

*1919-cu il, 29 may* — Cənubi Qafqaz respublikalarının ərazi mübahisələrini ləğv etmək məsələsi ilə əlaqədar Tiflis konfransı keçirilmişdir.

*1919-cu il,* — Hökumət Arbitraj orqanının yaradılması haqqında qərar

*31 may* qəbul etdi.

*1919-cu il, yaz* "Vahid və bölünməz Rusiya" sərhədlərini bərpa etmək iddiasında olan Denikin Dağıstan Dağlılar Respublikasına soxularaq Dərbəndi işğal etdi. Çar generalının Azərbaycana təcavüzkar niyyətdə olduğu aşkara çıxdı. Parlamentin fövqəladə iclasında qəbul olunmuş qərara əsasən, sərhədlərin təhlükəsizliyini təmin etmək məqsədilə Dövlət Müdafiə Komitəsi yaradıldı və bütün hakimiyyət onun ixtiyarına verildi.

*1919-cu il, 4 iyun* Azərbaycan xarici işlər nazirinin müavini A.Ziyadxanov Ermənistandakı diplomatik nümayəndə M.Təkinskiyə göndərdiyi teleqramda Fövqəladə Parlament İstintaq Komissiyası yaratmaq üçün İrəvan quberniyasında ermənilərin törətdikləri qırğınlar barədə İrəvan Milli Şurası ilə Azərbaycan İşlər İdarəsinə birlikdə məlumat toplamağı tapşırmışdı. Teleqramda bu məqsədlə parlamentin 10 milyon vəsait ayırmaq istəyi qeyd olunmuşdu.

*1919-cu il, 6 iyun* Əkinçilik Nazirliyinin nəzdində "Aqrar islahatlar" şöbəsi təsis edildi və ona tapşırıldı ki, bir ay müddətinə aqrar islahatlar layihəsini hazırlayıb Nazirlər Şurasına təqdim etsin.

*1919-cu il, 9 iyun* Azərbaycan hökumətinin qərarı ilə dövlətin müdafiəsini təşkil etməkdən ötrü xüsusi orqan sayılan Dövlət Müdafiə Komitəsi təsis edildi. Dövlət Müdafiə Komitəsinə 5 nəfər – Nazirlər Şurasının sədri, Hərbi nazir, Yollar naziri, Xarici İşlər naziri və Ədliyyə naziri daxil edildi.

*1919-cu il, 10 iyun* Azərbaycan XİN Ermənistandakı diplomatik nümayəndə M.Təkinskiyə göndərdiyi şifrəli teleqramda tapşırırdı ki, dağıdılmış kəndlərin təmsilçilərinin köməyi ilə İrəvan quberniyasında, imkan olarsa, Kars vilayətində zərərçəkmişlərin ad və soyadları, yaşayış yerləri, yaşları göstərilməklə müsəlmanların həm insani, həm də əmlak itkiləri haqqında xəlvəti statistik məlumatlar toplansın. Məlumatlarda öldürülənlər, yaralananlar, əsir götürülənlər, dağıdılmış kəndlər, bağlar, aparılmış sürülər haqqında səhih məlumatların əks olunması tapşırılırdı.



*1919-cu il, 10 iyun* Azərbaycan hökumətinin qərarı ilə ingilis, italyan və digər ölkələrin təmsilçilərinin iştirakı ilə ermənilərin Ermənistanda azərbaycanlılara vurduqları itkilərin miqyasını müəyyən etmək üçün beynəlxalq komissiya yaradılması qərara alınmışdır.

*1919-cu il, 11 iyun* Şimalı Qafqazdan Sovet Rusiyasının təcavüz təhlükəsinin artması ilə əlaqədar olaraq yaradılan Dövlət Müdafiə Komitəsi tərəfindən Azərbaycan Cümhuriyyəti ərazisində hərbi vəziyyət elan edildi.

*1919-cu il, 11 iyun* Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Dövlət Müdafiə Komitəsi yanında Əksinqilabla Mübarizə Təşkilatının (ƏMT) yaradılması barədə qərar qəbul etdi.

*1919-cu il, 13 iyun* Bakıda ingilislərə qarşı nümayişlər keçirildi.

*1919-cu il, 13 iyun* V.Vilson, D.Lloyd Corc, J.Klemanso. V.Orlando və baron Makinonun imzası ilə Rusiya ərazisində admiral Kolçakın ali hakimiyyətinin qismən tanınmasına dair sənəd dərc olundu.

*1919-cu il, 13 iyun* Azərbaycan, Gürcüstan, Latviya, Estoniya, Şimali Qafqaz, Belorusiya və Ukrayna nümayəndələri Rusiya ərazisində admiral Kolçakın ali hakimiyyətinin qismən tanınmasına qarşı Paris konfransının sədrinə etiraz notası təqdim etdilər.

*1919-cu il, 16 iyun* M.Təkinski xarici işlər naziri M.Y.Cəfərova yazırdı ki, A.Xatisovla uzun müddət söhbət edib və o, ingilis polkovniki Plantona və Amerika missiyasına arxalanaraq öz mövqeyini haqlı hesab edir.

*1919-cu il, 16 iyun* Denikin təhlükəsi Gürcüstanı da ciddi narahat etdiyindən Gürcüstanla Azərbaycan arasında hərbi müdafiə paktı imzalandı. Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Respublikası arasında üç il müddətinə hərbi-müdafiə paktının imzalanması ölkəmizin dəyərli diplomatik addımı hesab edilməlidir. Bu pakta görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu

təqdirdə müqaviləni bağlayan tərəflər öz öhdələrinə bir-birinə hərbi yardım göstərmək borcunu götürmüşdülər. Eyni zamanda müqavilənin 10-cu bəndində göstərilirdi ki, "bu müqavilə barədə rəsmi məlumat verildikdən sonra Ermənistan iki həftə ərzində bu müqaviləyə qoşula bilər". Hərbi pakta görə, Azərbaycan Gürcüstandan 12 kiçik top, 12 dağ topu, 24 pulemyot, 3 min beşaçılan tüfəng, 211 qılınc, 795 nizə və s. hərbi ləvazimat aldı.

*1919-cu il, 16 iyun* — Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Respublikası arasında bağlanan hərbi-müdafiə paktına uyğun olaraq, tərəflər hərbi-texniki saziş imzaladılar və birgə Hərbi Şura yaratdılar. İngilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti əvvəlcə mənfi idi, lakin sonralar dəyişdi.

*1919-cu il, 16 iyun* — Britaniyanın Şərqi Avropa və Qafqazda olan qüvvələrinin baş komandanı general C.Miln Denikinin cənuba doğru hərəkəti ilə razı olmadığı barədə baş nazir N.Yusifbəyliyə radioteleqram göndərdi.

*1919-cu il, 16 iyun* — Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası "Quba barışıq məhkəməsinin hakim köməkçisi, Quba şəhər istintaq sahəsinin müdiri S.M.Sayılovun barəsində cinayət işi başlanması, istintaq və məhkəmə prosesi başa çatanadək tutduğu vəzifəsindən kənarlaşdırılması haqda" qərar verdi.

*1919-cu il, 16 iyun* — Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti "Ordunun hərbi tibbi xidmətini yaxşı təşkil etmək haqqında" qanun verdi. Qanuna görə, 45 yaşına çatmış və axırıncı 5 ildə Azərbaycanda yaşayan bütün kişi həkimlər üçillik hərbi xidmətə çağırılırdı.

*1919-cu il, 16 iyun* — Azərbaycan Xalq Cümhuriyyəti üçün zabitlər hazırlamaqdan ötrü Gürcüstanın hərbi məktəblərinə müdavimlərin göndərilməsi və s. haqqında gizli müqavilə də bağlanılmışdır.

*1919-cu il, 17 iyun* — Parlament iyulun 1-dən etibarən Qazax, Nuxa, Şuşa, Quba, Zaqatala, Salyan, Bakı və Gəncədə qısamüddətli pedaqoji kurslar açılması barədə qanun qəbul etdi.



*1919-cu il, iyun* — Ümumqafqaz həmrəyliyinin yaradılması ilə əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti hökuməti diplomatiyası qonşu dövlətlər ilə əlaqədar bəyanat verdi.

*1919-cu il, iyun* — Qarayazı ərazi mübahisələri Tiflisdə işə başlayan Qafqaz konfransının gündəliyinə daxil edildi. Şimaldan yaxınlaşan təhlükə ilə bağlı olaraq, Qafqaz konfransı öz işini dayandırdı.

*1919-cu il, yay* — Azərbaycan Xalq Cümhuriyyətində Xəzər donanması yaradıldı.

*1919-cu il, 17 iyun* — A.Ziyadxanovun M.Təkinskiyə göndərdiyi şifrəli teleqramda Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı, Culfa və Ordubad rayonlarında vəziyyətlə bağlı təcili informasiya istənilirdi. A.Ziyadxanov Vedibasarın icra nümayəndələri Xəlil ağa Hacılar və Abbasqulu ağa Şadlinskinin həbsdən azad edilməsi üçün M.Təkinskiyə tədbir görülməsini tapşırmışdı.

*1919-cu il, 21 iyun* — M.Təkinskinin xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi daha bir şifrəli teleqramda bildirilirdi ki, Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı rayonları erməni qoşunları tərəfindən tutulmuşdur və bu ərazilərdə erməni administrasiyası yaradılmışdır.

*1919-cu il, 27 iyun* — Ərazi bütövlüyünü birgə qorumaq haqqında Azərbaycan-Gürcüstan müqaviləsi parlament tərəfindən təsdiq edildi.

*1919-cu il, 2 iyul* — Uzun müzakirələrdən sonra Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında Əsasnaməsi qəbul edildi.

*1919-cu il, 2 iyul* — Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər 1920-ci il aprel ayının 20-nə təyin edildi.

*1919-cu il, 17 iyul* — Azərbaycan parlamenti iclasında Zəngəzur qəzasından və İrəvan quberniyasından olan qaçqınların vəziyyəti ilə bağlı məsələ müzakirə edildi.

*1919-cu il, 19 iyul* — Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında ticarət və nəqliyyat müqaviləsi bağladı.

*1919-ci il, 21 iyul* — Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti "Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında" Əsasnaməni təsdiq etdi.

*1919-cu il, 23 iyul* — Azərbaycan Xalq Cümhuriyyətinin milli ordu hissələri Sovet Rusiyası və ermənilərin təşkil etdikləri, dövlət dili rus dili olan, bolşeviklərin nümayəndəsi D.D. Çirkinin rəhbərlik etdiyi qondarma Muğan Sovet Respublikasını tərksilah etdilər.

*1919-cu il, 25 iyul* — Naxçıvan əhalisi erməni qoşunlarını əzərək onları qaçmağa məcbur etdi. Beləliklə, Naxçıvan bölgəsində "erməni idarəçiliyi" ləğv edildi.

*1919-cu il, 28 iyul* — Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azəbaycan və rus dillərində məlumat kitabının nəşrini bəyənmiş və parlamentə "Azərbaycan Cümhuriyyətinin ünvan təqviminin nəşri üçün Himayədarlıq nazirliyinə 122 min manat vəsait ayrılması haqqında" qanun layihəsi təqdim etməyi qərara almışdır.

*1919-cu il, 2 avqust* — M.Təkinski Azərbaycan hökuməti adından Ermənistanın xarici işlər nazirinə Böyük Vedi hadisələri ilə bağlı nota təqdim etdi. İrəvan şəhərinin küçələrində Zəngibasarın, Gərnibasarın və digər rayonların yollarında milis forması geymiş ermənilər müsəlmanları öldürür, əmlaklarını talan edir, müsəlmanların bağlarında ağacları doğrayır, bostanlarını və bağlarını ələ keçirirlər. Böyük Vedi ətrafında təqribən bir ay davam edən döyüşlər zamanı ev-eşiyindən didərgin düşən müsəlmanların yetişdirdikləri məhsulları ermənilər toplayıb aparmış, yerdə qalan məhsulu isə yandırmışlar.

*1919-cu il, avqust* — Əkinçilik nazirliyində "Azərbaycan Xalq Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında" və "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında" qanun layihələri hazırlandı.

*1919-cu il, 6 avqust* — General Tomson Xəzər Hərbi Donanmasını Denikinin könüllülər ordusuna vermək barədə sərəncam imzaladı.

*1919-cu il, 11 avqust* — Cümhuriyyət Parlamentinin qəbul etdiyi "Azərbaycan vətəndaşlığı haqqında" qanuna görə, özü və ya



validеynləri Azərbaycan ərazisində anadan olmuş keçmiş Rusiya imperiyasının bütün təbəələri milli və dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşı hesab olunurdu.

*1919-cu il, 19 avqust* — Londonda İngiltərə-İran müqaviləsi bağlandıqdan sonra İran Azərbaycanla bağlı ərazi iddialarından əl çəkdi.

*1919-cu il, 21 avqust* — Parlamentin iclasında deputatların çıxışlarında dil məsələsinə baxılmışdır. Çıxış edənlərin hamısı universitetdə, ölkəmizin bu ilk ali məktəbində tədrisin hansı dildə aparılması məsələsinə də xüsusi diqqət yetirmişlər.

*1919-cu il, 24 avqust* — İngilislər Bakını tərk etməyə başladılar.

*1919-cu il, 24 avqust* — Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi vəzifəsinə görkəmli Azərbaycan yazıçısı və ictimai-siyasi xadimi Əbdürrəhim bəy Haqverdiyev təyin olunmuşdur. Ermənistanda və Qars vilayətində türklərə qarşı törədilən soyqırımının Birləşmiş Dövlətlərin Ali Komissarlığına, xarici ölkələrin Qafqazdakı nümayəndəliklərinə çatdırılmasında, qaçqınların vəziyyətinin yüngülləşdirilməsində Əbdürrəhim bəy Haqverdiyev xeyli iş görmüşdür.

*1919-cu il, 24 avqust* — "Azərbaycan Dövlət Bankının yaradılması haqqında" qanun qəbul edildi.

*1919-cu il, 30 avqust* — Azərbaycan Xalq Cümhuriyyət ordusunun polkovniki Fərhad Əbülfət oğlu Ağalarov Bakı limanının komendantı təyin olundu. Aprel çevrilişinə qədər o, bu vəzifədə işləmişdir.

*1919-cu il, yay* — Bakı ətrafında Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı Abşeron Müdafiə Sistemi yaradıldı.

*1919-cu il, 1 sentyabr* — Azərbaycan parlamenti "Bakı Universitetinin açılması haqqında" qanun qəbul etdi.

*1919-cu il, 1 sentyabr* — Azərbaycan Xalq Cümhuriyyəti parlamenti "Bakı Dövlət Universitetinin açılması haqqında" qərar verdi.

| | |
|---|---|
| *1919-cu il, 1 sentyabr* | Azərbaycan parlamenti dövlət hesabına xaricə ali təhsil almaq üçün "Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında" qərar qəbul etdi. Bu qərara əsasən, 100 nəfər azərbaycanlı gənc xarici ölkələrin ali məktəblərinə təhsil almağa göndərildi. |
| *1919-cu il, 13 sentyabr* | Baş nazir N.Yusifbəyli IV hökumətin sədri vəzifəsindən istefa etdi. |
| *1919-cu il, 13 sentyabr* | Denikinçilərin payızda həm şimaldan, həm də Xəzər dənizindən ehtimal olunan hücumunun qarşısını almaq, Bakının müdafiəsini təşkil etmək üçün Dövlət Müdafiə Komitəsinin keçirdiyi iclasda böyük əhəmiyyətə malik olan hərbi struktur – Bakı İstehkamat hissəsi (Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonu) yaradıldı. |
| *1919-cu il, 15 sentyabr* | Parlament Bakının fəthinin ildönümü münasibətilə yubiley iclası keçirdi. |
| *1919-cu il, 15 sentyabr* | Bakının ingilis və sentrokaspiçilərdən geri alınmasının ildönümü münasibəti ilə Azərbaycan Xalq Cümhuriyyəti Müdafiə nazirliyi hissələrinin möhtəşəm hərbi paradı keçirildi. |
| *1919-cu il, sentyabr* | Azərbaycan Xalq Cümhuriyyəti Maarif nazirliyi Abdulla Şaiq və Hüseyn Cavidin müəllifi olduğu "Ədəbiyyat dərsləri" kitabını nəşr etdirdi. Bu, ilk milli dərslik nümunəsi idi. |
| *1919-cu il, sentyabr* | Azərbaycan Xalq Cümhuriyyəti Maarif nazirliyinin ilk dəfə nəşr etdirdiyi dərsliklərdən "Türk çələngi"nin müəllifi Abdulla Şaiq idi. Bu da ilk milli dərslik nümunəsi idi. |
| *1919-cu il, 24 oktyabr* | Naxçıvanda ABŞ general-qubernatorluğu yaradıldı. |
| *1919-cu il, oktyabr* | Azərbaycan Xalq Cümhuriyyətində mətbuat sahəsində senzuranın ləğv olunması haqqında qərar qəbul edildi. |
| *1919-cu il, 25 oktyabr* | Azərbaycan Xalq Cümhuriyyəti Dövlət Bankının açılışı haqqında qərar qəbul edildi. |
| *1919-ci il,* | Əksinqilabla Mübarizə Təşkilatının Bakı Möhkəmlən- |



| | |
|---|---|
| *26 oktyabr* | dirilmiş Müdafiə Rayonuna tabe edilməsi haqqında qərar qəbul edildi. |
| *1919-cu il, 1 noyabr* | Parisdə Azərbaycanla İran arasında Azərbaycanın müstəqilliyinin tanınması haqqında müqavilə imzalandı, iki ölkə arasında diplomatik münasibətlərin yaradılmasına razılıq əldə edildi. |
| *1919-cu il, 14 noyabr* | Ədliyyə Nazirliyi tərəfindən təqdim olunmuş "Azərbaycan Respublikasının məhkəmə palatasının Əsasnaməsi" hökumət tərəfindən təsdiq edildi. |
| *1919-cu il, 15 noyabr* | Bakı Dövlət Unversiteti fəaliyyətə başladı. |
| *1919-cu il, noyabr* | Bakıda "İstiqlal" muzeyi yarandı, arxeologiya və etnoqrafiya cəmiyyətləri təşkil edildi. |
| *1919-cu il, 23 noyabr* | Tiflisdə üç Cənubi Qafqaz respublikasının təmsilçilərinin iştirakı ilə sülh konfransı keçirildi. Ermənistanla Azərbaycan arasında bağlanan sazişi Azərbaycan və Ermənistanın baş nazirləri N.Usubbəyov və A.Xatisov, təminatçı sifəti ilə ABŞ tərəfindən C.Rey və Gürcüstanın xarici işlər naziri E.Gegeçkori imzaladılar. Sazişdə Ermənistan və Azərbaycan hökumətləri bundan sonra silaha əl atmayacaqları barədə razılığa gəldilər. |
| *1919-cu il, 23 noyabr* | Sülh sazişinə görə, Azərbaycan və Ermənistan hökumətləri öz qoşunlarını Zəngəzurdan geri çəkməli idilər. Azərbaycan hökuməti müqaviləyə əsasən öz hərbi qüvvələrini Zəngəzurdan çıxarsa da, Ermənistan öz hərbi qüvvələrini nəinki geri çəkmədi, əksinə, daha da gücləndirdi. Sülh sazişi imzalandıqdan təxminən iki ay müddətində Zəngəzurun daha 40 kəndi ermənilər tərəfindən talan edilib sakinləri qətlə yetirildi. |
| *1919-cu il, 23 noyabr* | Azərbaycan hökuməti bolşevik təbliğatlarının qarşısını almaq məqsədi ilə bolşevik yönümlü nəşrlərin dayandırılması haqqında bütün mətbəələrdən iltizam alınması barədə göstəriş verərək bildirdi ki, tapşırığı yerinə yetirməyən mətbəələr müsadirə ediləcək, sahibləri isə həbs olunacaqlar. |
| *1919-cu il,* | Görkəmli Azərbaycan alimi, sənətşünas Məhəmməd |

| | |
|---|---|
| *7 dekabr* | Ağaoğlu sənətşünas Hüseyn bəy Mirzəcamalovla birlikdə ilk milli "İstiqlal Muzeyi"nin təşkil edilməsinin təşəbbüsçüsü olmuşlar. |
| *1919-cu il, 7 dekabr* | Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakıda "İstiqlal Muzeyi"nin yaradılması haqqında qərar qəbul edildi. |
| *1919-cu il, 2-11 dekabr* | Türk Ədəmi-Mərkəziyyət Müsavat partiyasının II qurultayı keçirildi. |
| *1919-cu il, 20 dekabr* | Tiflisdə İrəvan quberniyası və Qars vilayətindən gələn qaçqınların söylədiklərinə əsasən tərtib edilən protokolda qeyd olunurdu ki, Araz və Tarasum çaylarının digər sahilində, Uluxanlı stansiyasından 17 verst məsafədə, daha təhlükəsiz yerdə mal-mülkü talan edilmiş və tamamilə yandırılmış 50 min qaçqın toplaşmışdır. |
| *1919-cu il, 22 dekabr* | Azərbaycan Xalq Cümhuriyyəti parlamenti Nəsib bəy Yusifbəylinin başçılığı ilə V hökumət kabihetinin tərkibini təsdiq etdi. |
| *1919-cu il, dekabr* | Əhali kütləvi şəkildə aclıqdan həlak olurdu. Aclıqdan həlak olanların mütləq əksəriyyəti azərbaycanlılar idi. Çünki həmin dövrdə azərbaycanlılar evlərindən bayıra çıxa bilmədiklərindən ölümə məhkum edilmişdilər. Halbuki həmin dövrdə Ermənistanda doktor Yarrounun sədrliyi ilə Amerikanın Ermənistana Yardım Komitəsi fəaliyyət göstərirdi. |
| *1920-ci il, yanvar* | Beynəlxalq Paris Sülh konfransı dünyanın Birinci dünya müharibəsindən sonrakı xəritəsini müəyyən edərkən Qarabağı Azərbaycan Xalq Cümhuriyyətinin tərkibində tanımışdır. |
| *1920-ci il, 2 yanvar* | RSFSR xarici işlər komissarı Çiçerin Azərbaycan xarici işlər naziri F. Xoyskiyə Denikinə qarşı birgə mübarizə aparmaq məqsədi ilə hərbi ittifaq yaratmaq haqqında birinci dəfə nota verdi. |
| *1920-ci il, 5 yanvar* | Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin iclasında qaçqınların məsələsi müzakirə edilmiş, Ermənistandan 300 min qaçqının gəldiyi qeyd olunmuşdur. |



| | |
|---|---|
| *1920-ci il, 10 yanvar* | Böyük Britaniyanın təşəbbüsü ilə çağırılan Paris Sülh konfransı Ali Şurasının sessiyasında Qafqazdakı vəziyyət geniş müzakirə edildi. |
| *1920-ci il, 11 yanvar* | Versal sülh konfransının Ali Şurası tərəfindən İngiltərənin Xarici İşlər naziri Kerzonun təklifi ilə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi defakto-müstəqil dövlət statusunda tanındı. |
| *1920-ci il, 12 yanvar* | Azərbaycanın müstəqilliyinin tanınması xəbərini Bakıya, Azərbaycan hökumətinə ilk olaraq İngiltərənin Qafqaz üzrə baş komissarı Oliver Uordrop bildirdi. |
| *1920-ci il, 13 yanvar* | Yenicə fəaliyyətə başlayan Gəncə radiostansiyası Fransanın məşhur Eyfel qülləsinə qoşulmuşdu. Hər kəs böyük coşqu ilə oradan eşidiləcək ilk xəbərin həyəcanını yaşayırdı. Çox çəkmədən Əlimərdan bəy Topçubaşov Parisdən Azərbaycan xalqına müraciət edərək Cümhuriyyətin Paris Sülh konfransında tanındığını xəbər verdi. Əlimərdan bəyin bu teleqramından əvvəlcə Gəncə, sonra isə bütün Azərbaycan xəbər tutdu və hər yerdə böyük sevinc yaşandı. |
| *1920-ci il, yanvar* | Məhəmməd Nasirin redaktorluğu ilə "Qırmızı Gəncə" qəzeti nəşrə başladı. |
| *1920-ci il, yanvar* | Erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan Xalq Cümhuriyyəti hökumətini devirmək planlarını Sovet Rusiyasına təklif etdilər. Qarabağda və Gəncəbasarda erməni əhalinin qiyamı və Azərbaycana qarşı Ermənistanın müharibəsi bu planın tərkib hissəsi idi. |
| *1920-ci il, 14 yanvar* | Parisdə Müttəfiq Dövlətlərin Ali Şurasının Azərbaycanın istiqlaliyyətinin de-fakto tanınması haqqında yekdilliklə qərarı Azərbaycana çatdırıldı və parlament onu təntənəli şəkildə qeyd etdi. Millət vəkilləri və parlamentin iclasında iştirak edən xarici ölkələrin diplomatik nümayəndələri istiqlal yolunda qurban getmiş vətən oğullarının və Osmanlı əsgərlərinin xatirəsini yad etdilər. Bu hadisə münasibətilə ümumi amnistiya elan edildi. |
| *1920-ci il,* | Əkbər ağa Şeyxülislamov Azərbaycandan II İnter- |

*yanvar* nasionalın üzvü olmuşdur. Onun İkinci dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan "Azərbaycan" jurnalının 2-ci sayında dərc edilmiş "Azərbaycan necə quruldu?" adlı məqaləsi bu gün də öz aktuallığını saxlayır.

*1920-ci il, 14 yanvar* F.Xoyski Rusiyanın Denikinlə müharibəsinin onun daxili işi olması haqqında Çiçerinə cavab notası verdi.

*1920-ci il, 14 yanvar* Əlimərdan bəy Topçubaşov Məhəmməd Əmin Rəsulzadəyə teleqram vuraraq Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması münasibəti ilə onu təbrik etdi.

*1920-ci il, 14 yanvar* Azərbaycan Cümhuriyyətinin de-fakto tanınması bütün Azərbaycanda əmək haqqı saxlanılmaqla qeyri-iş günü elan edildi. Həmin gün bayram təntənələri saat 11-də Təzəpir məscidində dualar oxunmaqla başladı.

*1920-ci il, 14 yanvar* Azərbaycan Cümhuriyyətinin Ali Şura tərəfindən de-fakto tanınması ilə əlaqədar bayram təntənələri Gəncədə də keçirildi. Gəncə valisi Xudadat bəy Rəfibəyli, görkəmli ziyalılar Firidun bəy Köçərli, Vəli Xuluflu, Ağalar bəy Səfikürdski, Cavad Axundzadə və başqaları şəhər ictimaiyyəti qarşısında çıxış edərək təbrik nitqləri söylədilər.

*1920-ci il, 15 yanvar* Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələrinə Azərbaycanın müstəqilliyinin de-fakto tanınması barədə Paris Sülh konfransının rəsmi qərarı təqdim olundu.

*1920-ci il, yanvar* Azərbaycan Xalq Cümhuriyyəti ordusunun yaradılması prosesi əsasən başa çatdırıldı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi.

*1920-ci il, 19 yanvar* Azərbaycan Xalq Cümhuriyyətinin və Gürcüstan Respublikasının rəsmi nümayəndələri Paris Sülh konfransı Ali Şurasının iclasına dəvət edildilər.

*1920-ci il, yanvar* Paris Sülh konfransı Azərbaycan Cümhuriyyətinə kömək göstərilməsi haqqında qərar qəbul etdi.



*1920-ci il, 19 yanvar* Antanta Cənubi Qafqazın yeni dövlətlərini tanımaqla onları xarici təcavüzdən qorumaq üçün öz üzərinə öhdəliklər götürdü. Azərbaycan tərəfi ABŞ və Avropa dövlətlərindən alınması nəzərdə tutulan 100 parovoz, 2 min ədəd çən, 500 bağlı vaqon müqabilində 200 milyon pud ağ neft, eləcə də pambıq, yun, ipək, gön-dəri məhsulları göndərməyi öhdəsinə götürdü.

*1920-ci il, 19 yanvar* Ali Şuranın iclasında Avropanın aparıcı dövlət başçıları - Lloyd Corc, Klemanso, Nitti, Kerzon, Çörçill və digər tanınmış dövlət xadimlərinin və Azərbaycan nümayəndə heyətinin tam tərkibdə iştirakı ilə müşavirə oldu və bu mötəbər toplantıda Əlimərdan bəy Topçubaşov Azərbaycanla bağlı verilən bütün sualları cavablandırdı.

*1920-ci il, 23 yanvar* Çiçerin ikinci notasında Azərbaycanın müstəqilliyinə münasibətini bildirməkdən yan keçərək Azərbaycan hökumətini Denikinə qarşı mübarizə aparmaqdan imtina etməkdə günahlandırırdı.

*1920-ci il, yanvar* F.Xoyski notasında Azərbaycanın istiqlaliyyətinin Sovet Rusiyası tərəfindən qeyd-şərtsiz tanınmasını təkid edirdi.

*1920-ci il, yanvar* Azərbaycanın Zəngəzur mahalının böyük hissəsi Moskva rəhbərliyinin qərarı ilə Aprel çevrilişinə kömək etdiklərinə, Cümhuriyyət qoşunlarını cəlb edərək XI Qızıl orduya şərait yaratdıqlarına görə Ermənistana verildi.

*1920-ci il, 25 yanvar* Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəliyindən Mir Mahmud Mirbabayev Azərbaycan XİN-ə göndərdiyi məxfi məktubunda göstərirdi ki, İrəvan şəhərində müsəlmanların vəziyyəti daha ağırdır: müsəlman mağazaları yoxdur, evlər dağıdılıb, təhlükəsiz yaşayış üçün heç bir zəmanət yoxdur.

*1920-ci il, 2 fevral* Bakıda və Zaqatalada müəllim seminariyalarının açılması qərara alındı.

*1920-ci il, 3 fevral* Sabunçudakı fəhlə klubunda keçirilən iclasda bolşeviklər "İndiki hökumət bizə lazım deyil, bu yaxınlarda bolşeviklər gələcək, biz onda öz gücümüzü

göstərəcəyik" bəyanını etdilər.

*1920-ci il, 11-12 fevral* Bolşeviklər Azərbaycanın daxilində təxribatçılıq fəaliyyətlərini günü-gündən genişləndirirdilər.Təsis edilmiş Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının əsas məqsədi ölkədə vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşevikləri hakimiyyətə gətirmək idi. Bu təxribatçı quruma Azərbaycan xalqının qatı düşməni, millətçi A.Mikoyan başçılıq edirdi. Partiya milli hökuməti yıxmaq, Sovet Azərbaycanı qurmaq üçün silahlı üsyan xəttini irəli sürürdü.

*1920-ci il, 15 mart* Polis kommunist təbliğatçıları D.Bünyadzadə, K.İsmayılov. S.Fətəlizadə və başqalarını həbs etdi. Fəhlə klubu bağlandı.

*1920-ci il, 18 fevral* M.Hacınski Daxili İşlər naziri vəzifəsindən istefa etdi.

*1920-ci il, 17 mart* Sovet Rusiyasının Azərbaycana əsl münasibətini V.İ.Leninin Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasının üzvləri Smılqa və Orconikidzeyə göndərdiyi teleqram dolğun əks etdirir: "Bakını zəbt etmək bizə olduqca və olduqca zəruridir, bütün səylərinizi buna verin".

*1920-ci il, 17 mart* F.Xoyski Çiçerinə növbəti nota göndərdi, lakin qarşı tərəf notaya heç bir cavab vermədi.

*1920-ci il, 19 mart* Erməni silahlıları hücum edərək Qarabağda 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər.

*1920-ci il, 20 mart* Azərbaycan-İran müqaviləsi bağlandı. Bu müqaviləyə əsasən Azərbaycan İran tərəfindən de-yure tanınırdı.

*1920-ci il, 21 mart* İran Azərbaycan dövlətini müstəqil dövlət kimi tanıyaraq onunla dostluq haqqında müqavilə imzaladı.

*1920-ci il, 22 mart* Erməni qüvvələrinin hücumu gecə saat 3-də, eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən qoşun bölmələrinin üzərinə basqınla başladı.

*1920-ci il, mart* Azərbaycan ordusunun, demək olar ki, hamısı Novruz bayramı günlərində Qarabağ istiqamətində erməni qiyamçılarına qarşı vuruşurdu, ölkənin şimal sərhədləri



isə müdafiəsiz qalmışdı. Digər tərəfdən, Azərbaycan hökumətinin Qərbdən gözlədiyi yardım gəlib çıxmırdı.

*1920-ci il, 20 mart* Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan Respublikası arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı.

*1920-ci il, mart* Sovet Rusiyasına münasibət məsələsində Azərbaycan hökuməti daxilində birlik yox idi: xarici işlər naziri Fətəli xan Xoyski Rusiyaya münasibətdə sərt xəttin, daxili işlər naziri Məmmədhəsən Hacınski isə Azərbaycan bolşevikləri ilə danışığa girib onlara güzəştə getməyin tərəfdarı idi. M.H.Hacınskiyə görə, Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlalını qorumaq mümkün idi. Hökumətin keçirdiyi konfransda M.H.Hacınskinin tərəfdarları qalib gəldilər, N.Yusifbəyli Baş nazir vəzifəsindən istefa verdi. Yeni hökumətin təşkili M.H.Hacınskiyə tapşırıldı. Lakin M.H.Hacınski bu hökumətin təşkilinə tələsmirdi.

*1920-ci il, 23 mart* Əkin və Əkinçilik naziri Ə.C.Pepinov istefa verdi.

*1920-ci il, 23 mart* Azərbaycan və Gürcüstan arasında ticarət müqaviləsi imzalandı.

*1920-ci il, 30 mart* Nəsib bəy Yusifbəylinin beşinci hökumət kabineti istefa verdi.

*1920-ci il, aprel* Denikinin qoşunlarını məğlub edən XI Qızıl ordu Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərinə yaxınlaşdı.

*1920-ci il, 9 aprel* Poçt və teleqraf naziri sosialist C.Hacınski istefa etdi.

*1920-ci il, 15 aprel* F.Xoyski Çiçerinə göndərdiyi notada rus ordusunun Azərbaycan sərhəddində toplanmasının səbəbləri və məqsədi barədə məlumat verilməsini tələb etdi. Lakin Sovet Rusiyasının xarici işlər naziri Çiçerin Azərbaycan hökumətinin bu notasına heç bir əhəmiyyət vermədi.

*1920-ci il,* Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı

*aprel* — bolşevikləri Azərbaycan xalqı adından XI Qızıl ordunu Azərbaycana dəvət etdilər. Qabaqcadan razılaşdırılmış plana görə, rus ordusu Bakıda bolşevik qiyamının başlanmasından 1-2 gün sonra Azərbaycana soxulmalı idi. Bununla da dünya ictimaiyyətində belə bir rəy yaradılacaqdı ki, Azərbaycan hökuməti xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olmuşdur.

***1920-ci il, 20 aprel*** — Azərbaycan bolşevikləri guya ölkədə qayda-qanun yaratmaq naminə hərbi yardım üçün Rusiyaya müraciət etməyə və XI Qızıl ordunu Azərbaycana dəvət etməyə çağırırdılar.

***1920-ci il, 22 aprel*** — Məhəmmədhəsən Hacınski yeni hökumət təşkil etməkdən imtina etdi.

***1920-ci il, aprelin 26-dan 27-sinə keçən gecə*** — Bakıda əvvəldən planlaşdırılan və Sovet Rusiyası ilə razılaşdırılmış xəyanətkar və istiqlalımıza qəsd, müstəqil dövlətin daxili işinə müdaxilə olan bolşevik qiyamı başlanmamış XI ordu hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladı. Sərhəd qüvvələrindən ibarət azsaylı Azərbaycan ordu hissələri düşmənə müqavimət göstərə bilmədi. Hərbi gəmilərin topları dənizdən Parlament binasına tuşlandı.

***1920-ci il, 27 aprel*** — XI Qızıl ordu Azərbaycan Xalq Cümhuriyyəti ərazisinə daxil oldu.

***1920-ci il, 27 aprel*** — Axşam saat 21-də Biləcəri stansiyası sovet zirehli qatarları tərəfindən tutuldu, səhər saat 4-də isə "III Beynəlmiləl" zirehli qatar Bakı stansiyasına gəldi.

***1920-ci il, 27 aprel*** — XI ordunun Azərbaycana hücumu ilə eyni vaxtda aprelin 27-də gündüz saat 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinə ultimatum verildi.

***1920-ci il, 27 aprel*** — Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyəti saat 20.45-də başa çatdı.

***1920-ci il, 28 aprel*** — Azərbaycan Cümhuriyyəti Parlamenti hakimiyyəti Azərbaycan İnqilab Komitəsinə təhvil vermək haqqın-



da ultimatumu qəbul etdi.

***1920-ci il, 28 aprel*** — Azərbaycanda Sovet Sosialist Respublikası elan olundu.

***1920-ci il, 28 aprel*** — Bütün hakimiyyət Müvəqqəti İnqilab Komitəsinə verildi.

***1920-ci il, aprel-may*** — Yeni yaranmış hakimiyyət elə ilk günlərdən aprel bəyanatının şərtlərini pozaraq AXC liderlərinin, görkəmli nümayəndələrin, Azərbaycan ordusunun, müdafiə nazirliyi xadimlərinin kütləvi həbslərini həyata keçirdi.

***1920-ci il, 27 apreldən sonra*** — Azərbaycanın bolşeviklər tərəfindən işğalından sonra Türkiyəyə getmiş azərbaycanlı mühacirlər təşkilatlanaraq, Milli Mərkəz yaratdılar.

***1920 -ci il, 29 aprel*** — Nağı bəy Şeyxzamanlı Azərbaycan ruslar tərəfindən işğal edildikdən sonra Türkiyəyə mühacirət etdi.

***1920-ci il, 29 aprel*** — Azərbaycan İnqilab Komitəsi hərbi yardım göstərmək xahişi ilə Sovet Rusiyasına müraciət etdi. Halbuki, rus ordusu aprelin 27-də Azərbaycanın hüdudları daxilində idi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi.

***1920-ci il, mayın ilk günləri*** — Qırmızı ordu Azərbaycan Milli ordusunun müqavimətini qıraraq Gəncəyə daxil oldu, Qazaxı zəbt etdi, Şamaxı, Göyçay, Şəki, Zaqatala və Balakəni ələ keçirdi, Bakı limanına hərbi donanma daxil oldu.

***1920-ci il, 3 may*** — Rusiyanın hərbi-dəniz donanması Lənkərana və Astaraya desant çıxartdı; Azərbaycan İnqilab Komitəsinin dekreti ilə yerlərdə qəza, mahal və kənd inqilab komitələri yaradıldı.

***1920-ci il, 5 may*** — Bütün xan, bəy və vəqf torpaqları müsadirə olunaraq əvəzi ödənilmədən kəndlilərin istifadəsinə verildi.

***1920-ci il, 7 may*** — Ordunun və donanmanın yenidən təşkil edilməsi barədə dekret verildi.

***1920-ci il,*** — İnqilab Komitəsi Xalq məhkəməsi yaradılması haqqın-

| | |
|---|---|
| *12 may* | da dekret verdi; əksinqilab və təxribatçılığa qarşı mübarizə üçün Fövqəladə Komissiya və Ali inqilabi tribunal təsis etdi; silki və mülki rütbələrin ləğv edilməsi barədə dekret verdi. |
| *1920-ci il, 15 may* | Xalq Maarif Komissarlığının qərarı ilə vicdan azadlığı elan edildi; din dövlətdən və məktəbdən ayrıldı; Azərbaycan ərazisindəki meşələr, sular və yeraltı sərvətlər milliləşdirilərək dövlət mülkiyyətinə keçdi. |
| *1920-ci il, 24 may* | Azərbaycan İnqilab Komitəsi neft sənayesinin milliləşdirilməsi haqqında dekret verdi. |
| *1920-ci il, 25-31 may* | Sovet rejiminə qarşı Gəncədə Cavad bəy Şıxlınksinin, Mirzə Məhəmməd Qacarın və Cahangir Bəy Kazımbəyovun başçılığı altında üsyan baş verdi, lakin üsyan qəddarlıqla yatırıldı. |
| *1920-ci il, iyunun əvvəli* | Xəzər ticarət donanmasının milliləşdirilməsi haqqında dekret verildi. |
| *1920-ci il, 6-18 iyun* | Zaqatalada Sovet rejiminin özbaşınalığına qarşı Əhmədiyevin və Molla Nafiz Əfəndinin başçılığı altnda xalq üsyanı baş verdi. |
| *1920-ci il, 9 iyun* | Bankların milliləşdirilməsi haqqında qərar verildi. |
| *1920-ci il, 15 iyun* | Qarabağda Sovet işğal rejiminə qarşı Azərbaycan Milli ordusunun hissələri üsyan etdi. |
| *1920-ci il, 19 iyul* | Həsən bəy Ağayev aprel işğalından sonra Tiflisə mühacirət etdi, lakin tezliklə muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirildi. Tiflisin müsəlman qəbiristanlığında - Müsəlman Panteonunda dəfn edilmişdir. |
| *1920-ci il* | Ceyhun Hacıbəyov "Arşın mal alan"ı fransız dilinə tərcümə edərək Parisdə tamaşaya qoymuşdu. |
| *1921-ci il, may* | İstanbulda Misak Tanlaryan Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri Behbudxan Cavanşirovu öldürdü. |
| *1921-ci il, iyun* | Roma şəhərində Armen Şirakyan Türkiyənin məhşur siyasi xadimi Said Alimi öldürdü. |



| | |
|---|---|
| *1921-ci il, 5 iyun* | Rusiya Kommunist (bolşeviklər) Partiyasının Qafqaz bürosu Dağlıq Qarabağı Azərbaycan Sovet Respublikasının tərkibində olmasını tanıdı və bu haqda qərar qəbul etdi. |
| *1921-ci il, oktyabr* | Berlində Soqomon Teyleryan Türkiyənin Baş naziri Tələt paşanı öldürdü. |
| *1922-ci il, may* | Buxara əmirliyində Dağlıq Qarabağda anadan olmuş Qaruxanyan Türkiyənin hərbi naziri Ənvər paşanı qətlə yetirdi. |
| *1922-ci ilin sonlarından* | Məmməd Əmin Rəsulzadənin İstanbulda siyasi mühacir həyatı başladı. |
| *1922-ci il* | Bakıda M. B. Məmmədzadənin "Azərbaycan Türk mətbuatı" adlı kitabı nəşr olundu. Bir ildən sonra, məsləkdaşları ilə birlikdə həbs edildi. |
| *1923-cü il, 7 iyul* | Moskva rəhbərliyinin qərarı ilə Dağlıq Qarabağa (Dağlıq Qarabağ Muxtar Vilayəti) muxtar vilayət statusu verildi. |
| *1923-cü il, 18 sentyabr* | Xankəndinin adı dəyişdirilərək azərbaycanlıların qatı düşməni Stepan Şaumyanın şərəfinə "Stepanakert" adlandırıldı. |
| *1923-cü il, sentyabr* | Azərbaycan Milli Mərkəzi xalqımızın müstəqillik uğrunda apardığı mübarizəni müdafiə məqsədi ilə yaradılmış və onun hazırladığı siyasi proqrama uyğun mühacirət mətbuatımızın əsası qoyulmuşdur. |
| *1923-cü il, 26 sentyabr* | İstanbulda "Yeni Qafqasya" jurnalının nəşrə başlaması ilə Azərbaycan mühacirət mətbuatının əsası qoyuldu. |
| *1923-cü il,* | Türkiyənin İstanbul və Ankara şəhərlərində, Almaniya, Polşa, Fransada çoxlu sayda qəzetlər, jurnallar, kitablar nəşr edilərək mühacirət mətbuatımızın dəyərli nümunələri yaradıldı. |
| *1925-ci ilin sonu* | Əhməd Cəfəroğlu dünya türkologiyasının mərkəzlərindən biri kimi tanınan Almaniyaya yollanır, Berlin, |

| | |
|---|---|
| | sonra isə Breslau Universitetlərində mükəmməl türkoloji təhsil alır. |
| *1920-1930-cu illər* | Polşa dövləti bolşevizmə qarşı mübarizə aparırdı və bu mübarizədə Rusiya əsarəti altında yaşayan xalqların mühacirətdəki nümayəndələrindən də faydalanırdı. |
| *1926-cı il* | Parisdə sovet əsarəti altında olan xalqların orqanı olaraq "Prometey" jurnalı nəşr edilməyə başladı. Jurnalda bolşevizm əleyhinə yazılara, xalqların azadlığı problemlərinə daha çox toxunulurdu. |
| *1929-cu il, 18 fevral* | Moskva rəhbərliyinin qərarı ilə Naxçıvan Muxtar Respublikasına məxsus olan 657 kv.km ərazi – Qurdbulaq, Horadiz, Oğbun, Almalı, İtqıran, Sultanbəy, Qarsevən, Kilid və digər kəndlər, həmçinin Zəngilan rayonunun Nüvədi kəndi, Qazax rayonunun 4400 hektarlıq meşə sahəsi Ermənistana verildi. |
| *1929-cu il* | Əhməd Cəfəroğlu Avropadan Türkiyəyə qayıdır və bir vaxt tələbəsi olduğu İstanbul Universitetinin türkologiya şöbəsinin türk dili tarixi kursuna dosent təyin edilir. |
| *1930-cu il* | Moskva rəhbərliyinin qərarı ilə Naxçıvanın Əldərə Lehvaz, Astazur digər yaşayış məntəqələri Ermənistana verildi və bu ərazilər üzrə Mehri rayonu yaradıldı. |
| *1920-1930-cu illər* | Polşa rəsmiləri, xüsusən marşal Pilsudski mühacirlərin Qafqaz Birliyi adı altında, sonradan isə "Prometey" klubunda birləşib fəaliyyət göstərmələrini vacib sayırdı. |
| *1930-ci il, aprel* | Tiflis şəhərində Aram Yevkanyan Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Fətəli xan Xoyskini öldürdü. |
| *1930-cu il, yay* | "İstiqlal" qəzeti, "Qurtuluş" jurnalı və "Müsavat bülleteni" xalqımızın zəngin mədəni-tarixi dəyərlərinin Avropa ictimaiyyətinə çatdırılmasında ciddi təbliğat vasitəsinə çevrilmişlər. |
| *1930-cu il, may-iyun* | Avropa ölkələrində Almaniyada, Polşada azərbaycanlı mühacirlər milli nəşriyyat yaratmış, kitablar, qəzet və jurnallar nəşr etmişlər. |



| | |
|---|---|
| *1932-ci il* | Əhməd Cəfəroğlunun redaktorluğu altında "Azərbaycan - yurd bilgisi" dərgisi nəşr olunmağa başladı. |
| *1934-cü il* | Qafqaz respublikaları nümayəndələri Parisdə toplanaraq Qafqaz birliyi haqqında müqavilə imzaladılar. |
| *1920-1955-ci illər* | Mircəfər Bağırovun bir raportunda qeyd olunduğu kimi, Sovet Azərbaycanında 52-dən çox qanlı xalq üsyanlarında fədakaranə vuruşan minlərcə igid partizanlarımız məhv oldular. |
| *1935-ci il, 15 sentyabr* | İstanbulda Azərbaycan mühacirləri Bakı zəfərinin 17-ci ildönümünü qeyd etdilər. |
| *1938-ci il* | Moskva rəhbərliyinin qərarı ilə Naxçıvanın Sədərək və Kərki kəndlərinin bir hissəsi Ermənistana verildi. |
| *1938-ci il* | Əhməd Cəfəroğlu Türkiyə Respublikasında pofessorluq dərəcəsini aldı. |
| *1938-ci il* | Berlində M.B.Məmmədzadənin "Milli Azərbaycan hərəkatı" kitabı çap edilir. |
| *1938-ci il* | M.Ə.Rəsulzadənin Almaniyada almanca çap olunan "Azərbaycan problemi" əsərində istiqlal mübarizəmizin tarixinə aid maraqlı faktlar vardır. |
| *1938-1945-ci illər* | İkinci dünya müharibəsinin başlanması ilə Azərbaycan legionerləri Almaniyada müxtəlif mətbuat orqanları yaradıb tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi təbliğ etmişlər. |
| *1940-cı il* | Ceyhun Hacıbəyli, Üzeyir Hacıbəylinin "Arşın mal alan" operasını fransızcaya tərcümə edib Parisdə tamaşaya qoymuşdur. |
| *1940-cı il* | Sovet qoşunları Baltikyanı ölkələri işğal edərkən Əbdürrəhman Düdənginski döyüşlərin birində əsir düşərək almanlar tərəfə keçir. |
| *1940-1945-ci illər* | Əbdürrəhman Düdənginski Almaniyada həbs düşərgəsində olarkən Azərbaycan legionunun təşkilində və Milli Azərbaycan Qurultayının keçirilməsində fəallıq |

| | |
|---|---|
| | göstərmiş, çoxlu sayda əsirləri ölümdən qurtarmışdır. |
| *1941-ci il* | Süleyman Məmmədov müharibə başladıqda Gəncə Müəllimlər İnstitutunun Tarix fakültəsində "Ümumi tarix" kafedrasının müdiri, eyni zamanda "Orta əsrlər tarixi" üzrə dosent vəzifəsini tuturdu. |
| *1941-1945-ci illər* | Azərbaycanlı Vəli bəy Yadigar İkinci dünya müharibəsi illərində Polşa Milli ordusunun polkovniki olmuşdur. Bu faktı Varşavada səfərdə olan Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin şərəfinə Polşa Prezidenti Andjey Dudan təşkil etdiyi ziyafətdə çıxışı zamanı söyləmişdir. |
| *1942-ci il* | Məhəmməd Kəngərli İkinci dünya müharibəsində almanlara əsir düşmüş, müharibədən sonra Almaniyada yaşamışdır. |
| *1945-1950-ci illər* | İkinci dünya müharibəsindən sonra, "soyuq müharibə" illərində Türkiyədə, Almaniyada "Azərbaycan" (Azərbaycan və rus dillərində), "Mücahid", "Türk izi", "Türk yolu" adlı jurnallar dərc edilmiş, çap edilən yazılarda sovet dövlətinin imperiya siyasəti pislənilmiş, Azərbaycanın müstəqil yaşamaq haqqı müdafiə olunmuşdur. |
| *1950-ci il* | Azərbaycanlı mühacirlər "Amerikanın səsi", "Azadlıq" radiolarında "Azərbaycan" redaksiyaları yaratmış, hazırladıqları verilişlərdə milli müstəqilliyimizə dəstək olmuşlar. |
| *1950-ci il* | Almaniyada nəşr edilən "Azərbaycan" qəzetində Azərbaycan Xalq Cümhuriyyətinin ideyaları tərənnüm edilirdi. Azərbaycanlı mühacirlər Münhen şəhərində "Azərbaycan" jurnalını da çap etdirmişlər. |
| *1950-1960-cı illər* | Azərbaycanlı mühacirlər ABŞ dövlətinin yaratdığı "SSRİ-ni Öyrənmə İnstitutu"nda çalışmış, institutun nəşr etdiyi "Dərgi" jurnalında maraqlı yazılarla çıxış etmişlər. |
| *1952-ci il* | Məhəmməd Kəngərli Türkiyəyə gəlib, Ankarada Azərbaycan Milli Mərkəzində və Azərbaycan Kültür Dərnəyində çalışmışdır. |



| | |
|---|---|
| *1952-1979-cu illər* | Məhəmməd Kəngərli Türkiyənin Sağlıq və Sosial Yardım Bakanlığının müxtəlif xəstəxanalarında baş həkim, sağlıq müdiri, "Qızıl Ay" cəmiyyətinin baş müdir yardımçısı, Türkiyənin Bonndakı səfirliyində müşavir vəzifələrində çalışmışdır. |
| *1952-ci il, iyul* | Ceyhun Hacıbəylinin xaricdə "Azərbaycan" jurnalında "Visbadendən Starnberqə" adlı çap olunan məqaləsində Azərbaycanın istiqlal mübarizəsindən bəhs edilir. |
| *1952-ci il, avqust* | Münhendə Azərbaycan Milli Birlik Məclisinin ilk sessiyasında "Kommunizm xalqların həyatını təmin etmək iqtidarındamı?" mövzusunda söylənilən nitq "Azadlıq" radiosu ilə azərbaycanlılara ilk müraciət idi. |
| *1952-ci il, 16 oktyabr* | Xaricdəki mühacir siyasi qrupların nümayəndələri Vətəni kommunist diktaturasından xilas etmək üçün "Antibolşevik mücadilənin koordinasiya mərkəzini" yaratdılar. |
| *1952-ci il, 12 dekabr* | Kremlin əmri və hüdudsuz maddi yardımı ilə Dünya Sülh Şurası adından, mühacirlərin təbliğatına qarşı Vyanada "Xalqların Sülhü Müdafiə konfransı" açılmışdır. |
| *1953-cü il, mart* | Vətəni kommunist diktaturasından xilas etmək üçün "Antibolşevik mücadilənin koordinasiya mərkəzi"nin yaradılması haqqında yazılar "Azərbaycan" jurnalında çap olunmuşdur. |
| *1953-cü il* | Xaricdə yaşayan Qafqazdan olan Cümhuriyyət mühacirləri Zaqafqaziya Seyminin 35 illiyini qeyd etmişlər. |
| *1953-cü il* | Almaniyanın Münhen şəhərində ABŞ-ın yaratdığı SSRİ-ni Öyrənmə İnstitutu tərəfindən "Dərgi" jurnalı çap edilməyə başladı. |
| *1953-cü il, mart* | Xaricdə mühacirlərin "Antibolşevik Mücadilə Koordinasiya Mərkəzinin səsini eşidin! Bizim radiostansiyanı dinləyin!" çağırışı səslənmişdir. |
| *1953-cü il, 29 iyun* | Berlində şənbə günü Amerikanın, Böyük Britaniyanın və Fransanın ali komissarlarının şəbəkə toplantısı |

olmuşdur. Bu müzakirənin yekunu olaraq Qərb komissarları SSRİ-yə insan haqqları və demokratiya çağırışı etmişlər.

| | |
|---|---|
| *1953-cü il, iyun* | Süleyman Məmmədov (Təkinər) "Tarix boyunca kommunistvari fikir və hərəkətlər" əsərini "Birləşmiş Qafqasiya" jurnalında çap etdirmişdir. |
| *1954-cü il* | Azərbaycanlıların Anadolu türklərinə yardımından bəhs edilən Tadeusz Svietochovskinin "İmparatorluk Haricindeki Türklerin Osmanlılara Yardımları, Türk Yurdu" adlı III kitabı çap edilmişdir. |
| *1954-cü il, 20 noyabr* | Əbdürrəhman Düdənginski "Azadlıq" radiosunun "Azərbaycan" redaksiyasının baş redaktoru işləyərkən bir sovet casusu tərəfindən qətlə yetirilmişdir. Əbdürrəhman Düdənginski Münhen yaxınlığında Noy-Ulm şəhərindəki qəbiristanlıqda dəfn edilmişdir. Ə.Düdənginski Münhendəki "SSRİ-ni Öyrənmə İnstitutu"nda çalışmış, burada iki il elmi şuranın sədri, iki il isə sədr müavini vəzifəsini icra etmişdir. |
| *1955-ci il, yanvar-fevral* | Mirzə Bala Məmmədzadənin Münhendə Amerikanın "Qurtuluş" radiosunda "Azərbaycanda azadlıq yoxdur" məqaləsi yayımlanmışdır. |
| *1956-cı il, mart* | Süleyman Məmmədov (Təkinər) "Azadlıq" radiosunda redaktor və şərhçi vəzifəsində işləməyə dəvət edilmiş, Almaniyanın Münhen şəhərində yaşamışdır. |
| *1957-ci il, aprel* | Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə aid "Xaincəsinə boğulan bir səs" əsəri Məhəmməd Kəngərlinin "Azərbaycan" aylıq dərgisində çap edilmişdir. |
| *1957-ci il, iyun* | Cümhuriyyətçi mühacir Çingiz Göygöl Azərbaycan Xalq Cümhuriyyəti tarixindən bəhs edən "Mühafizəsi lazım olan Milli Ruh" əsərini özünün baş redaktor olduğu "Mühacir" jurnalında çap etdirmişdir. |
| *1958-ci il, may* | Məhəmməd Kəngərlinin Qəhrəman Türk ordusunun Azərbaycana girişinin 39-cu ildönümü münasibəti ilə məqaləsi çap edilmişdir. |
| *1959-cu il, 8 mart* | Mirzə Bala Məmmədzadə İstanbulda vəfat etmiş və Qaraca Əhməd məzarlığında dəfn edilmişdir. |
| *1960-cı il* | Nəşr edilən "Yeni Qafqaziya", "Azəri Türk", "Odlu Yurd", "Azərbaycan Yurd Bilgisi", "Azərbaycan", "Mücahid", "Türk izi", "Türk yolu" jurnalları Azərbaycan istiqlalını təbliğ və tərənnüm edirdi. |
| *1962-ci il, 2 oktyabr* | Ceyhun Hacıbəyli vəfat etmiş, Parisin Sen-Klu məzarlığında dəfn olunmuşdur. |
| *1963-cü il* | Məhəmməd Kəngərli Kıbris hadisələrində Lefortaya gedib, orada "Qızıl Ay" xəstəxanasını qurmuş, sonradan Türkiyədə Anıtlar Dərnəyi Genel Başqanı olaraq fəaliyyət göstərmişdir. Ankarada nəşr edilən "Azərbaycan" jurnalında Azərbaycanın müstəqillik mübarizəsi ilə bağlı çoxlu sayda məqalələr yazmışdır. |
| *1964-cü il* | Nağı bəy Şeyxzamanlı Azərbaycan Xalq Cümhuriyyətinin tapşırığı ilə türk səlahiyyətlilərinin yanına gedir. Bununla əlaqədar Nağı bəy Şeyxzamanlı "Azərbaycan istiqlal mücadiləsi xatirələri" kitabını yazır. |
| *1968-ci il, 28 may* | Azərbaycan Dövlət Universitetinin bir qrup müəllim və tələbələri Azərbaycan Xalq Cümhuriyyətinin 50 illiyini gizli olaraq 210 nömrəli auditoriyada qeyd etmişlər. |
| *1970-ci il, 7 oktyabr* | Əhməd Qaraca "Azərbaycan" jurnalının baş redaktoru olmuşdu. |
| *1975-ci il, 6 yanvar* | Əhməd Cəfəroğlu vəfat etmiş. O, İstanbulun Zincirlik qəbiristanlığında dəfn olunmuşdur. |
| *1976-cı il* | Alman alimi İohaim Hofman Almaniyanın Freyburq şəhərində nəşr edilən "Şərq legionerlərinin tarixi" əsərində Azərbaycanın istiqlal mübarizəsi və legionerlərin fəaliyyətinə aid yeni faktları elmi dövriyyəyə gətirmişdi. |
| *1978-ci il* | Əhməd Qaraca "Anadolu" agentliyinin "İç xəbərlər" müdiri vəzifəsindən uzaqlaşıb, MHP Başqanı Alp Arslan Türkeş tərəfindən MHP-nin mətbuat müşaviri təyin edilmişdi. |
| *1982-ci il* | Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun |

İncədərə aylağı, Kəmərli, Aslanbəyli, Qayınaqlı kəndləri ərazilərinin bir hissəsi Ermənistana verilmişdir.

| | |
|---|---|
| *1984-cü il* | Tanınmış alman tədqiqatçısı R. Mühlen "Camali Xaç ilə Qızıl Yıldız arasında" adlı Ankarada nəşr edilmiş, zəngin arxiv materialları əsasında yazılmış kitabda azərbaycanlı mühacirlərin bolşevizmə qarşı təbliğat istiqamətində görülən işlər haqqında məlumat vermişdir. |
| *1985-ci il, dekabr* | Daşnaksütun partiyası Afinada keçirilən XXII qurultayında "Böyük Ermənistan" uğrunda mübarizəni genişləndirmək qərarını qəbul etmişdir. |
| *1986-cı il* | Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun 2500 hektarlıq ərazisi Ermənistana verilmişdir. |
| *1987-ci il* | Akademik Abel Aqambekyanın təkidi ilə Parisdə keçirilən erməni ümummilli konqresi SSRİ-də yaranmaqda olan dəyişikliklərdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul etmişdir. |
| *1987-ci il, 16 noyabr* | Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqambekyan Parisdə qəzetlərə müsahibə verərək, Dağlıq Qarabağın Ermənistana verilməsi ilə əlaqədar Qorbaçovu razı saldığını bildirmişdir. |
| *1988-ci il, 30 may* | Azərbaycan Xalq Cümhuriyyətinin 70 illiyi Gəncədə gizli şəkildə qeyd edilmişdir. |
| *1989-cu il, 30 may* | Azərbaycan Xalq Cümhuriyyətinin 71 illiyi münasibətilə Gəncədə gizli şəkildə konfrans keçirilmişdir. |
| *1990-cı il, 30 may* | Azərbaycan Xalq Cümhuriyyətinin 71 illiyi ilə əlaqədar Gəncədə gizli şəkildə toplantı keçirilmişdir. |
| *1990-cı il, 28 may* | Azərbaycanın mühacir cümhuriyyətçiləri Türk Dünyası Araşdırma Vəqfinin Kayseri şəhərində təşkil etdiyi Birinci Azərbaycan Millətlərarası Konqresində iştirak etmişlər. |
| *1991-ci il, 4 yanvar* | Ulu Gəncə adının bərpa edilməsinin 1 illiyi ilə əlaqədar Siyasi Maarif evində konfrans keçirildi. |



| | |
|---|---|
| *1991 -ci il, 20 yanvar* | Gəncədə 20 Yanvar ümumxalq hüzn günü kimi qeyd edildi. |
| *1991-ci il, 30 yanvar* | Gəncədə Hacı Zeynalabdin Tağıyevin xatirəsinə həsr edilmiş şeir müsabiqəsi keçirildi. |
| *1991-ci il, 5 fevral* | "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" Azərbaycan respublikasının qanunu qəbul edildi. |
| *1991-ci il, 6 fevral* | Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Azərbaycan Sovet Sosialist Respublikasının adı dəyişdirilərək Azərbaycan Respublikası adlandırıldı. |
| *1991-ci il, 5 fevral* | Azərbaycan Respublikasının Ali Sovetinin qərarı ilə üçrəngli bayrağa yenidən dövlət bayrağı statusu verildi. |
| *1991-ci il, 13 mart* | Respublikanın ictimai həyatındakı dəyişiklikləri, xalqın milli şüurunun artdığını və onun əzəli arzularını nəzərə alaraq Azərbaycan Jurnalistlər İttifaqı İdarə heyəti tərəfindən Məmməd Əmin Rəsılzadənin xatirəsini əbədiləşdirmək üçün "Rəsulzadə Xalq Fondu" yaradıldı. |
| *1991-ci il, 24 may* | Cəncədə Gülüstan yaşayış massivində İstiqlal parkı salındı. |
| *1991-ci il, 30 may* | Gəncənin İctimai-Siyasi Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 73-cü ildönümü münasibəti ilə dəyirmi masa təşkil edildi. |
| *1991-ci il, 30 may* | Gəncənin İctimai-Siyasi Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 73-cü ildönümü ilə əlaqədar təşkil edilən konfransda Həsənbala Sadıqov "Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şərait və keçdiyi yol" mövzusunda məruzə ilə çıxış etdi. |
| *1991-ci il, 30 may* | Gəncənin İctimai-Siyasi Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 73-cü ildönümü ilə əlaqədar təşkil edilən konfransda Əhməd Məmmədov "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında xalqın azadlığı uğrunda çalışan ziyalıların rolu" mövzusunda məruzə ilə çıxış etdi. |

*1991-ci il, 30 may* Gəncənin İctimai-Siyasi Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 73-cü ildönümü ilə əlaqədar təşkil edilən konfransda Nizami Şıxəliyev "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının müasir şəraitdə əhəmiyyəti" mövzusunda məruzə ilə çıxış etdi.

*1991-ci il, 30 avqust* Azərbaycan Respublikasının Parlamenti "Azərbaycan Respublikasının müstəqilliyinin bərpa edilməsi haqqında bəyannamə" qəbul etdi.

*1991-ci il, 8 oktyabr* Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında Azərbaycanın Dövlət müstəqilliyinin 10 illiyi münasibəti ilə şəhər ictimaiyyətinin təntənəli bayram yığıncağı keçirildi.

*1991-ci il, 18 oktyabr* Gəncədə Azərbaycan Texnologiya Universitetində Respublikanın dövlət müstəqilliyinin 10 illiyi münasibəti ilə "Heydər Əliyev müstəqilliyimizin qarantıdır!" mövzusunda konfrans keçirilmişdir.

*1991-ci il, 18 oktyabr* Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyi münasibəti ilə Gəncə Lokomotiv deposunda şənlik keçirilmişdir.

*1991-ci il, 18 oktyabr* Nigar Rəfibəyli adına 43 saylı orta məktəbin şagirdləri Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümü münasibəti ilə şəhərin Gəncə Dövlət Tarix Diyarşünaslıq Muzeyində olmuşlar.

*1991-ci il, 18 oktyabr* Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümü münasibəti ilə Gəncədə 1 saylı orta məktəbdə elmi-praktik konfrans keçirilmişdir.

*1991-ci il, 18 oktyabr* Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyi münasibəti ilə Bakıdan səfərə çıxan Təşviqat qatarı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncəyə gəldi.

*1991-ci il, 18 oktyabr* Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyi münasibəti ilə Bakıdan səfərə çıxan Təşviqat qatarı üzvləri Gəncədə bir sıra müəssisələrdə "Heydər Əliyev müstəqilliyimizin qarantıdır" mövzusunda dəyirmi masa keçirdilər.



*1991-ci il, 18 oktyabr* Azərbaycan Respublikasının müstəqilliyinin 10 illiyi münasibəti ilə Gəncə Dövlət Universitetində elmi-praktik konfrans keçirilmişdir.

*1991-ci il, 18 oktyabr* Elmi praktik konfransda Gəncə Dövlət Universitetinin Sosial fənnlər kafedrasının müdiri, dosent Vəkil Aşurov "Müstəqillik xalqımızın mənəvi sərvətidir" mövzusunda məruzə etmişdi.

*1991-ci il, 18 oktyabr* Elmi praktik konfransda Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti Cəmil Babayev "Azərbaycanın müstəqilliyinin bərpası" mövzusunda məruzə etmişdi.

*1991-ci il, 18 oktyabr* Gəncədə "Müstəqil Azərbaycan Respublikası və qadınlar" mövzusunda konfrans keçirildi.

*1991-ci il, 18 oktyabr* Azərbaycan Respublikasının Parlamenti "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" konstitutsiya aktını qəbul etdi.

*1991-ci il, 4 noyabr* Yeni Azərbaycan Partiyasının Gəncə şəhər təşkilatında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev tərəfindən yaradılmış Yeni Azərbaycan Partiyasının 10 illiyi münasibəti ilə təntənəli yubiley yığıncağı keçirilmişdir.

*1991-ci il, 8 noyabr* Müstəqil Azərbaycan Respublikası BMT üzvlüyünə qəbul üçün Birləşmiş Millətlər təşkilatına müraciət edildi.

*1991-ci il, 9 noyabr* Türkiyə Respublikası Azərbaycan Respublikasının müstəqilliyini tanıdı.

*1991-ci il, 17 noyabr* Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında şəhər fəallarının iştirakı ilə Azərbaycan Respublikası Konstitutsiyasının qəbul olunmasının 7-ci ildönümü münasibəti ilə bayram tədbiri keçirildi.

*1991-ci il, 20 dekabr* Gəncə Alüminium Oksidi Kombinatı Həmkarlar İttifaqı Komitəsinin şəhər əhalisinə "Azərbaycan Respublikasının dövlət istiqlaliyyəti haqqında dekabr ayının 29-da keçiriləcək referendumla əlaqədar müraciət etdi.

*1991-ci il, 29 dekabr* — Dövlət istiqlaliyyəti ilə əlaqədar Azərbaycanda Ümumxalq Referendum günü elan ediıdi.

*1991-ci il, 25 dekabr* — "Gəncənin səsi" qəzetində Gəncə Dövlət Universitetinin müəllimi Həsənbala Sadıqovun 29 dekabr ümumxalq referendumuna çağırışla əlaqədar "HƏ deməklə" məqaləsi çap olundu.

*1991-ci il, 28 dekabr* — Professor Qabil Seyidovun sədrliyi ilə Gəncə Şəhər Xalq Deputatları Soveti "Milli siyasət və tarixi irsin qorunması" üzrə daimi deputat komissiyası qərar qəbul etdi:

1. 26 Bakı komissarları küçəsinin əvvəlki adı - Bağbanlar bərpa edilsin.
2. V.İ.Lenin adına Mərkəzi istirahət parkının əvvəlki adı - Xan bağı bərpa edilsin.
3. İnqilab küçəsinin əvvəlki adı - Cavadbəyli bərpa edilsin.

*1991-ci il, 28 dekabr* — Gəncə Şəhər Xalq Deputatları Soveti, Azərbaycan Xalq Cəbhəsi Gəncə şəhər şöbəsi və bütün siyasi qurumlar əhaliyə Azərbaycanın müstəqilliyinə səs vermək çağırış müraciəti etdilər.

*1991-ci il, 28 dekabr* — Gəncə Məktəblilər Sarayında "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" muzeyi təşkil edidi.

*1991-ci il, 29 dekabr* — Gəncədə istiqlaliyyət günü ilə əlaqədar referendum keçirildi.

*1991-ci il, 29 dekabr* — Azərbaycan Respublikası müstəqilliyinin təsdiq edilməsinə həsr olunmuş referendum Gəncədə uğurla keçdi.

*1991-ci il, 29 dekabr* — Azərbaycan Respublikasının dövlət istiqlaliyyəti haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi konstitutsiya aktının müdafiəsi üçün ümumxalq səsvermə keçirildi.

*1991-ci il, 30 dekabr* — Gəncə adının qaytarılması ilə əlaqədar olaraq şəhərdə böyük tədbirlər keçirildi.

*1991-ci il* — Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 850 illiyi Gəncədə yüksək səviyyədə qeyd olundu.



*1992-ci il, 4 yanvar* — Erməni müdaxiləsi ilə əlaqədar Todan camaatı gəncəlilərə müraciət etdilər.

*1992-ci il, 5 yanvar* — "Gəncənin səsi" qəzetində çap olunan "Tarix ibrətdir" məqaləsində Azərbaycan Xalq Cümhuriyyətinin müxtəlif məsələlərinə münasibət aydınlaşdırılmışdır.

*1992-ci il, 16 yanvar* — Gəncə Dövlət Universitetində "Müstəqillik sərvətimizdir!" şüarı altında əlifba islahatına həsr olunmuş elmi-praktik konfrans keçirildi.

*1992-ci il, 18 yanvar* — Azərbaycan Respublikası Ali Soveti Milli Şurası dövlət istiqlaliyyəti haqqında konstitutsiya aktına riayət olunması haqqında Azərbaycan xalqına müraciət etdi.

*1992-ci il, 24 yanvar* — "Gəncənin səsi" qəzeti şəhərin cümhuriyyətçi görkəmli şəxsiyyətləri rubrikası ilə məqalələr dərc etdi.

*1992-ci il, 24 fevral* — Görkəmli Azərbaycan şairi, pedaqoq, cümhuriyyətçi ictimai xadim Əhməd Cavadın anadan olmasının 100 illiyinin hazırlanması və keçirilməsi haqqında Gəncə Şəhər İcra hakimiyyətinin başçısı sərəncam verdi.

*1992-ci il, 28 fevral* — Gəncə əhalisi MDB silahlı qüvvələrinin baş komandanı marşal Şapoşnikov Qarabağda erməni özbaşınalıqları ilə əlaqədar müraciət etdi.

*1992-ci il, 3 mart* — Birləşmiş Millətlər Təşkilatının 46-cı sessiyasında Azərbaycan Respublikası BMT-yə üzv qəbul olundu. Baş məclisin salonunda Azərbaycan nümayəndələri üçün yer ayrıldı.

*1992-ci il, 7 mart* — "Gəncənin səsi" qəzetində "Qaranlıq səhifələrə işıq düşür" adlı məqalədə Azərbaycan Xalq Cümhuriyyəti tarixinin müxtəlif məsələlərinə aydınlıq gətirildi.

*1992-ci il* — Çin Xalq Respublikası Azərbaycan Respublikasının istiqlaliyyətini tanıdı.

*1992-ci il, 2 aprel* — İstiqlal günü münasibətilə Milli Şuranın iclasının keçirilməsi haqqında Azərbaycan Respublikası Ali Soveti Milli Şurası qərar verdi.

| | |
|---|---|
| *1992-ci il, 29 aprel* | Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 74-cü ildönümü münasibəti ilə Respublika Milli Şurasının Gəncə Şəhər Xalq Deputatları Məclisi 28 may 1992-ci ildə birgə keçiriləcək iclası ilə əlaqədar olaraq respublika zəhmətkeşlərinə müraciət ünvanladı. |
| *1992-ci il, 13 may* | "Dünyada ilk müsəlman respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncə" haqqında "Gəncənin səsi" qəzetində geniş məqalə çap edildi. |
| *1992-ci il, 18 may* | "Gəncənin səsi" qəzetində "Unudulmaz iki il" adlı geniş məqalə çap edildi. |
| *1992-ci il, 27 may* | "Gözün aydın Azərbaycan" mövzusunda "Gəncənin səsi" qəzetində geniş məqalə çap edildi. |
| *1992-ci il, 28 may* | "Müstəqillik böyük uğurdur" mövzusunda Siyasi Maarif zalında konfrans keçirildi. |
| *1992-ci il, 28 may* | Gəncənin Azadlıq meydanında İstiqlal günü münasibəti ilə şəhər əhalisinin təntənəli ümumi mitinqi keçirildi. |
| *1992-ci il, 28 may* | Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı respublika əhəmiyyətli tədbirlərin Gəncədə keçirilməsi haqqında qərar müxtəlif səbəblərdən yerinə yetirilmədi. |
| *1992-ci il, 23 sentyabr* | Nəsib bəy Yusifbəyli haqqında geniş məqalə "Gəncənin səsi" qəzetində çap edildi. |
| *1992-ci il* | Hüseyn Baykaranın "Azərbaycanın istiqlal mübarizəsi tarixi" adlı çap olunmuş kitabında Türkiyə arxivlərindən Azərbaycan istiqlalı, xüsusən Qafqaz İslam ordusunun qardaşlıq köməyinə aid yeni sənədlər elmi mübadiləyə daxil edilmişdir. |
| *1993-cü il* | Tanınmış tədqiqatçı Səbahəddin Şimşir Ankarada nəşr olunan "Mehmet Əmin Rəsulzadənin Türkiyədəki həyatı, fəaliyyəti və düşüncələri" kitabında "Yeni Qafqaziya", "Azəri Türk", "Odlu Yurd" jurnallarındakı məqalələrin ümumi siyahısını verərək onların M.Ə.Rəsulzadəyə məxsusluğunu əsaslandırmışdır. |
| *1993-cü il* | Azərbaycanlıların "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" xətti ilə Anadolu türklərinə köməyinin yer aldığı |



| | |
|---|---|
| | Fahrettin Kırzıoğlunun "Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındaki Münasebetlere Dair Arşiv Belgeleri (1575-1918)" kitabı nəşr edilmişdir. |
| *1998-ci il, 30 yanvar* | Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır. |
| *1998-ci il, 4 fevral* | Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında Gəncə Şəhər İcra Hakimiyyəti Başçısının sərəncamı verilmişdir. |
| *1998-ci il, 22 fevral* | Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam vermişdir. |
| *1998-ci il, 24 may* | Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş ümumrespublika mərasiminin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti sərəncam vermişdir. |
| *1998-ci il, 26 mart* | Ermənilərin XIX-XX əsrlərdə azərbaycanlılara qarşı törətdikləri soyqırım və deportasiya aksiyalarına hüquqi-siyasi qiymət vermək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Azərbaycanlıların Soyqırımı haqqında" fərman imzalamışdır. |
| *1998-ci il, 26 mart* | Bütün soyqırımı faciələrini yad etmək məqsədilə "31 Mart Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. |
| *1998-ci il, 28 may* | "Gəncənin səsi" qəzetində Azərbaycan Xalq Cümhuriyyətinin liderləri haqqında geniş məqalə çap olundu. |
| *1998-ci il, 28 may* | Gəncə Dövlət Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilmişdir. |
| *1998-ci il, 11 dekabr* | Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 80 illiyi haqqında Azərbaycan Respublikası Milli Məclisi qərar vermişdir. |
| *1999-cu il,* | "Gəncənin səsi" qəzetində "Bir kərə yüksələn bayraq" |

| | |
|---|---|
| *28 may* | mövzusunda Azərbaycan Xalq Cümhuriyytinə həsr olunmuş geniş məqalə çap edilmişdir. |
| *1999-cu il, 11 iyun* | Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin adını daşıyan parkda şəhər əhalisi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması - Respublika günü münasibəti ilə bayram tədbiri keçirilmişdir. |
| *1999-cu il, 14 iyun* | Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri Heydər Əlirza oğlu Əliyev cənablarına Milli Qurtuluş gününə həsr olunmuş Gəncə şəhərində keçirilən elmi-praktik konfransın iştirakçıları müraciət qəbul etmişlər. |
| *1999-cu il, 30 iyun* | Gəncə Milli İdeologiya Mərkəzində Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının Siyasi Şurasında Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair müxtəlif məsələlər müzakirə edilmişdir. |
| *2000-ci il* | Azərbaycanlıların Anadolu türklərinə Birinci Dünya müharibəsi illərində köməyini geniş tədqiq edən Betül Aslanın "I Dünya Savaşı Esnasında Azerbaycan Türkleri"nin Anadolu Türklerine "Kardaş Kömeği (Yardımı) ve Bakü Müslüman Cemiyet-İ Hayriyesi," Atatürk Kültür Merkezi Yayınları" kitabı çap olunmuşdur. |
| *2000-ci il, 19 yanvar* | Azadlıq mübarizəmizin şəhidlərindən Rüzigar Qasımovun adı yaşadığı küçəyə verildi. |
| *2000-ci il, 25 avqust* | "Gəncənin səsi" qəzetində "İlk milli müəllimlər seminariyalarından biri" mövzusunda çap olunan məqalədə Azərbaycan Xalq Cümhuriyyəti dövründə təşkil edilən təhsil müəssisələrindən bəhs olunmuşdu. |
| *2001-ci il, 12 yanvar* | Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında Gəncə şəhərinin adının qaytarılmasının 11 illiyinə həsr edilmiş təntənəli yığıncaq keçirildi. |
| *2001-ci il, 24 yanvar* | Gəncədə "Azərbaycan Respublikası Avropa Şurasının tam hüquqlu üzvüdür" mövzusunda elmi-nəzəri konfrans keçirildi. |
| *2001-ci il,* | Gəncədə "Heydər Əliyev və müstəqil Azərbaycan" |



| | |
|---|---|
| *10 may* | mövzusunda elmi-nəzəri konfrans keçirildi. |
| *2001-ci il, 28 may* | Şəhər qəzetləri Azərbaycan Xalq Cümhuriyyətinin 83-cü ildönümü münasibəti ilə yazılar çap etdilər. |
| *2001-ci il, 18 oktyabr* | Gəncədə Azərbaycanın Dövlət müstəqilliyinin 10 illiyi münasibəti ilə bayram yığıncağı keçirildi. |
| *2001-ci il, 7-10 dekabr* | İstanbulda "Birinci dünya müharibəsinin alman-fransız pəncərəsindən dəyərləndirilməsi" beynəlxalq konfransında professor Həsənbala Sadıqov "Azərbaycan Xalq Cümhuriyyəti qüvvələrinin Bakını azad etməsi prosesində Türkiyə-Almaniya rəqabəti" mövzusunda məruzə etdi. |
| *2002-ci il, 20 yanvar* | "20 Yanvar xalqımızın qan yaddaşıdır" şüarı altında Gəncədə tədbirlər keçirilmişdir. |
| *2002 -ci il, 12 mart* | Gəncəli yazıçı Qərib Mehdinin "Kentavr-lətifələr" kitabına qardaş Türkiyə Respublikasından professor, doktor Salih Mercan rəy göndərmişdir. |
| *2002-ci il, 20 mart* | Yeni Azərbaycan Partiyası Gəncə Şəhər Təşkilatı nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin növbəti məşğələsi "Heydər Əliyev - mətbuat və ictimai rəy haqqında" mövzusuna həsr olunmuşdur. |
| *2002-ci il, 10 aprel* | Gəncədə 1918-ci il 31 Mart Azərbaycanlıların Soyqırımı Günü münasibəti ilə ümumşəhər yığıncağı keçirilmişdir. |
| *2002-ci il, 15 may* | Gəncədə Azərbaycan Respublikasının Prezidenti, görkəmli siyasi xadim Heydər Əliyevin bütün xalqa nümunə olan həyatı və çoxsahəli fəaliyyətinə həsr olunmuş elmi- praktik konfrans keçirilmişdir. |
| *2002-ci il, 28 may* | Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin 84 illiyi ilə əlaqədar tədbirlər keçirilmişdir. |
| *2002-ci il,* | Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 120 illiyi ilə əlaqədar olaraq Gəncədə çox geniş tədbirlər keçirilmişdir. |

*2002-ci il, 28 may* Gəncə Şəhər İcra Hakimiyyəti binasının kiçik zalında "Dünya Azərbaycanlılarının I qurultayından irəli gələn vəzifələr haqqında" mövzusunda konfrans keçirilmişdir.

*2002-ci il, 4 iyun* Türk xalqının böyük oğlu, şair-dramaturq, Beynəlxalq Sülh Mükafatı laureatı Nazim Hikmətin anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq Gəncədə yubiley məclisi keçirilmişdir.

*2002-ci il, 17 iyun* Gəncə şəhər əhalisi Milli Qurtuluş gününü təntənəli şəkildə qeyd etdi.

*2002-ci il, 18 oktyabr* Gəncədə Azərbaycan Respublikasının müstəqillik aktının qəbul edilməsinin 11-ci ildönümü təntənəli şəkildə qeyd edilmişdir.

*2002-ci il, 4 dekabr* Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Regional Elm Mərkəzinin qarşısında Azərbaycan xalqının görkəmli elm və mədəniyyət xadimlərinin xatirəsinə ucaldılmış abidə-kompleksinin açılış mərasimi keçirilmişdir.

*2003-cü il, 10 may* Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 80 illiyi münasibəti ilə Gəncədə Azərbaycan Beynəlxalq Universitetində "Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının memarıdır" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

*2003-cü il, 10 may* Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş Respublika Təhsil Nazirinin müvafiq əmri ilə Gəncədəki təşkil edilmiş ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri arasında ədəbiyyat fənnindən "Heydər Əliyev müstəqilliyimizin yaradıcısıdır!" inşa yazı müsabiqəsi başa çatmışdır.

*2003-cü il, 28 may* "Gəncənin səsi" qəzetində Azərbaycan Müəllimlər İnstitutunun baş müəllimi Gülara Əliyevanın "Milli dövlətçiliyimizin təntənəsi" mövzusunda Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən bəhs edən geniş həcmli məqaləsi çap olunmuşdur.



*2003-cü il, 7 iyun* Azərbaycan Xalq Cümhuriyyətinin 85 illik yubileyi günündə şəhər fəalları Dəmiryol vağzalının önündə yerləşən Məmməd Əmin Rəsulzadənin büstünə əklillər qoymuş, xatirəsi yad edilmişdir.

*2003-cü il, 7 iyun* Gəncədə Xan bağında yerləşən "Yaşıl" teatrda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 85 illik yubileyi münasibəti ilə bayram konserti təşkil olunmuşdur.

*2003-cü il, 7 iyun* Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü münasibəti ilə elmi-praktik konfrans keçirilmişdir.

*2003-cü il, 19 iyun* Milli Dirçəliş günü Gəncədə təntənə və yüksək əhval ruhiyyə ilə qeyd edildi.

*2003-cü il, 14 iyul* Heydər Əliyevin sovet hakimiyyəti illərində respublika hökumətinə rəhbər seçilməsinin 34-cü ildönümü Gəncədə təntənəli şəkildə qeyd edilmişdir.

*2003-cü il, 24 noyabr* Gəncə Dövlət Universitetində "Azərbaycan konstitutsiyası demokratik dövlətin hüquqi bazasıdır" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

*2003-cü il, 11 dekabr* Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakıda abidə ucaldılması haqqında sərəncam verilmişdir.

*2004-cü il, 31 mart* Gəncədə Azərbaycan Xalq Cümhuriyyətinin milli təhlükəsizlik sisteminin yaradıcılarının xatirəsi ehtiramla yad edildi.

*2004-cü il, 10 may* Gəncədə Heydər Əliyevin adını daşıyan prospektin açılışı oldu.

*2004-cü il, 28 may* "Gəncənin səsi" qəzetində "28 May İstiqlal Günüdür" mövzusunda geniş məqalə çap olundu.

*2004-cü il, 15 iyul* Polşa Respublikasının Dövlət Arxivi ilə Azərbaycan Respublikasının Dövlət Arxivi arasında bağlanan əməkdaşlıq müqaviləsi Azərbaycan Xalq Cümhuriyyətinə dair sənədlərin əldə edilməsinə şərait yaratdı.

| | |
|---|---|
| *2004-cü il, 26 oktyabr* | "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev - Bir il: yekunlar və perspektivlər" mövzusunda Gəncədə keçirilən dəyirmi masa iştirakçıları bəyanat qəbul etdilər. |
| *2004-cü il, 12 dekabr* | Gəncədə ümummilli lider Heydər Əliyevin anım günü keçirildi. |
| *2004-cü il, 13 dekabr* | Gəncədə Comərd Qəssab məqbərəsinin bərpadan sonra açılışı oldu. |
| *2005-ci il, 28 may* | Azərbaycan Xalq Cümhuriyyətinin 87-ci ildönümü ilə əlaqədar olaraq "Şeyxzamanov qardaşları və AXC" məqaləsi çap edilmişdir. |
| *2005-ci il, 16 sentyabr* | "Gəncənin səsi" qəzetində "Üzeyir Hacıbəyov və Gəncə" məqaləsi çap olunmuşdur. |
| *2005-ci il, 24 oktyabr* | Gəncə şəhər ziyalılarının toplantısında "Azərbaycan prezidentinin yeritdiyi siyasəti qətiyyətlə dəstəkləyirik!" bəyanatı qəbul edirdi. |
| *2006-cı il* | Süleyman Məmmədov (Təkinər) Münxendə vəfat edir və İstanbulda, Üsküdarda Qaraca Əhməd qəbiristanlığında dəfn edilir. |
| *2011-ci il, 25 aprel* | Gəncə Dövlət Universitetinin dosenti Pərvin Kərimzadə sovet hakimiyyətinə qarşı çevrilmiş "Gəncə üsyanı" məqaləsində xalqın müstəqillik uğrunda mübarizəsinin qaranlıq səhifələrinə aydınlıq gətirmişdir. |
| *2011-ci il, 26 may* | Azərbaycan Xalq Cümhuriyyətinin 93-cü ildönümü münasibəti ilə Gəncə şəhərində "Şanlı dövlətçilik və istiqlaliyyət tariximiz" mövzusunda kofrans keçirilmişdir. |
| *2011-ci il, 28 may* | Respublika günü münasibəti ilə "Gəncənin səsi" qəzetinin baş redaktoru Rəfiqə Sadıqovanın "Şanlı dövlətçilik və istiqlaliyyət tariximiz" mövzusunda məqaləsi çap edilmişdir. |
| *2011-ci il, 26 may* | Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin əməkdaşlarının tərtib etdiyi "Heydər Əliyev və milli mənəvi dəyərlərin qorunması" kitabı ictimaiyyətə təqdim edilmişdir. |



| | |
|---|---|
| *2011-ci il, 15 iyun* | Milli Qurtuluş günü Gəncədə geniş qeyd edilmişdir. |
| *2011-ci il, 17 iyun* | Gəncə Şəhər İcra Hakimiyyətinin "Azərbaycan" qəzeti ilə birgə keçirdiyi dəyirmi masa iştirakçıları Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümü və Gəncə şəhərinin müstəqillik illərində keçdiyi inkişaf yolu ilə bağlı mülahizələrini bildirmişlər. |
| *2011-ci il, 8 oktyabr* | "Azərbaycan" qəzetində "Bayrağın uca olsun, Gəncə!" məqaləsi çap olundu. |
| *2011-ci il, 21 oktyabr* | Gəncədə "Dünya Gənclər festivalı-Azərbaycanı tanı" beynəlxalq festivalı keşirilmiş, qədim və müasir Gəncəyə bir coşqunluq bəxş etmişdir. |
| *2011-ci il, 30 oktyabr* | "Azərbaycan" qəzetində "Gəncə abidələrinin yeni həyatı başlanır" məqaləsi çap edilmişdir. |
| *2011-ci il, 17 noyabr* | Gəncədə Nizami Gəncəvi Mərkəzi yaradılmışdır. |
| *2011-ci il, 15 dekabr* | Gəncədə ümummilli lider Heydər Əliyevə həsr edilmiş "Heydər Əliyev ideyaları yaşayır və əsrlər boyu yaşayacaqdır!" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. |
| *2011-ci il, 23 dekabr* | Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır. |
| *2012-ci il, 18 yanvar* | "Gəncənin səsi" qəzetində akademik Fuad Əliyevin "Elmin ziyasına bürünən məkan" məqaləsi çap olunmuşdur. |
| *2012 -ci il, 24 yanvar* | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə şəhərinə səfər etmişdir. |

*2012-ci il, 24 yanvar* — "Gəncə şəhərinin sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı verilmişdi.

*2012-ci il, 23 fevral* — Gəncənin baş rəssamı, əməkdar rəssam Şərif Şərifov "Gəncə Bakını ötəcək" rubrikalı müsahibə vermiş, müsahibədə son illərdə əldə edilən möhtəşəm uğurları sadalamışdır.

*2012-ci il, 23 fevral* — "Gəncənin səsi" qəzetində akademik Fuad Əliyevin "Müasirləşən qədim şəhərin möhtəşəm uğurları" məqaləsi çap olunmuşdur.

*2012-ci il, 7 mart* — Gəncə Şəhər İcra Hakimiyyətinin Başçısı Elmar Vəliyev - "Başladığımız iri həcmli layihələr və digər işlər vaxtında uğurla həyata keçiriləcək" demiş və dediklərini həyata keçirmişdi.

*2012-ci il, 8 mart* — "Azərbaycan" qəzetində "Gəncə dünya səviyyəli şəhərə çevrilir" məqaləsi çap olunmuşdur.

*2012-ci il, 15 may* — Gəncədə Azərbaycanın görkəmli yazıçısı Mir Cəlal Paşayevin Ev Muzeyində şəhər ziyalıları ədibin xatirəsinə həsr olunmuş tədbir keçirmişlər.

*2012-ci il, 28 may* — Azərbaycan Xalq Cümhuriyyətinin 94-cü ildönümü münasibəti ilə Gəncə şəhərində "Azərbaycan tarixinin şanlı səhifəsi" konfransı keçirilmişdir.

*2012-ci il, 30 may* — Gəncədə İnsan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş beynəlxalq müşavirə keçirilmişdir.

*2012-ci il, 30 may* — Gəncə Dövlət Universitetinin dosenti Pərvin Kərimzadənin "Gəncənin səsi" qəzetində Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunmuş "Azərbaycan tarixinin şanlı səhifəsi" məqaləsi çap olunmuşdur.

